PAŞA Bank

# 2017-ci ilin İllik Hesabatı



**Leyla Məmmədbəyova**

*Azərbaycan pilotu, Qafqazda, həmçinin Cənubi Avropada və Yaxın Şərqdə ilk qadın pilot. Müharibə zamanı təxminən 4 min paraşütçü və yüzlərlə pilot hazırladığı paraşütçülər məktəbini qurdu.*

# Mündəricat


ÜMUMİ MƏLUMAT 5

"PAŞA Bank" ASC haqqında 6
"PAŞA Holdinq" MMC haqqında 8
Mükafatlar 10
Gələcəyə baxış, missiya, dəyərlər və strateji məqsədlər 11
Maliyyə və əməliyyat göstəriciləri 12

RƏHBƏRLİK 14

Müşahidə Şurası sədrindən və İdarə Heyətinin sədrindən ön söz 16
Rəhbərliyin tərkibi 20
Səhmdarların ümumi yığıncağı 26

QLOBAL MAKROİQTİSADİ MƏNZƏRƏ VƏ AZƏRBAYCAN İQTİSADİYATI 30

2017-Cİ İLDƏ FƏALİYYƏT 38

Əsas Bank İşi Sahələri 40
Vasitəsiz bankçılıq 41
Rəqəmsal bankçiliq 43
Korporativ və kommersiya bankçılığı 44
Faktorinq 46
Fərdi bankçılıq 47
İnvestisiya bankçılığı 50
Xəzinədarlıq 51
İnstitusional bankçılıq 52
Private banking 54
Beynəlxalq nüfuz 56
Riskləri idarəemə 57
Informasiya texnologiyaları 60
Ölkədənkənar fəaliyyət 62

KORPORATİV SOSİAL MƏSULİYYƏT 64

DAYANIQLI İQTİSADİ İNKİŞAFA DƏSTƏK 70

DAYANIQLI FƏALİYYƏTƏ DAİR XÜLASƏ 76

MALİYYƏ HESABATLARININ İCMALI 84



# ÜMUMİ MƏLUMAT

# "PAŞA BANK" ASC HAQQINDA

2007-ci ildə təsis edilmiş və hazırda Azərbaycanın aparcı investisiya və korporativ bankı olan "PAŞA Bank" ASC yerli müştərilərə və regionda işgüzar fəaliyyət göstərmək niyyətində olan xarici şirkətlərə kreditvermə, ticarət əməliyyatları üçün maliyyə təminatı alətləri və xidmətləri, kapital bazarları xidmətləri və maliyyə məsləhət xidmətlərindən ibarət olan bır sıra korporativ bankçılıq xidmətlərini göstərir.

Bank, ticarətin maliyyləşdirilməsi səpkisində beynəlxalq banklar və maliyyə təsisatları ilə tərəfdaşlığın təmin etdiyi maliyyə xidmətləri dəstini təklif edir, həmçinin hüquqi şəxslər üçün anderraytinq xidmətlərini göstərir və yerli qiyməli kağızlar bazarında ilk dəfə olaraqbazarı formalaşdıran iştirakçı kimi özünü bərqərar edib. "PAŞA Bank" ASC 2011-ci ildən olduqca zəngin fərdi şəxslərə əmanətlər, kreditlər və maliyyənin planlaşdırılması daxil olmaqla Private Banking xidmətlərini göstərir.

"PAŞA Bank" ASC, 333 milyon manat nizamnamə kapitalı ilə Azərbaycanın ən yüksək kapitala malik olan özəl sektor bankıdır. Bakıdakı baş qərargah, beş filial və Gəncə və Zaqatalada iki regional filial olmaqla bankda təxminən 600 işçi heyət üzvü çalışır.2013-cü ilin fevral ayında bankın PASHA Bank Georgia ilk törəmə bankı açıldı. 2014-cü ilin dekabr ayında Türkiyənin bank fəaliyyətini tənzimləyən qurumu "PAŞA Bank" ASC-ə ölkədə fəaliyyətə başlamaq icazəsini verdi və 2015-ci ilin mart ayından bank Türkiyədə PASHA Yatırım Bankası A.Ş. adı ilə fəaliyyət göstərir.

2017-ci ilin avqust ayında Fitch Ratings agentliyi "PAŞA Bank" ASC-nin xarici valyuta ilə bağlı Emitentin Defolt Reytinqini uzun müddət kəsimində "B+", qısa müddət kəsimində isə "B" səviyyəsində rəsmən təsdiqlədi. 2018-ci ilin yanvar ayında Standard & Poor's beynəlxalq reytinq agentliyi "PAŞA Bank" ASC-nin qarşı tərəfin uzunmüddətli kredit reytinqini "BB-" səviyyəsində təkrar təsdiqlədi. "PAŞA Bank" ASC həmçinin qarşı tərəfin qısamüddətli kredit reytinqini "B" səviyyəsində qorumağa nail oldu. Bu, 100% yerli kapitalla təmin olunmuş özəl sektor bankları arasında ən yüksək göstəricilərdir.

"PAŞA Bank" ASC 2011-ci, 2012-ci və 2013-cü illərdə EMEA Finance beynəlxalq maliyyə jurnalı tərəfindən "Azərbaycanın ən yaxşı investisiya bankı" adlandırılmışdır. Əlavə olaraq, 2014-cü ildə World Finance jurnalı "PAŞA Bank" ASC-i "Azərbaycanın ən yaxşı kommersiya bankı", "Azərbaycanın ən yaxşı bank qrupu" və "Azərbaycanda "private banking" xidmətlərini təklif edən ən yaxşı bankı" adlandırmışdır. "PAŞA Bank" ASC 2016-cı ildə "Azərbaycanın ən yaxşı bankı" adına Global Finance jurnalı tərəfindən də görülmüşdür. EMEA Finance beynəlxalq maliyyə jurnalı 2016-cı ildə Avropa Bank Təltifləri (Europe Banking Awards 2016) tədbiri çərçivəsində "PAŞA Bank" ASC-i  "Azərbaycanın ən yaxşı bankı", "Azərbaycanın ən yaxşı investisiya bankı", "MŞA və MDB məkanında korporativ sosial məsuliyyət" təltiflərinə layiq görmüşdür. 2017-ci ildəEuromoney jurnalı "PAŞA Bank" ASC-i "Azərbaycanın ən yaxşı bankı" adlandırmışdır. Bundan başqa, həmin ildə Global Finance jurnalı da "PAŞA Bank" ASC-i "Azərbaycanın ən yaxşı bankı" hesab etmişdir.

"PAŞA Bank" ASC Azərbaycanın əsas investisiya holdinq şirkəri olan, sığorta, daşınmaz əmlakın yaradılması, tikinti, turizm və digər işgüzar fəaliyyət istiqamətlərində əhəmiyyətli aktivlərə malik olan "PAŞA Holdinq" şirkətlər qrupuna daxildir. Azərbaycannın ən böyük pərakəndə banklarından biri olan "Kapital Bank" ASC



**Şövkət Məmmədova**

*Azərbaycanın ilk opera ifaçısı, müəllim, musiqiçi. 1923-cü ildə Şövkət Məmmədova Azərbaycanda ilk teatr texnikumu (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) təsis edib, və eyni zamanda 1924-cü ildə onun təşkil etdiyi Dövlət Musiqi Nəşriyyatının rəhbəri olub.*

həmçinin "PAŞA Holdinq" şirkətlər qrupunun mülkiyyətindədir.

"PAŞA Bank" ASC böyüməkdə olan müştəri bazası ilə uzunmüddətli, dəstək yönümlü münasibətlərin qurulmasına və inkişafına sadiqdir, başlıca beş dəyərinə (Dürüstlük, Keyfiyyət, Sahibkarlıq, Əməkdaşlıq və Gəlirlilik) əsaslanan şəffaflıq və xidmət göstəricilərinin yüksək beynəlxalq səviyyədə təmin etməklə bank xidmətləriningöstərilməsinə çalışır.

## Səhmdarların siyahısı

"PAŞA Holdinq" MMC (60%)
"Ador" MMC (30%)
Arif Paşayev (10%)

# “PAŞA HOLDİNQ” MMC HAQQINDA

| | |
|---|---|
| CƏMİ AKTİVLƏR: | 4.8 milyard ABŞ dolları |
| CƏMİ SƏHMDAR KAPİTAL: | 1.0 milyard ABŞ dolları |
| İŞÇİ HEYƏT: | 4,200 şəxsdən çox |

2006-cı ildə təsis edilmiş “PAŞA Holdinq” MMC işgüzar fəaliyyətini effektiv idarəetmə, güclü korporativ idarəçilik və düşünülmüş investisiya qərarlarına əsaslanan möhkən bünövrə üzərində qurub.

Törəmə qurumları vasitəsilə “PAŞA Holdinq” MMC inkişaf edən Azərbaycan iqtisadiyyatının əsas dayaqları olan bank, sığorta, tikinti, daşınmaz əmlakın inkişafı və turizm sahələrinə sərmayə yatırır.

“PAŞA Holdinq” MMC-nin iki növ investisiya aktivi vardır: holdinqə mənsub olan şirkətlərdə nəzarətedici səhm payı və qapalı (özəl) minoritar səhm payı şəklində iştirak.

2017-ci ilin 31 dekabr tarixinə əsasən, “PAŞA Holdinq” MMC cəmi aktivlərini və səhmdar kapitalını (MHBS üzrə hazırlanmış və audit edilmiş maliyyə hesabatlarına və Azərbaycan manatının ABŞ dollarına (USD\AZN) qarşı məzənnəsinin 1.7001 nisbətinə əsasən)müvafiq olaraq 4.8 və 1.0 milyard ABŞ dolları həcmində bəyan etmişdir. Üç ölkədə (Azərbaycan, Gürcüstan və Türkiyə) fəaliyyət göstərən “PAŞA Holdinq” MMC-nin 4,200-dən çox əməkdaşı var.



## PASHA Holding

### PASHA Insurance

2006-cı ilin əvvəlində təsis edilmiş PAŞA Sığorta "PAŞA Holdinq" MMC-ə daxil edilmiş ilk şirkətdir və Azərbaycanda ən böyük sığorta xidmətləri təminatçısıdır. 2017-ci il 31 dekabr tarixinə olan vəziyyətə əsasən, PAŞA Sığorta ümumi (təkrar sığorta xərcləri ilə birlikdə) sığorta mükafatını (BHMS üzrə audit edilmiş maliyyə standartlarına və ABŞ dolları - AZN məzənnəsinin ortalama 1.7205 səviyyəsinə əsasən) 62 milyon manat həcmində bəyan etmişdir.

### PASHA Life

Həyat sığortası istiqaməti 2010-cu ildə "PAŞA Sığorta" ASC-nin fəaliyyət daiəsinə əlavə edilmiş, sonralar isə ayrıca hüquqi şəxs, "PAŞA Həyat Sığorta" ASC kimi qeydiyyatdan keçmişdir. Hazırda bu şirkət, ümumi (təkrar sığorta xərcləri ilə birlikdə) sığorta mükafatı (BHMS üzrə audit edilmiş maliyyə standartlarına və ABŞ dolları - AZN məzənnəsinin ortalama 1.7205 səviyyəsinə əsasən) 88 milyon ABŞ dolları təşkil etməklə Azərbaycanın aparıcı həyat sığorta xidmətləri təminatçısıdır.

### PASHA Travel

2003-cü ildə təsis edilmiş PASHA Travel şirkətlərə və fərdi şəxslərə genişçeşidli səyahət və qarşılama xidmətləriri göstərir. PASHA Travel hazırda Azərbaycanın ən geniş tanınan və rəğbət bəslənilən korporativ səyahət agentliklərindən biridir.

### PASHA Capital

PAŞA Kapital artım kapitalı şəklində yatırımları diqqət mərkəzində saxlayan şəxsi özəl kapital şirkətidir və "PAŞA Holdinq" MMC qarşısında 94 milyon ABŞ dolları həcmində vəsait öhdəliyini daşıyır. Əvvəlcə "PAŞA Holdinq" MMC-nin İnvestisiya və layhələr departamenti kimi təsis edilmiş, 2018-ci ilin yanvar ayında isə ayrıca hüquqi şəxs, "PAŞA Kapital İnvestisiya Şirkəti" QSC kimi fəaliyyətinə davam etmişdir. Şirkətin birbaşa aid olduğu ana şirkət "PAŞA Holdinq" MMC-dir.

### PASHA Investments

"PAŞA İnvestments" artım kapitalı şəklində yatırımları diqqət mərkəzində saxlayan özəl kapital şirkətidir və "PAŞA Holdinq" MMC qarşısında 94 milyon ABŞ dolları həcmində vəsait öhdəliyi daşıyır. Əvvəlcə "PAŞA Holdinq" MMC-nin İnvestisiya və layihələr departamenti kimi təsis edilmiş, 2018-ci ilin yanvar ayında isə ayrıca hüquqi şəxs, "PAŞA İnvestments" MMC kimi fəaliyyətinə davam etmişdir. Şirkətin birbaşa aid olduğu ana şirkət "PAŞA Holdinq" MMC-dir.

### PASHA Construction

"PAŞA İnşaat" MMC fəaliyyət göstərdiyi sahə üzrə Azərbaycanın ən böyük şirkətlərindən biridir. 2017-ci il 31 dekabr tarixinə olan vəziyyətə (BHMS üzrə audit edilmiş maliyyə standartlarına və ABŞ dolları - AZN məzənnəsinin ortalama 1.7205 səviyyəsinə) əsasən dövriyyəsini 168 milyon ABŞ dolları həcmində bəyan edib. 2016-cı ilin sonunda şirkətin başa çatdırılmış layihələr portfeli 1,180,000 m2, tikintisi davam etdirilən layihələr üzrə isə 830,000 m2 əlavə sahə gözlənilir. Bu layihələrə pərakəndə satış, yaşayış, ofis əraziləri, mehmanxanalar və irimiqyaslı qarışıq istifadəli əmlak daxildir. Uğurla başa çatdırılmış layihələrə Absheron JW Marriott Hotel & Residences mehmanxana və yaşayış mənzilləri, Four Seasons Hotel mehmanxanası, Port Baku Towers biznes mərkəzi, "Şüvəlan Park" ticarət mərkəzi, Nizami Residence yaşayış kompleksi, Bakı Biznes Mərkəzi və "Çinar" restoranı daxildir.

### Kapital Bank

Kapital Bank pərakəndə bankçılığa yönəlməklə korporativ və fərdi müştərilərə geniş çeşiddə xidmət göstərən universal bankdır. Kapital Bank coğrafi ərazi baxımından Azərbaycanın ən böyük filial şəbəkəsinə malikdir. Bank, (2016-cı ilin iyul tarixinə əsasən) Standard & Poor's reytinq agentliyinin 'BB-' və (2017-cı ilin iyul tarixinə əsasən) Moody's Investors agentliyinin 'Ba3' reytinq dərəcəsini alıb.

# MÜKAFATLAR

*Təsis edildikdən sonra "PAŞA Bank" ASC və onun törəmə bankları mötəbər beynəlxalq və yerli dairələrin bir çox mükafat və fəxri təltiflərini almışdır.*

**2017**

"Azərbaycanın ən yaxşı bankı"– Euromoney jurnalı

"Azərbaycanın ən yaxşı bankı" – EMEA Finance jurnalı

"Azərbaycanın ən yaxşı investisiya bankı"– EMEA Finance jurnalı

"MŞA və MDB məkanında korporativ sosial məsuliyyət" – EMEA Finance jurnalı

"Azərbaycanın ən yaxşı bankı" – Global Finance jurnalı

**2016**

"Azərbaycanın ən yaxşı bankı" – Global Finance jurnalı

"Azərbaycanın ən yaxşı bank qrupu" – World Finance jurnalı

"Azərbaycanın ən yaxşı kommersiya bankı" – World Finance jurnalı

**2015**

"Azərbaycanın ən yaxşı bank qrupu" – World Finance jurnalı

"Azərbaycanda "private banking" xidmətlərini təklif edən ən yaxşı bankı" – World Finance jurnalı

"Azərbaycanın ən yaxşı kommersiya bankı" – World Finance jurnalı

"Azərbaycanın ən yaxşı bankı" – World Finance jurnalı

"Azərbaycanın ən yaxşı bankı" – EMEA Finance jurnalı

"İlin iştirakçısı" – Azərbaycan Mikromaliyyə Asosiasiyası (AMFA)

"Gender bərabərliyini təbliğ edən aparıcı şirkət" – Azərbaycan Mikromaliyyə Asosiasiyası (AMFA)

**2014**

"Azərbaycanın ən yaxşı bankı" – EMEA Finance jurnalı

"Azərbaycanın ən yaxşı bankı" – International Finance jurnalı

"Azərbaycanın ən yaxşı investisiya bankı" – International Finance jurnalı

"Azərbaycanda KOS-larlar işləyən ən yaxşı bank" – International Finance jurnalı

"Azərbaycanın ən yaxşı investisiya bankı" – EMEA Finance jurnalı

"Azərbaycanda "private banking" xidmətlərini təklif edən ən yaxşı bank" – World Finance jurnalı

"İlin bankı" – Xəzər Enerji Forumu (PASHA Bank Georgia)

"Azərbaycanın ən yaxşı brokeri" – EMEA Finance jurnalı ("PAŞA Kapital İnvestisiya Şirkəti" QSC)

**2012**

"Azərbaycanın ən yaxşı investisiya bankı" – EMEA Finance jurnalı

"Azərbaycanın ən yaxşı bankı" – BNE jurnalı

"Avropada ən yaxşı korporativ sosial məsuliyyət proqramı" –EMEA Finance jurnalı (Europe Banking Awards 2012 təltifi çərçivəsində)

**2011**

"Azərbaycanın ən yaxşı investisiya bankı" – EMEA Finance jurnalı

# GƏLƏCƏYƏ BAXIŞ, MİSSİYA, DƏYƏRLƏR VƏ STRATEJİ MƏQSƏDLƏR



### Gələcəyə baxışımız

Gələcəyə baxışımız, danılmaz işgüzar nüfuz, yüksəkkeyfiyyətli xidmətlər və maliyyə gücü ilə yanaşı ən yüksək etik standartların saxlanılmasınasadiq qalan aparıcı Azərbaycan bankı olmaqdır.

### Missiyamız

- Müştərilərimizin tələbatına uyğunlaşdırılmış yüksək keyfiyyətli xidmət və məhsulları təmin etməklə müştərilərimizin inkişafına töhfə vermək
- Yüksək səriştəyə malik olan və işinə sadiq heyəti işə cəlb etmək, təlimləndirmək və yetişdirmək
- İctimaiyyətin rifah və mədəni inkişafına dəstək vermək
- Güclü maliyyə mövqeyini qorumaq
- Güclü maliyyə mövqeyini qorumaqnkişafına dəstək vermə

### Dəyərlərimiz

- Dürüstlük
- Keyfiyyət
- Əməkdaşlıq
- Sahibkarlıq
- Gəlirlilik

### Strateji məqsədlərimiz

- Kapitalın və təşkilatin səmərəliliyinin möhkəmləndirilməsi
- Əsas bacarıqların gücləndirilməsi
- PAŞA Bankın bazar mövqeyinin gücləndirilməsi
- Müştəri xidmətlərinin dəstəklənməsi
- Qrupdaxili sinergiyaların qurulması



# MALİYYƏ VƏ ƏMƏLİYYAT GÖSTƏRİCİLƏRİ

## Əsas maliyyə nailiyyətləri (konsolidə edilmiş göstəricilər, milyon AZN)

| | 2015 | 2016 | 2017 |
|---|---|---|---|
| Cəmi aktivlər | 2,292.7 | 3,289.8 | 3,958.4 |
| Kreditlər (xalis həcm) | 902.2 | 1,107.3 | 1,350.7 |
| Depozitlər | 1,374.1 | 2,350.7 | 2,890.0 |
| Müştərilərin müddətli depozitləri | 472.9 | 1,352.3 | 1,033.4 |
| Müştərilərin cari hesabları | 901.2 | 998.9 | 1,856.6 |
| Səhmdar kapital | 432.4 | 487.3 | 499.1 |
| Faiz gəliri | 100.3 | 157.5 | 231.1 |
| Xidmət haqqı və komissiya gəliri | 12.7 | 20.7 | 24.8 |
| Əməliyyat gəliri | 116.3 | 186.5 | 194.3 |
| Cəmi əməliyyat xərcləri | 47.4 | 75.5 | 82.3 |
| Xalis mənfəət | 14.4 | 69.3 | 89.1 |

## Əsas maliyyə əmsalları (%)

| | 2015 | 2016 | 2017 |
|---|---|---|---|
| Kreditlər/cəmi aktivlər | 39.4 | 33.7 | 34.1 |
| Kreditlər/depozitlər | 65.7 | 47.1 | 46.7 |
| Qeyri-işlək kreditlər | 3.82 | 8.25 | 7.23 |
| Tələbli depozitlər/ cəmi depozitlər | 65.6 | 42.5 | 64.2 |
| Səhmdar kapital/ cəmi passivlər | 23.2 | 17.3 | 14.4 |
| Kapitalın çatarlılığı | 17 | 20 | 15 |

## Əsas əməli nailiyyətlər (Azərbaycan üzrə)

| | 2015 | 2016 | 2017 |
|---|---|---|---|
| İşçi heyətin sayı | 414 | 475 | 608 |
| Qadın işçilərin nisbi sayı (%) | 39.8 | 39.5 | 42 |
| Filialların sayı | 10 | 7 | 7 |
| Bankomatların sayı | 30 | 35 | 44 |



**Xurşudbanu Natavan**

*Son Qarabağ xanın qızı və məşhur şair. Natavan Azərbaycanın lirik şeirləri və ictimai fəaliyyəti ilə yadda qalıb. Xurşudbanu şəhər əhalisinin su ilə təmin olunmasında və Sarıbaba rayonunda İsa baharından Şuşaya su boru kəməri çəkməkdə fəal iştirak etmişdir.*



# RƏHBƏRLİK

# MÜŞAHİDƏ ŞURASININ SƏDRİ VƏ İDARƏ HEYƏTİNİN SƏDRİNDƏN ÖN SÖZ

**Hörmətli həmkarlar, müştərilər və tərəfdaşlar,**

Qlobal iqtisadiyyatın dövri bərpası baş verərkən investisiya qoyuluşu, istehsalat və ticarət sahələrində dünya miqyasında fəallıq yaşanır. Qlobal ÜDM artımının2016-cı ildə 2.4%-dən 2017-ci ildə 3.0%-dək yüksəlməsi güman edilir. İqtisadiyyatı inkişaf etmiş ölkələrdə 2017-ci ildə artım göstəricisi 2.3% civarında proqnozlaşdırılır. Eyni zamanda, əmtəə ixracatçısı olan ölkələrin iqtisadi fəaliyyətində irəliləyişlə əmtəə idaxalatçısı olan ölkələrdə davam edən güclü artımı əks etdirən bu göstəricinin inkişaf etməkdə olan iqtisadi sistemlərdə 4.3%-dək dirçəlməsi gözlənilir.

2017-ci il ərzində 0.1%-lik ÜDM artımına nail olmuş Azərbaycan iqtisadiyyatı həmçinin stabilləşmişdir. İqtisadiyyatın neft-qaz sektorunda 5.3%-lik tənəzzül baş vermişdir, qeyri-neft ÜDM isə əksinə, 2.7% artmışdır. İl ərzində müsbət artımın nail olunmasına daxili və xarici tələb töhfə vermişdir. Üstəlik, 2017-ci ildə dövlət xərcləri, əsaslı kapital xərclərində ikirəqəmli artım daxil olmaqla 11% yüksəlmişdir.

Milli valyutanın məzənnəsi dalğalanma dövründən sonra sabitləşmişdir, milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsinin icrası çərçivəsində əhəmiyyətli islahatlar nəticəsində iqtisadiyyat canlanmağa başlamışdır. Azərbaycanın maliyyə xidmətləri sahəsini daha da inkişaf etdirmək üçün formalaşdırılmış Strateji Yol Xəritəsi qısa, orta və uzunmüddətli fəaliyyət planlarından ibarətdir. Bura 2017-ci ildə Azərbaycanın bank sektorunda likvidlik və kapitallaşma problemlərini həll etmək məqsədilə maliyyə təsisatlarının birləşdirilməsi və yeni infrastrukturun (məsələn, kredit bürolarının) yaradılması daxildir.

Bununla belə, bank aktivləri illik əsasda 11.2%, 31.4 milyard manatdan 27.9 milyard manatadək azalmışdır.Bu azalmanı ölkənin bank sektoruna il ərzində təsir etmiş mənfi amillərlə (məsələn, bank lisenziyalarının geri çağrılması, borcların könüllü restrukturizasiyası və s.) izah etmək olar. Nəticədə Azərbaycan bank sistemində ümumi kredit portfelinin həcmi 2016-cı ildə 16.4 milyard manatdan 2017-ci ildə 11.8 milyard manatadək azalaraq il ərzində 22% daralarmışdır.

Eyni zamanda, qeyri-işlək kreditlərin həcmi 2017-ci ildə ümumi kredit həcminin 13.8%-itəşkil etməklə illik əsasda 10.5%, 1,472.6 milyon manatdan 1,626.7 milyon manatadak artmışdır. Korporativ kredit portfeliəvvəlki illə müqayisədə 10.1 milyard manatdan 6.6 milyard manatadək, 34.7% azalmışdır. Fərdi şəxslərə verilən kreditlər üzrə portfel isə 6.33 milyard manatdan 5.15 milyard manatadək, illik əsasda 18.6% azalmışdır.

2017-ci ildə depozitlərin cəmi22.09 milyard manatdan 20.6 milyard manatadək, 6.8% daralmışdır. Xarici valyutada qoyulmuş depozitlərin həcmində il ərzində 16.6 milyard manat ekvivalentindən 14.9 milyard manat ekvivalentinədək, 10.3% azalma, milli valyutada yerləşdirilmiş depozitlərin həcmində isə 5.5 milyard manatdan 5.7 milyard manatadək, 4.2% artım baş vermişdir.Bununla belə, 2017-ci ilin dekabr ayında korporativ və fərdidepozitlərin həcmində illik əsasda müvafiq olaraq 21.8 və 1.5% yüksəliş baş vermişdir. Maliyyə təsisatlarının yerləşdirdiyidepozit həcmi isə 65% azalaraq 1.9 milyard manat civarında qərarlaşmışdır.

Azərbaycan bank sektorunda yaşanmış belə bir olduqca gərgin dövrə baxmayaraq, “PAŞA Bank” ASC 2017-ci ildə möhkəm göstəricilər nümayiş etdirmişdir. Müasir, müştəri yönümlü çoxvasitəli banka çevrilərək və daxili biznes proseslərimizi rəqəmsallaşdıraraq il ərzində gerçək irəliləyişə nail olmuşuq. Bu, fəalyyətimizdə strateji diqqətin korporativ idarəçilik, müştəriyə yönəlmə və biznes proseslərin davamlı

qaydada səlisləşməsi kimi məsələlər üzərində cəmləşməsinin nəticəsidir.

Yerli bank sektorunda investisiya portfelinin daralması və mənfəətliliyin yox olması yaşanan bir vaxtda "PAŞA Bank" ASC aktivlərvə mənfəət həcmində artımbəyan etmişdir. Bankın əməli mənfəəti 4%, (2016-cı ildə 186 milyon manatdan) 194 milyon manatadək, xalis mənfəəti isə 29%, (2016-cı ildə 69 milyon manatdan) 89 milyon manatadək yüksəlmişdir. Aktivlərimiz 20%, 3,958 milyon manatadək, müştərilərə verilmiş kreditlərin həcmi isə 21%, (2016-cı ildə 1,170 milyon manatdan) 1,414 milyon manatadək artmışdır. Müştəri əmanətlərinin həcmində 23%, 2016-cı ildə 2,351 milyon manatdan 2017-ci ildə 2,890 milyon manatadək artım baş vermişdir.

"PAŞA Bank" ASC bütövlükdə korporativ, həmçinin kommersiya və KOS seqmentləri üzrə müştərilərinə innovativ məhsul və xidmətlərin göstərilməsi məqsədinə davam etməkdədir. Münasibətləri idarəetmə sahəsində bənzəri olmayan modelimiz, həmçinintələblərə uyğunlaşdırılmış məhsul və xidmətlərimizbu seqmentlərdə yer tapmış müştərilərin maraqlarına cavab vermək məqsədilə tərtib edilir. Bu, yerli bazarda strateji movqetutma baxımından "PAŞA Bank" ASC-nin apardığı fəaliyyətin məğzidir.

2017-ci ildə "PAŞA Bank" ASC Azərbaycan bank sektorunda bir sıra birinciliklərə imza atmaqla əhəmiyyətli hədəflərə nail olmaq qürurunu yaşamışdır.

Dünya miqyasında yüksəktəbəqəli maliyyə təsisatları arasında yer almaqla "PAŞA Bank" ASC il ərzində Oracle FLEXCUBE maliyyə platformasınıişə salmağa müvəffəq olmuşdur. Dünyanın bir çox "A" reytinqli banklarında tətbiq edilən bu platforma müştərilərin qeyri-daimi tələbat və ehtiyaclarını daha effektiv qaydada tənzimləmək imkanını yaradır və bankda daha yaxşı hazırlanmış və müştərilərə daha çox yönəlmiş yeni onlayn bankçılıq sisteminintərtib edilməsini asanlaşdırıb. Bu səy nəticəsindəİnternet bankçılıqdan istifadə təmayülü artım dinamikasını saxlamışdır; ilin sonunadək bank əməliyyatlarının 86%-i onlayn bankçılıq vasitəsilə işlənmişdir.

"PAŞA Bank" ASC böyük və kommersiya müştəriləri üçün B2B ("biznesdən biznesə") platformasını tətbiq etdikdən sonrarəqabət mövqeyini daha da möhkəmləndirmişdir. Bu sistem, müştərilərin müəssisə resurslarının planladşırılması sistemlərinin "PAŞA Bank" ASC-nin müvafiq sisteminə inteqrasiya etmək, nəticədə müştəri əməliyyatları sürətini kəskin dərəcədə artırmaq imkanını yaratmışdır. Beləliklə, "PAŞA Bank" ASC belə üstün texnoloji platformanı ölkədə istismara vermiş ilk bank olmuşdur.

Üç il bundan əvvəl təsis edilmiş İnvestisiya Bankçılığı departamentimiz bu rəqabətli bazar mühitində öz yerini tutmağa davam etməklə əsas "birinciliklərinə" 2017-ci ildə imza atmışdır. İl ərzində departament yerli bazar tarixində ilk sindikat kreditini təşkil etmişdir. Departament "Anglo Asian Mining plc" şirkətinin 2018-ci ildə fəaliyyətinin genişləndirilməsi və optimallaşdırılması planlarının icrasını sürətləndirmək məqsədilə 8.4 milyon ABŞ dolları məbləğində kapitalısəfərbər etməklə mövcud borcunun böyük hissəsini təkrar maliyyələşdirmək üçün 13.5 milyon ABŞ dolları məbləğində, müddəti iki il, illik 7% dərəcəsi şərti ilə kredit üçün sindikatı (bir qrup kreditorları) təşkil etmişdir və əmələ gətirmişdir. "PAŞA Bank" ASC-nin investisiya bankçılığı bölməsi bu sövdələşmə çərçivəsində səlahiyyət verilmiş baş təşkilatçı qismində çıxış etmiş və müvafiq krediti bir yerli, bir xarici bankdan ibarət olan sindikat tərəfindən əmələ gətirmişdir. 2017-ci ildə İnvestisiya Bankçılığı departamenti Azərbaycan qiymətli

kağızlar bazarının tarixində ilk dəfə 25 milyon ABŞ dolları dəyərində avrobond yerləşdirmişdir. Bondların dövriyyə müddəti beş il, kupon (təsbit edilmiş illik faiz) dərəcəsi ilə 4.85%-dir. Bu, əsasən yerli institusional investorların iştirakı ilə qapalı yerləşdirmə əməliyyatı idi. Bununla belə, hazırda müvafiq avrobondları yerli bazarda açıq dövriyyəyə buraxmaq məqsədilə "PAŞA Kapital İnvestisiya şirkəti" ilə birlikdə iş aparılır. Üstəlik, 2017-ci ildə İnvestisiya Bankçılığı departamentimiz bank olmayan maliyyə təşkilatları arasında ilk repo əqdləşməsi üzrə vasitəçi kimi çıxış etmişdir. Yenilik yaratmış bu sövdələşmənin müddəti 30 gün, dəyəri isə 1 milyon ABŞ dollarına yaxın idi. "PAŞA Bank" ASC növbəti ildə yeni birinciliklərlə bank sektorunun öndəri qismində qalmağı planlaşdırır.

2017-ci ildə makroiqtisadi sıxıntılara baxmayaraq, "PAŞA Bank" ASC beynəlxalq reytinq agentliklərinin etiraf etdiyi kimi borc ödəmə qabiliyyətini itirməmişdir. 2017-ci ilin avqust ayında Fitch Ratings agentliyi perspektivi stabil olmaqla "PAŞA Bank" ASC-nin xarici valyuta ilə bağlı Emitentin Defolt Reytinqini uzun müddət kəsimində "B+", qısa müddət kəsimində isə "B" səviyyəsində rəsmən təsdiqlədi. 2018-ci ilin yanvar ayında Standard & Poor's beynəlxalq reytinq agentliyi "PAŞA Bank" ASC-nin qarşı tərəfin uzunmüddətli kredit reytinqini "BB-" səviyyəsində təkrar təsdiqlədi. "PAŞA Bank" ASC həmçinin qarşı tərəfin qısamüddətli kredit reytinqini "B" səviyyəsində qorumağa nail oldu. Bu, 100% yerli kapitalla təmin olunmuş özəl sektor bankları arasında ən yüksək göstəricilərdir.

Yerli bazarda əldə etdiyimiz nailiyyətlərə həmçinin xaricdən ciddi diqqət yetirilib. 2017-ci ildə "PAŞA Bank" ASC Euromoney maliyyə jurnalından "Azərbaycanın ən yaxşı bankı" təltifinə layiq görülmüşdür. Əlavə olaraq, EMEA Finance jurnalıEurope Banking Awards 2015 tədbiri çərçivəsində "PAŞA Bank" ASC-i "Azərbaycanın ən yaxşı bankı", "Azərbaycanın ən yaxşı investisiya bankı" və "MŞA və MDB məkanında korporativ sosial məsuliyyət"nominasiyaları üzrə təltifə layiq görmüşdür. Üstəlik, Global Finance jurnalı "PAŞA Bank" ASC-i "Azərbaycanın ən yaxşı bankı" adlandırmışdır.

"PAŞA Bank" ASC-i rəqabərdə fərqləndirən aparıcı amil rəqəmsal strategiyamıza əsaslanaraq bundan sonra da yeni rəqəmsal məhsulların və xidmətlərin yaradılmasına sadiq qalmağımızdır. Bankımızda məhsul və xidmət portfelini yaratmaq üçün yaradıcı düşüncə metodologiyası tətbiq edilir. Bu yanaşma, məhsulların tərtibatında və proseslərin qurulmasında müştərinin nəyə ehtiyac duyması və üstünlük verməsinə dair istifadə edilən vacib məlumatı təmin edir.

2017-ci ildə "PAŞA Bank" ASC növbəti üç, 2018-2020-ci illəri əhatə edən dövr üzrə rəqəmsal strategiyasını formalaşdırmışdır. Bu strategiyamız çərçivəsində bank diqqətini əsas fəaliyyət sahələrinə davam etmək və ən münasib biznes proseslərirəqəmsallaşdırmaq üzərində cəmləşdirəcək. Bu yanaşma "PAŞA Bank" ASC-ə 2020-ci ilin sonuna səmərəlilik baxımından mühüm üstünlüklərin nail olunmasına və mənfəət göstəciriclərinin artırılmasına davamlı qaydada yardım edəcək.

Bu məqsədlə 2017-ci ildə müfəssəl rəqəmsal biznes model yaratmışıq. Rəqəmsallaşmaya bu səpkidə sadiqliküstün rəqəmsal və xidmət təklifləri ilə seçilən "PAŞA Bank" ASC-i bütünmüştərilər üçün daha cəlbedici edəcək. "PAŞA Bank" ASC-nin yeni rəqəmsal məhsul və xidmətlərlə yeni müştərilər üçün daha cəlbedici olmasına, mövcud müştərilər qarşısında isə daha böyük etibar qazanmasına böyük inamımız var.

Qarşıdan gələn ildə Azərbaycan iqtisadiyyatınındaha yüksək təmayüllə, Beynəlxalq Valyuta Fondunun (BVF) proqnozuna əsasən 2% civarında böyüməsini təsəvvür edirik. ÜDM-nin daha möhkəm artım göstəricisi ilə yanaşı maliyyə və iqtisadiyyatın real sektorunda irimiqyaslı islahatlar 2018-ci ildə yerli bank sektorunda yaxşılaşmaya səbəb ola bilər.Üzərimizə gələn ildə bankların rəqəmsal transformasiyadan işgüzar fəaliyyətin birinci dərəcəli məsələsi kimi yararlanmalarını gözləyirik.

Bizim üçün texnologiyalara investisiya qoyuluşu səmərəliliyin artmasına, yaranan risklərin idarə edilməsinə yardım edir, artım fürsətlərindən yararlanmaq üçün bizə imkan yaradır və bunların hər biri 2018-ci ildə dayanıqlı uğurun əldə edilməsində taleyüklü əhəmiyyət kəsb edəcək. Bu baxımdan "PAŞA Bank" ASC qarşıdan gələn ildə kredit və depozit həcmində davamlı artımı müvafiq olaraq 24% və 19% səviyyəsində hədəfləyir.

Müştərilər "PAŞA Bank" ASC-nin əsas prioritet məsələsi kimi qalmaqdadırlar. Gələcək rəqəmsal xidmətlərimizin və həllərimizin müştəri rahatlığını, asan istifadəni və başlıca olaraq yararlılığı təmin etməklə tərtib edilməsinə davamlı surətdə şərait yaradırıq. Məqsədimiz, dəyişməz olaraq, fəaliyyətimizin hər istiqamətində ən yüksək səviyyədə müştəri məmnunluğuna yetişməkdir.

İnnovativ və müştəri yönümlü yanaşmamız nəticəsində "PAŞA Bank" ASC təsis edildiyi tarixdən Azərbaycanın maliyyə sektorunun öndəri qismində qalmağa davam edir. Müştərilərimizdə xüsusilə gərginlik yaşanan zaman güclü tərəfdaşa ehtiyacın olmasını anlayırıq. Yarandığımız ilk gündən müştərilərimizə istər çətinliklərlə, istərsə fəaliyyətini genişləndirmək və böyümək tələbatı ilə üzləşərkənnarxa olmuşuq. Almağa davam etdiyimiz müsbət rəylər və ilin sonuna dəlalət edən möhkəm nəticələrimiz düzgün yolda olduğumuza işarə edir.

Davamlı dəstəklərinə və "PAŞA Bank" ASC-nin cari uğurlarında müvafiq iştiraklarına görə bizə etibarlı qalan müştərilərimizə, sadiq işçi heyətimizə, dəyərli səhmdarlarımıza və digər tərəfdaşlarımıza minnətdarlığımızı bildirmək istərdik. Hər birimiz gələcəkdə, birlikdə daha böyük uğurlara imza ataq!

*Hörmətlə,*

*Mir Camal Paşayev,*
*Müşahisə Şurasının sədri*

*Taleh Kazımov,*
*İdarə Heyətinin sədri*

# RƏHBƏRLİYİN TƏRKİBİ

## "PAŞA Bank" ASC-nin rəhbərliyi
## Müşahidə Şurası

### Mir Camal Paşayev
### Müşahidə Şurasının sədri

Mir Camal Paşayev 1993-cü ildə Moskva Dövlət Universitetinin Fizika fakültəsini bitirib. 1996-ci ildə o, texniki elmlər üzrə magistr dərəcəsi almaq məqsədilə Kaliforniya Universitetinə daxil olub və bundan sonra, 1998-ci ildə Vaşinqtondakı "Amerika Universiteti"-nin işgüzar inzibatçılıq üzrə magistr dərəcəsini alıb. 1998-ci ildə "Mobil Korporeyşn" şirkətinin Dallas və Vaşinqton ofislərində biznes layihələrinin məsləhətçisi vəzifəsində işləyib. 1999-cu ildə Azərbaycan Respublikasının Mərkəzi Bankının məsləhətçisi vəzifəsini icra etmək üçün Bakıya gəlib. 2000-ci ildə o, Avropa Yenidənqurma və İnkişaf Bankında (AYİB) maliyyə analitiki kimi işə başlayıb, tezliklə infrastruktur layihələri üzrə bankir vəzifəsinə yüksəlib. 2005-ci ildən 2008-ci ilədək infrastruktur, telekommunikasiya və maliyyə xidmətləri sahəsində irimiqyaslı investisiya layihələri üzrə konsaltinq fəaliyyəti ilə məşğul olub.

Mir Camal Paşayev 2006-cı ildən "PAŞA Holdinq" MMC-də icraçı direktor vəzifəsində çalışır. O həmçinin "PAŞA Sığorta" ASC-nin Müşahidə Şurasının sədridir.

### Fərid Axundov
### Müşahidə Şurasının üzvü

Fərid Axundov 1992-ci ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu (hazırda Azərbaycan Dövlət İqtisad Universitetini) bitirib. O həmçinin Nottingham Trent Universitetinin idarəetmə sahəsində kurs işini tamamlayıb. 1994-cü ildə o, Birləşmiş Krallıq hökumətinin təsis etdiyi, Xarici İşlər və Britaniya Birliyi Məsələləri Nazirliyi tərəfindən təltif edilən nüfuzlu Chevening təqaüdünü qazanan ilk Azərbaycan vətəndaşlarından biri olmuşdur, 1995-ci ildə Salford Universitetinin (Mançester, Birləşmiş Krallıq) MBA (işgüzar inzibatçılıq üzrə magistr) dərəcəsini almışdır.

Cənab Axundov əmək fəaliyyətinə 1991-ci ildə metal məmulatları zavodunda iqtisadçı vəzifəsindən başlamışdır. Bir il sonra o, xarici iqtisadi əlaqələr üzrə baş iqtisadçı qismində Azərbaycan Respublikası İqtisadiyyat və Planlaşdırma Dövlət Komitəsinə işə qəbul edilmişdir. 1996-cı ildən 2003-cü ilədək Fərid Axundov HSBC-nin törəmə qurumu British Bank of the Middle East bankında bir sıra rəhbər vəzifələr tutmuş, maliyyə nəzarəti meneceri vəzifəsindən Müştəri Xidmətləri, sonra Korporativ Bankçılıq departamentinin rəhbəri, nəhayət, HSBC Azərbaycanın baş icraçı müdir müavini vəzifəsinədək yüksəlmişdir.2003-cü ildə Fərid Axundov İdarə Heyətininsədri qismində "Most-Bank Azərbaycan" KB-də fəaliyyətə başlamış, "Mostbank Azərbaycan"-nın restrukturizasiyası və rebrendinqi nəticəsində o zaman ölkənin ən böyük kommersiya banklarından biri olan "Bank Standard" ASC-nin yaradılması prosesinə nəzarət etmişdir. 2007-ci ildə Fərid Axundov "PAŞA Bank" ASC-də İdarə Heyətinin sədri qismində fəaliyyətə başlamış, 2015-ci il 1 iyul tarixində Müşahidə Şurasının üzvü vəzifəsinə təyin edilmişdir.

### Vadim Şneyer
### Müşahidə Şurasının üzvü

Vadim Şneyer 1991-ci ildə Bakı Dövlət Universitetinin Hüquq fakültəsini hüquq elmləri üzrə fərqlənmə diplomu ilə bitirib. 1991-1997-ci illərdə müxtəlif yerli və xarici şirkətdə, o cümlədən, Bakı Banklararası Valyuta Birjasında və Far East Levingston Shipbuilding gəmiqayırma şirkətində hüquqşünas işləyib.

1997-2001-ci illərdə o, Dr. Entezari & Associates hüquq şirkətinin Bakı ofisində idarəedici partnyor kimi fəaliyyət göstərib. 2001-ci ildə Michael Wilson & Partners hüquq şirkətinin Almatı ofisinə işə qəbul edilib və 2005-ci ilədək orada işləyib. 2005-ci ildə "BM" hüquq şirkətinin Bakı ofisinə işə qəbul edilib və 2007-ci ilədək orada işləyib. Vadim Şneyder 2007-ci ildən "PAŞA Holding" MMC-nin Hüquq Departamentinin direktoru vəzifəsində işləyir, 2011-

ci ildə "PAŞA Holding" MMC-nin direktor müavini vəzifəsinə təyin edilib. 2008-2013-cü illərdə Vadim Şneyer "Kapital Bank" ASC-nin Müşahidə Şurasının sədri olub.

**Kəmalə Nuriyeva**
**Müşahidə Şurasının üzvü**

Kəmalə Nuriyeva 1998-ci ildə Qərb Universitetini bank işini idarəetmə ixtisası ilə bakalavr pilləsi üzrə bitirib. 2002-ci ildə o, təhsilinə davam edərək Azərbaycan Dövlət İqtisad Universitetinin maliyyə üzrə magistr dərəcəsini alıb. Peşəkar karyerasına 1996-cı ildə "Poçtbank" ASC-də İT üzrə mütəxəssis vəzifəsində başlayıb və burada yeddiillik fəaliyyəti ərzində Kredit şöbəsinin rəhbəri vəzifəsinədək yüksəlib. 2003-cü ildə o, Azərbaycanın bölgələrində kənd təsərrüfatının inkişafı məqsədilə TACIS proqramı çərçivəsində yaradılmış Kənd Təsərrüfatına İnvestisiyalar Fondunda fəaliyyətə başlamış, kredit mütəxəssisi kimi müştərilərin cəlb edilməsi, kreditlərin verilməsi və idarə edilməsinə cavabdeh olmuşdur. Həmin il Kəmalə Nuriyeva "Unibank" Kommersiya Bankı ASC-də işə qəbul edilmişdir. 2004-2005-ci illərdə o, McDermott Caspian Contractors Inc. şirkətində "Mərkəzi Azəridə Dəniz Platformalarının Hazırlanması və Quraşdırılması" layihəsi üzrə xərclərə nəzarətedən mütəxəssis qismində işləmişdir. 2005-ci ildə "Bank of Baku" ASC-də iş fəaliyyətinə başlamış və 2007-ci ilədək Baş mühasibin müavini kimi işləmişdir. Bu vəzifəni icra edərkən o, mühasibat uçotu və idarəetmə üzrə hesabatlılıq məsələlərinə cavabdeh olmuşdur. Kəmalə Nuriyeva "PAŞA Bank" ASC-də karyerasına 2007-ci ildə daxili auditor vəzifəsində başlamış və 2010-cu ildə isə Riskləri İdarəetmə departamentinin direktoru təyin edilmişdir. 2011-ci ildə o, qrup üzrə daxili auditor qismində "PAŞA Holdinq" MMC-yə keçmiş və "PAŞA Bank" ASC-nin Audit Komitəsinin sədri vəzifəsinə təyin edilmişdir. 2013-cü ildə "PAŞA Holdinq" MMC-nin Riskləri İdarəetmə Departamentinin direktoru təyin edilmişdir. 2013-cü il 11 iyun tarixindən Kəmalə Nuriyeva "PAŞA Bank" ASC-nin Müşahidə Şurasının üzvüdür.

**Nəriman Sərdarlı**
**Müşahidə Şurasının üzvü**

Nəriman Sərdarlı 2004-cü ildə Nyu York Şəhər Universiteti Bruklin Kollecinibiznes, idarəetmə və maliyyə işi ixtisası ilə bakalavr pilləsini üzrə bitirib. Həmin il o, Azərbaycanda Deloitte şirkətində audit üzrə kiçik əməkdaş kimi peşəkar karyerasına başlayıb. 2005-ci ildə PwC şirkətinin Bakı ofisinə auditor kimiqəbul edilib. 2007-ci ildə Nəriman Sərdarlı yeni təsis edilmiş "PAŞA Bank" ASC-nin Maliyyəni İdarəetmə Departamentində İİS (idarəetmə informasiya sistemi) sahəsində daxili və xarici maliyyə hesabatlarına cavabdeh mütəxəssis kimi fəaliyyətə başlayıb. 2009-cu ildə o, "PAŞA Holdinq" MMC-nin İnvestisiyalar və Layihələr Departamentinə keçərək holdinqin PE/VC xüsusi təyinatlı maliyyələşmə şirkətinin işləməsinə cavabdeh investisiya meneceri kimi fəaliyyətə başlayıb. 2009-cu ilin mart ayında o, "PAŞA Bank" ASC-nin Audit Komitəsinin rəhbəri, 2010-cu ildə isə "PAŞA Bank" ASC-nin Müşahidə Şurasının üzvü təyin edilib. Nəriman Sərdarlı 2012-ci ildə IE Biznes Məktəbinin (İspaniya) işgüzar inzibatçılıq sahəsində magistr dərəcəsinə yiyələnmək üçün dövlət proqramının təqaüdçüsü adını qazanıb. Bu təhsil proqramı çərçivəsində o, Northwestern Universiteti nəzdində Kellogg İdarəetmə Məktəbi ilə mübadilə proqramında iştirak edib. 2015-ci il 1 fevral tarixində Nəriman Sərdarlı "PAŞA Holdinq" MMC-nin İnvestisiyalar və Layihələr Departamentinin direktoru vəzifəsinə təyin edilib.

## İdarə Heyəti

**Taleh Kazımov**
**Baş icraçı direktor və İdarə Heyətinin sədri**

Taleh Kazımov ənənəvi və rəqəmsal bankçılıq sahəsində kommersiya və investisiya bankçılığı, kredit və risklərin idarə olunması üzrə zəngin təcrübəyə malikdir. O, 1 iyul 2015-ci il tarixində PAŞA

Bankın Baş icraçı direktoru və İdarə Heyətinin Sədri vəzifəsinə təyin olunmuşdur.

Öncəki dövrdə Taleh Kazımov PAŞA Bankın Baş İnvestisiya İnzibatçısı və İdarə Heyətinin Üzvü qismində çalışmışdır və tabelçiliyində biznesin inkişafı, institusional və investisiya bankçılığı, korporativ və KOS-bankçılıq, və risklərin idarə olunması sahələri olmuşdur. Cənab Kazımov PAŞA Banka 2007-ci ildə Risklərin idarə edilməsi departamentinin meneceri olaraq qoşulmuş, 2009-ci ildə isə Bankın Xəzinədarlıq departamentinin direktoru vəzifəsinə yüksəlmişdir.

Cənab Kazımov maliyyə sektorunda peşəkar karyerasına 2004-cü ildə Bank Standard-da Xəzinədarlıq departamentinin aparıcı mütəxəssisi qismində başlamışdır, daha sonra isə Uçotun idarə olunması və büdcə planlaşdırılması seqmentinin rəhbəri, Korporativ kreditləşmə seqmentinin direktor müavini vəzifələrində çalışmışdır. Eyni zamanda, Cənab Kazımov 2006-cı ildə "Ernst and Young" şirkətində auditor vəzifəsində də işləmişdir.

Ali təhsilini 2000-2004-cü illərdə Azərbaycan Texniki Universitetinin "Avtomatika və hesablama texnikası" fakültəsində almışdır. Həmçinin, o, Azərbaycan Dövlət Neft Akademiyasında Biznesin idarə edilməsi ixtisası üzrə magistr dərəcəsinə və ABŞ-ın Georgia State Univercity-ində maliyyə sahəsində Biznesin idarə edilməsi ixtisası üzrə magistr dərəcəsinə yiyələnmişdir. Bundan başqa, T.Kazımov 2010-cu ildə London Biznes Məktəbinin (Böyük Britaniya) və 2012-ci ildə Harvard Biznes Məktəbinin (ABŞ) yüksək ixtisas proqramlarını müvəffəqiyyətlə bitirmişdir.

Taleh Kazımov PAŞA Bankın Türkiyə və Gürcüstan nümayəndəliklərinin Müşahidə şuralarının üzvüdür. Həmçinin, cənab Kazımov Azərbaycanda Amerika Ticarət Palatasının İdarə Heyətində Üzv və Vitse-Prezident qismində təmsil olunur.

**Cavid Quliyev**
**İdarə Heyəti sədr müavini**

Cavid Quliyev peşəkar karyerasına 1996-cı ildə HSBC-nin törəmə qurumu British Bank of the Middle East bankında Müştəri Xidməti departamentinin direktoru vəzifəsində başlayıb, 1999-cu ildə həmin bankın Maliyyə Nəzarəti departamentinin direktoru qismində fəaliyyət göstərib. 2003-cü ildə o, “Unibank” KB ASC-də İdarə Heyətinin müşaviri kimi fəaliyyətə başlamışdır, sonra, 2004-cü ildə həmin bankın İdarə Heyəti sədrinin birinci müavini vəzifəsinə təyin edilmişdir. 2005-2012-ci illərdə o, QSC “Bank Standard” KB-nin İdarə Heyəti sədrinin birinci müavini olmuşdur. 2012-ci ildə cənab Quliyev “Capital Resources Advisors” şirkətinin Azərbaycan filialının maliyyə məsələləri üzrə icraçı direktoru vəzifəsinə təyin edilmişdir. 2014-cü ildə o, “PAŞA Holdinq” MMC-də baş müşavir vəzifəsinə təyinat almışdır. Cavid Quliyev “PAŞA Bank” ASC-də fəaliyyətinə 2015-ci ildə İdarə Heyəti sədrinin biznesin inkişafı üzrə müşaviri vəzifəsində başlamışdır. 2016-cı ilin 22 fevral tarixində o, “PAŞA Bank” ASC-nin İdarə Heyəti sədr müavini vəzifəsinə təyin edilmişdir. Cənab Quliyev Azərbaycan Dillər Universitetini, sonra Azərbaycan Dövlət İqtisad Universitetinin “Maliyyə və kredit” fakültəsini bitirmişdir. 1999-cu ildə o, HSBC şirkətinin Ali İdarəetmə Məktəbində ixtisas kursunu bitirmişdir.

**Şirin Əliyeva**
**İdarə Heyətinin üzvü, baş hüquq inzibatçısı**

Şirin Əliyeva 2011-ci ildə “PAŞA Bank” ASC-də Hüquq departamentinin direktoru kimi fəaliyyətə başlayıb və 2015-ci ildə baş hüquq inzibatçısı vəzifəsinə yüksəlib. Bundan əvvəl o, neft-qaz sahəsində fəaliyyət göstərən şirkətdə müxtəlif vəzifələr tutub, nəhayət, 2005-2007-ci illərdə “Nobel Oil” MMC-də hüquq müşaviri kimi çalışıb. 2007-2011-ci illərdə xanım Əliyeva qızıl istehsalı sahəsində fəaliyyət göstərən Azerbaijan International Mineral Resources Operating Company (AIMROC) şirkətinin Hüquq Xidmətinin

rəhbəri olub.Şirin Əliyeva 2004-cü ildə Bakı Dövlət Universitetinin Hüquq fakültəsini bitirib.Əlavə olaraq o, London Biznes Məktəbi daxil olmaqla bir sira aparıcı biznes məktəblərində rəhbər işçilər üçün təhsil proqramlarının, o cümlədən Harvard Biznes Məktəbinin HPLP (yüksək potensialı olanlar üçün liderlik) proqramının məzunudur.

**Aydın Atakişiyev**
**İdarə Heyətinin üzvü, baş stategiya inzibatçısı**

Aydın Atakişiyev 2002-ci ildə Bakı Dövlət Universitetinin riyazi iqtisadiyyat ixtisası üzrə bakalavr pilləsini bitirib. Sonra o, 2006-cı ildə Mərkəzi Avropa Universitetinin (Budapeşt, Macarıstan) iqtisadi elmlər üzrə magistr dərəcəsini, 2013-cü ildə Rotterdam İdarəetmə Məktəbinin (Niderland Krallığı) işgüzar inzibatçılıq üzrə magistr dərəcəsini alıb. Əlavə olaraq o, 2012-ci ildə Çikaqo Universiteti nəzdində Booth Biznes Məktəbində beynəlxalq biznes mübadiləsi proqramının təqaüdçüsü olub. Cənab Atakişiyev peşəkar fəaliyyətinə 2002-ci ildə idman tədbirlərini idarəetmə sahəsində başlayıb, 2006-cı ildə kredit mütəxəssisi kimi maliyyə xidmətləri sahəsində çalışmağa başlayıb. 2007-2011-ci illərdə maliyyə analitiki və layihə meneceri kimi "PAŞA Holdinq" MMC-də işləyib. Cənab Atakişiyev 2013-cü ildə "PAŞA Bank" ASC-də Strateji Marketinq departamentinin direktoru kimi fəaliyyətə başlayıb və 2015-ci ildə baş strategiya inzibatçısı vəzifəsinə yüksəlib.

**Xəyalə Nağıyeva**
**İdarə Heyətinin üzvü, baş maliyyə inzibatçısı**

Xəyalə Nağıyeva, 2004-cü ildə Azərbaycan Dövlət İqtisad Universitetinin Beynəlxalq İqtisadi Əlaqələr və Biznesin İdarə Edilməsi fakültəsini fərqlənmə ilə bitirmişdir. 2002-ci ildə Xəyalə Nağıyeva təhsilinin bir qismini Açıq Cəmiyyət İnstitutunun dəstəyi ilə Corc Soros Fondunun təqaüd proqramı çərçivəsində ABŞ-da almışdır. 2003-2006-cı illərdə xanım Nağıyeva Deloitte MDB şirkətində maliyyə auditoru kimi çalışmışdır. Bu dövr ərzində o, Azərbaycan və digər MDB ölkələrində yerli və xarici banklar, sığorta, neft-qaz şirkətləri, inşaat, otelçilik və əmlak sektorlarında fəaliyyət göstərən müəssisələrə audit xidmətləri göstərib. 2007-ci ildən başlayaraq xanım Nağıyeva öz peşə fəaliyyətini Deloitte MDB şirkətinin maliyyə xidmətləri bölməsində baş məsləhətçi kimi davam etdirib. Xanım Nağıyeva Qazaxıstanın Almatı şəhərində bir neçə yerli və beynəlxalq şirkət üçün maliyyə xidmətləri layihələrində iştirak edib və daha sonra Deloitte MDB-nin Azərbaycan üzrə maliyyə məsləhətləri bölümünə rəhbərlik edib. Bu dövr ərzində xanım Nağıyeva biznesin təhlili və qiymətləndirilməsi, kompleks audit, biznesin modelləşdirilməsi və digər növ maliyyə məsləhətləri üzrə müxtəlif təlim proqramlarında iştirak edib və yerli və beynəlxalq şirkətlərə xidmətlər göstərib. Eyni zamanda 2006-2012-ci illərdə Xəyalə Nağıyeva məzun olduğu universitetin Xüsusi İstedadlar Qruplarında bank fəaliyyəti və korporativ maliyyə fənləri üzrə dərs deyib.

2009-cu ildən Xəyalə Nağıyeva öz fəaliyyətini "PAŞA Holdinq" MMC-də investisiyalar üzrə menecer vəzifəsində davam etdirib və burada investisiya qərarların qəbul edilməsi prosesinin təşkilində fəal iştirak edib. Xanım Nağıyeva bir çox investisiya layihəsi üzrə qərarların qəbul edilməsi və bu qərarlar çərçivəsində investisiya planlarının yerinə yetirilməsi üzrə aparıcı rol oynamışdır. O, 2013-cü ildə "PAŞA Holdinq"in "Yüksək Potensiallı Liderlik" proqramı çərçivəsində idarəedicilər üçün müxtəlif təlim və liderlik modullarında iştirak etmişdir. Xanım Nağıyeva 2010-cu ildə "PAŞA Bank" ASC-nin Audit Komitəsinin üzvü təyin olunmuş, 2012-2014-cü illərdə Komitənin sədri kimi fəaliyyət göstərmişdir. 2015-ci ilin aprel ayından Xəyalə Nağıyeva Bankın kredit risklərinin qiymətləndirilməsi departamentinin direktoru vəzifəsinə təyin olunub. 3 sentyabr 2015-ci il tarixindən Xəyalə Nağıyeva PAŞA Bankın İdarə Heyətinin üzvü, Baş Maliyyə İnzibatçısıdır.

## PASHA Bank Georgia

### Şahin Məmmədov
**"PASHA Bank Georgia"-nın Direktorlar Şurasının sədri, baş icraçı direktor**

Şahin Məmmədov 2002-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetinin bakalavr pilləsini bitirib, 2004-cü ildə həmin təhsil ocağının magistr dərəcəsini alıb və 2010-cu ildə iqtisadiyyat üzrə fəlsəfə doktoru elmi dərəcəsini qazanıb. O, 2003-cü ildə "Koçbank Azərbaycan" MMC-də işə başlayıb, əvvəlcə mühasib, sonra baş mühasibin müavini vəzifələrini tutub. 2005-ci ildə Deloitte & Touche şirkətində audit üzrə kiçik əməkdaş vəzifəsinə işə düzəlib, sonra audit üzrə menecer vəzifəsinədək yüksəlib. 2014-cü ildən ACCA-nin (İxtisaslaşmış Sertifikatlı Mühasiblər Assosiasiyasının) üzvüdür. Şahin Məmmədov 2009-cu ildə "PAŞA Bank" ASC-nin Maliyyəni İdarəetmə Departamentinin direktoru, 2011-ci ildə İdarə Heyətinin üzvü təyin edilmişdir. O, biznesin inkişafı üzrə direktor vəzifəsini icra etmək məqsədilə 2013-cü ildə "PAŞA Bank Georgia"-a keçmişdir. 2014-cü ilin iyul ayından "PASHA Bank Georgia"-nın baş icraçı direktordur.

### Qoqa Caparidze
**"PASHA Bank Georgia"-nın Direktorlar Şurasının üzvü, baş kommersiya inzibatçısı**

Qoqa Caparidze 2014-cü ilin yanvar ayında "PASHA Bank Georgia"-da kommersiya müdiri kimi fəaliyyətə başlayıb və 2015-ci ilin aprel ayından Direktorlar Şurasının üzvüdür. Cənab Caparidze bank işi sahəsində karyerasına 2003-cü ildə "Bank of Georgia"-nın investisiya törəmə bankı olan "BG Capital"-da partnyor kimi başlamışdır. 2005-ci ildə o, "Bank of Georgia"-da peşəkar fəaliyyətinə səhmdar kapital məsələləri üzrə aparıcı bankir qismində davam etmişdir. Daha sonra o, 2006-cı ildən 2011-ci ilədək Tifslisdə və Londonda Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) özəl səhmdar kapitalın maliyyələşməsi üzrə baş bankir kimi xidmət göstərişdir. Bunda sonra o, "Bank Republic Société Générale Group"-da korporativ bankçılıq bölməsinin rəhbəri olmuşdur. Qoqa Caparidze 1996-cı ildə Tiflis Dövlət Universitetini bitirib. 2002-ci ildə o, Hofstra Universiteti Zarb Biznes Məktəbinin magistr dərəcəsini alıb.

### Çingiz Abdullayev
**"PASHA Bank Georgia"-nın Direktorlar Şurasının üzvü, baş maliyyə inzibatçısı**

Çingiz Abdullayev 1999-cu ildə Qərb Universitetinin (Bakı, Azərbaycan) işgüzar inzibatçılıq ixtisası üzrə bakalavr pilləsini bitirib, 2005-cü ildə Azərbaycan Dövlət İqtisad Universitetinin maliyyə işi ixtisası üzrə magistr dərəcəsini alıb. O, peşəkar karyerasına Bakı Fond Birjasında Listinq departamentinin müdiri kimi 2000-ci ildə başlamıdır. 2003-ü ildə cənab Abdullayev Deloitte şirkətinin keyfiyyətli məlumat təminatı və məsləhət xidmətinin əməkdaşı kimi işə qəbul edilmişdir. Növbəti 10 ildən çox sürən dövr ərzində o, KPMG Russia, Moore Stephens CIS və RSM Georgia şirkətlərində müxtəlif rəhbər vəzifələri icra etmiş, başlıca diqqət mərkəzini maliyyə təsisatları, enerji, ticarət və istehsalat sahələrinə yönəltmişdir. Cənab Abdullayev 2014-cü ildə "PASHA Bank Georgia"-da Maliyyəni İdarəetmə departamentinin direktoru kimi fəaliyyətə başlamışdır, 2016-cı ilin 13 yanvar tarixində həmin bankın Direktorlar Şurasının üzvü və baş maliyyəinzibatçısı təyin edilmişdir.

## "PASHA Yatırım Bankası A.Ş."

### H. Cenk Eynehan
**"PASHA Yatırım Bankası A.Ş."-nin Direktorlar Şurasının üzvü, baş direktor**

H. Cenk Eynehan Erasmus Universitetinin (Niderland Krallığı) iqtisadiyyat üzrə subbakalvr (təməl ali təhsil) dərəcəsini, Monroe Kolecinin (Nyu-York, ABŞ) idarəetmə üzrə bakalavr dərəcəsini və Koç Universitetinin rəhbər işçilər üçün işgüzar inzibatçılıq üzrə magistr dərəcəsini alıb. 1994-2013-cü illər ərzində o, Türkiyədə və xarici ölkələrdə banklarda və digər maliyyə təsisatlarında orta



**Xədicə Əlibəyova**

*1911-ci ildə Azərbaycan dilində ilk qadın jurnalı, təhsil ideyalarını aktuallaşdıran "İşıq" qəzetini nəşr etdirmişdir. Qəzetin ilk buraxılışı 22 yanvar 1911-ci ildə nəşr olunmuşdur. 8-12 səhifəli həftəlik qəzetdə rus dilində də məqamələr nəşr olunurdu. Təəssüf ki, qəzetin buraxılışı yalnız 2 il ərzində davam etdi. Halbuki bu dövrdə jurnal Azərbaycan qadınları arasında çox məhşur idi, redaksiya heyətinə isə Tiflis, Kiyev, Aşqabad, Dağıstan şəhərlərindən məktublar gəlib.*

*Maarifçilik məqsədindən qəzet tədricən qadınların həmrəylik və birlik təbliğatına çevrildi. Xüsusilə, Minaver Əlixanovanın "Bacılarıma ilk məktub" yazısında deyirdi: "Biz bilirik ki, heç kim tək başına heç nəyə nail ola bilməz, birlik hər yerdə və hər işdə böyük bir rol oynayır".*

səviyyədən rəhbərliyə qədər müxtəlif vəzifələrdə çalışıb. 2013-cü il 2 avqust tarixində "PASHA Yatırım Bankası A.Ş."-də fəaliyyətə başlayıb. Bank işi və işgüzar inzibatçılıq sahəsində 21 illik təcrübəsi var.

**Ali İhsan Tokkuzun "PASHA Yatırım Bankası A.Ş."-nin baş direktorun müavini**

Ali İhsan Tokkuzun 2013-cü ilin iyun ayında "PASHA Yatırım Bankası A.Ş."-də baş direktorun müavini vəzifəsində fəaliyyətə başlayıb. Bundan əvvəl o, "İstanbul Denizçilik Gemi İnşa Sanayi ve Ticaret A.Ş."-da İcraiyyə Komitəsinin üzvü və maliyyə koordinatoru vəzifəsində işləyib. Cənab Tokkuzun peşəkar karyerasına "Esbank T.A.Ş."-nin Auditorlar Şurasında başlamış, sonra Vyanadakı "Esbank AG"-a keçərək 2000-ci ilədək müxtəlif vəzifələrdə (o cümlədən, Audit Komitəsinin sədr müavini vəzifəsində) çalışmışdır. 2000-2002-ci illərdə o, "Kentbank A.Ş."-də maliyyə təsisatları və beynəlxalq marketinq qrupunun meneceri işləmişdir. Daha sonra o, 2010-cu ilədək Vyanadakı "DenizBank AG"-dəbaş müdir müavini olmuş, 2010-cu ildən "SK Danube AG"-nin baş müdiri vəzifəsini icra etmişdir. Cənab Tokkuzun Gazi Universiteti İdarəetmə fakültəsinin bakalavr pilləsini bitirib, İstanbul Texniki Universitetinin rəhbər işçilər üçün işgüzar inzibatçılıq üzrə magistr dərəcəsini alıb.

**İdarəçilik strukturu***




* C-səviyyəli işçiləri icra etdikləri vəzifədə dəyişmə baş vermədən İdarə Heyətinə üzv kimi təyin etmək olar.

## Müşahidə Şurası/İdarə Heyəti və Komitə üzvləri

*Müşahidə Şurası:*
Mir Camal Paşayev, sədr
Fərid Axundov, üzv
Vadim Şneyer, üzv
Nəriman Sərdarlı, üzv
Kəmalə Nuriyeva, üzv

*İdarə Heyəti:*
Taleh Kazımov, sədr
Cavid Quliyev, sədrin müavini
Şirin Əliyeva, üzv
Aydın Atakişiyev, üzv
Xəyalə Nağıyeva, üzv

*Strategiya və Büdcə Komitəsi:*
İdarə Heyətinin üzvü, baş maliyyə inzibatçısı Xəyalə Nağıyeva, sədr
Xəzinədarlıq və Kapital Bazarları departamentinin direktoru Bəhruz Nağıyev, üzv
Strategiya departamentinin direktoru Aqşin Mirzəzadə, üzv
"PAŞA Holdinq" MMC-nin Biznes Qrupu Üzrə direktor və İcraçı direktorun müavini Fərid Məmmədov, müstəqil üzv
"PAŞA Holdinq" MMC-nin Qrup Üzrə Strategiya və Layihələri İdarəetmə departamentinin direktoru Mahir Eyvazov, müstəqil üzv
"PAŞA Holdinq" MMC-nin baş maliyyə inzibatçısı Azər Sadıqov, müstəqil üzv
İdarə Heyəti sədrinin müşaviri Turxan Mahmudov, səsvermə hüququ olmayan üzv

*İnsan Resursları və Mükafatlandırma Komitəsi:*
Müşahidə Şurasının sədri Mir Camal Paşayev, sədr
"PAŞA Holdinq" MMC-nin Banklar Qrupunun rəhbəri Cəlal Qasımov, müstəqil üzv
"PAŞA Holdinq" MMC-nin Qrup üzrə İR və İnzibatçılıq departamentinin direktoru Aytən Abbaslı, üzv
İdarə Heyətinin sədri Taleh Kazımov, üzv
İnsan Resursları departamentinin direktoru Sevda Əliyeva, üzv



*Riskləri İdarəetmə Komitəsi:*
Müşahidə Şurasının üzvü Kəmalə Nuriyeva, sədr
İdarə Heyətinin üzvü, baş maliyyə inzibatçısı Xəyalə Nağıyeva, üzv
İdarə Heyətinin üzvü, baş risk inzibatçısı Aydın Atakişiyev, üzv
Baş texnologiya inzibatçısının müavini Fuad Aslanov, üzv
"PAŞA Holdinq" MMC-nin Biznes Qrupu Üzrə direktor və İcraçı direktorun müavini Fərid Məmmədov, müstəqil üzv
"PAŞA Holdinq" MMC-nin Biznes Qrup nümayəndəsi Vüqar Axundov, müstəqil üzv
"PAŞA Holdinq" MMC-nin İnvestisiyalar Departamentinin nümayəndəsi Ülvi Bağırov, müstəqil üzv
Audit Komitəsinin sədri Pərvin Əhədzadə, üzv (Banklarda korporativ idarəetmə standartlarına əsasən səsvermə hüququ olmayan üzv)

*Strateji İdarəetmə Komitəsi:*
İdarə Heyətinin sədri Taleh Kazımov, sədr
İdarə Heyəti sədr müavini Cavid Quliyev, üzv
İdarə Heyətinin üzvü, baş hüquq inzibatçısı Şirin Əliyeva, üzv
İdarə Heyətinin üzvü, baş maliyyə inzibatçısı Xəyalə Nağıyeva, sədr
İdarə Heyətinin üzvü, baş risk inzibatçısı Aydın Atakişiyev, üzv
Baş informasiya təhlükəsizliyi inzibatçısı Vasif Qasımov, üzv
Baş əməliyyat inzibatçısı Rəşad Məmmədov, üzv
Baş kommersiya bankçılığı inzibatçısı Melih Menqu, üzv
İnsan Resursları departamentinin direktoru Sevda Əliyeva, üzv

**Kredit Komitəsi:**
İdarə Heyətinin sədri Taleh Kazımov, sədr
İdarə Heyəti sədr müavini Cavid Quliyev, üzv
İdarə Heyətinin üzvü, baş hüquq inzibatçısı Şirin Əliyeva, üzv
İdarə Heyətinin üzvü, baş risk inzibatçısı Aydın Atakişiyev, üzv
Baş kommersiya bankçılığı inzibatçısı Melih Menqu, üzv
Strategiya departamentinin direktoru Aqşin Mizəzadə, üzv
Xəzinədarlıq və Kapital Bazarları departamentinin direktoru Bəhruz Nağıyev, üzv

*Kiçik Kredit Komitəsi:*
Kredit Risklərinin Anderraytinqi departamentinin Korporativ Bankçılıq departamentinin direktoru Elmin İsgəndərov, sədr
Baş əməliyyat inzibatçısı Rəşad Məmmədov, üzv
Korporativ İnstitusional Bankçılıq departamentinin Kiçik və Orta Sahibkarlıq departamentinin direktoru Heydar Süleymanov, üzv
Korporativ İnstitusional Bankçılıq departamentinin Kreditlərin departamentinin direktoru Ceyhun Baloğlanov, üzv
Hüquq departamentinin direktoru Ruqiyyə Hacızadə, üzv

*Aktivləri və Passivləri İdarəetmə Komitəsi:*
İdarə Heyətinin üzvü, baş maliyyə inzibatçısı Xəyalə Nağıyeva, sədr
İdarə Heyəti sədr müavini Cavid Quliyev, üzv
İdarə Heyətinin üzvü, baş risk inzibatçısı Aydın Atakişiyev, üzv
Strategiya departamentinin direktoru Aqşin Mizəzadə, üzv
Xəzinədarlıq və Kapital Bazarları departamentinin direktoru Bəhruz Nağıyev, üzv

*Audit Komitəsi:*
Pərvin Əhədzadə, sədr
Cəmil Məmmədov, üzv
Ramil Heydərov, üzv



**Ağayeva Aleksandra**

*Neft sənayesinin məhsuldarlığın artırılması üzrə monoqrafiyanın müəllifi.*



# QLOBAL MAKROİQTİSADİ MƏNZƏRƏ VƏ AZƏRBAYCAN İQTİSADİYYATI

# QLOBAL MAKROİQTİSADİ MƏNZƏRƏ VƏ AZƏRBAYCAN İQTİSADİYYATI

## Qlobal makroiqtisadi mənzərə

Qlobal iqtisadiyyat, investisiya qoyuluşu, istehsalat və ticarət sahələrində fəallığın baş verdiyi dövri bərpa mərhələsindədir. Bu irəliləyiş dünya miqyasında münbit maliyyələşmə şəraiti, çevik siyasət və aşağı düşməyən əmtəə qiymətləri əsnasında baş verir.

Qlobal ÜDM artımının 2016-cı ildə 2.4%-dən 2017-ci ildə 3.0%-dək, iyun ayında açıqlanmış 2.7% səviyyəsindən daha üstün səviyyəyədək yüksəlməsi güman edilir. Dünya ölkələrinin yarısından çoxunda iqtisadi artımın baş verməsi bu müsbət dönüşün geniş miqyasda təzahürünə dəlalət edir. İqtisadiyyatı inkişaf etmiş ölkələrdə əsaslı kapital xərclərinin çoxalması, anbarda mal qalığının azalması və ölkəxarici tələbin möhkəmlənməsi sayəsində 2017-ci ildə artım göstəricisi 2.3% civarında proqnozlaşdırılır. Dünyanın aparıcı iqtisadi sistemlərinin hamısında artımın baş verməsinə baxmayaraq, müvafiq irəliləyişin gözləniləndən gözəçarpan dərəcədə üstün səviyyəsi avrozona ilə bağlıdır.

Əmtəə ixracatçısı olan ölkələrin iqtisadi fəaliyyətində irəliləyişlə əmtəə idaxalatçısı olan ölkələrdə davam edən güclü artımı əks etdirən artım göstəricinin inkişaf etməkdə olan iqtisadi sistemlərdə 4.3%-dək dirçəlməsi gözlənilir. İnkişaf edən iqtisadi sistemlərin əksəriyyəti ixrac həcmlərinin bərpasından bəhərələnmişdir. Əmtəə ixracatçısı olan ölkələrdə iqtisadi fəallığın dirçəlməsi Braziliya və Rusiya Federasiyası kimi aparıcı iqtisadi sistemlərin tənəzzül dövründən çıxması ilə bağlı olmuşdur. Bu, əksər əmtəə məhsullarında qiymət artımı, iqtisadiyyata olan etibar göstəricisinin yaxşılaşması, əvvəlki dövrlərdə aparılmış sərt pul siyasəti nəticəsində yığılmış "yükün" aradan qaldırılması və uzun müddət sürən səngimədən sonra investisiya həcmində artım dərəcəsinin canlanması səbəbindən baş vermişdir.

## Azərbaycan iqtisadiyyatı

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinə əsasən, 2017-ci ildə Azərbaycanda neft-qaz sektorunda 5.3%-lik tənəzzül, qeyri-neft sektorunda isə əksinə, 2.7%-lik artım baş verməklə 0.1%-lik ÜDM artımı qeyd edilmişdir. Neft-qaz sektorunun daralması əsasən Azərbaycanın OPEC(Neft İxracatçısı Ölkələri Təşkilatı) qarşısında xam neft hasilatını azaltmaq öhdəliyinin yerinə yetirilməsi səbəbindən baş vermişdir. Ölkə iqtisadiyyatının qeyri-neft sektorunda yüksəliş qeyri-neft ixracının, həmçinin dövlətin fiskal stimullaşdırma tədbirlərinin rəvac verdiyi investisiya qoyuluşunun artması səbəbindən baş vermişdir.

İqtisadi artıma ölkəxarici tələb töhfə vermişdir. Üstəlik, dövlət büdcəsinin xərcləri il ərzində ölkədaxili tələbə müsbət təsir etmişdir. Dövlət xərcləri, əsaslı kapital xərclərində ikirəqəmli artım daxil olmaqla 11% yüksəlmişdir. Dövlət Statistika Komitəsinə əsasən, son istehlaka yönəlmiş xərclər real ifadədə 2.4% artmışdır.

2017-ci ildə Azərbaycan orta illik inflyasiya dərəcəsini 12.9% səviyyəsində açıqlamışdır. İnflyasiyanı formalaşdıran mühüm amillərəxarici valyuta bazarının stabilləşməsi, manatın xarici valyutalara qarşı möhkəmlənməsi əsnasında inzibati (təyin edilən) və qlobal əmtəə qiymətlərinin artması, həmçinin bir sıra əmtəə kateqoriyaları üzrə tələb və təklifdə baş vermiş dəyişikliklər daxil olmuşdur.

Azərbaycan manatının məzənnəsi iki il sürən dalğalanmadan sonra, 2017-ci ilin aprel ayından stabil səviyyədə qərarlaşmışdır; beləliklə, milli valyutaya olan etibar artmışdır. Xarici valyuta bazarında mövcud tələbi üstələyən təklif nəticəsində milli valyutanın məzənnəsi 2017-ci ilin sonunda bir ABŞ dollarına qarşı 1.7001 səviyyəsində qərarlaşaraq 4% möhkəmlənmişdir.

**ARMB-ın notları və gəlirliyi**




**ARMB-ın depozitləri və gəlirliyi**




İqtisadiyyata kredit qoyuluşunun səngiməsi və bank sektorunda izafi likvidliyin yaradılması nəticəsində 2017-ci ildə Azərbaycan Resublikasının Mərkəzi Bankının (ARMB) qısamüddətli notlar və depozit hərracları kimi izafi pul təklifinin sterilizasiyası alətlərinə tələb yüksək olmuşdur. ARMB-ə əsasən, ARMB notlarının yerləşdirilməsi və depozit hərracları vasitəsilə cəlb edilmiş vəsaitin ümumi həcmi 900 milyon manat dəyərində not və 1.0 milyard manat dəyərində depozitolmaqla 1.9 milyard manat təşkil etmişdir.

## Sektorlar üzrə ÜDM-nin artım dərəcəsi




Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi.

## Aylıq inflyasiya dərəcəsi




Mənbələr: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi; Haver Analytics (2017-ci il 13 mart tarixinə əsasən).

| İqtisadi indikatorlar* (%) | 2017 | 2018F |
|---|---|---|
| ÜDM-nin real ifadədə artım dərəcəsi | 0.1 | 2.0 |
| (Orta illik)inflyasiya dərəcəsi | 12.9 | 8.0 |
| Cari əməliyyatlar hesabının qalığı (ÜDM-ə nisbəti) | 4.1 | 3.8 |
| İşsizlik dərəcəsi | 6.0 | 6.0 |

*Mənbə: Beynəlxalq Valyuta Fondu, World Economic Outlook (2017-ci ilin aprel ayında əsasən).



**Ayna Sultanova**

*Sultanova Ayna Mahmud qızı - "Şərq Qadını" jurnalının ilk redaktoru, Xalq Ədliyyə Komissarı və Ali Məhkəmənin sədri. Siyasi fəaliyyətinin böyük bir qismi Azərbaycanda Sovet hakimiyyəti möhkəmləşdirmək olmuşdur. Ayna Sultanova AzSSR Nazirlər Şurasında ilk qadın olub (1934).*

## Bank sektoru

2017-ci ildə Azərbaycan iqtisadiyyatı tədricən stabil vəziyyətə qayıtdı. Dalğalanma dövründən sonra milli valyuta sabitləşdir və iqtisadiyyat milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsinin icrası çərçivəsində əhəmiyyətli islahatlar nəticəsində bərpa olunmağa başlamışdır. Azərbaycanın maliyyə xidmətləri sahəsini daha da inkişaf etdirmək üçün formalaşdırılmış Strateji Yol Xəritəsi qısa, orta və uzunmüddətli fəaliyyət planlarını özündə ehtiva etmişdir. Bu planlara2017-ci ildə Azərbaycanın bank sektorunda likvidlik və kapitallaşma problemlərini həll etmək məqsədilə maliyyə təsisatlarının birləşdirilməsivə yeni infrastrukturun (məsələn, kredit bürolarının) yaradılmasıdaxil edilmişdir.

Bununla belə, bank aktivləri illik əsasda 11.2%, 31.4 milyard manatdan 27.9 milyard manatadək azalmışdır. Bu azalmanı ölkənin bank sektoruna il ərzində təsir etmiş mənfi amillərlə (məsələn, bank lisenziyalarının geri çağrılması, borcların könüllü restrukturizasiyası və s.) izah etmək olar. Nəticədə Azərbaycan bank sistemində ümumi kredit portfelinin həcmi 2016-cı ildə 16.4 milyard manatdan 2017-ci ildə 11.8 milyard manatadək azalaraq il ərzində 22% daralarmışdır.Eyni zamanda, qeyri-işlək kreditlərin həcmi 2017-ci ildə ümumi kredit həcminin 13.8%-i təşkil etməklə illik əsasda 10.5%, 1,472.6 milyon manatdan 1,626.7 milyon manatadak artmışdır. Korporativ kredit portfeliəvvəlki illə müqayisədə 10.1 milyard manatdan 6.6 milyard manatadək, 34.7% azalmışdır. Fərdi şəxslərə verilən kreditlər üzrə portfel isə 6.33 milyard manatdan 5.15 milyard manatadək, illik əsasda 18.6% azalmışdır.

2017-ci ildə depozitlərin cəmi 22.09 milyard manatdan 20.6 milyard manatadək, 6.8% daralmışdır. Xarici valyutada qoyulmuş depozitlərin həcmində il ərzində 16.6 milyard manat ekvivalentindən 14.9 milyard manat ekvivalentinədək, 10.3% azalma, milli valyutada yerləşdirilmiş depozitlərin həcmində isə 5.5 milyard manatdan 5.7 milyard manatadək, 4.2% artım baş vermişdir. Bununla belə, 2017-ci ilin dekabr ayında korporativ və fərdi depozitlərin həcmində illik əsasda müvafiq olaraq 21.8 və 1.5% yüksəliş baş vermişdir. Maliyyə təsisatlarının yerləşdirdiyidepozit həcmi isə 65% azalaraq 1.9 milyard manat civarında qərarlaşmışdır.

*2018-ci il üzrə proqnoz hesablamalar*

Dünya Bankı, investisiya qoyuluşu, istehsalat və ticarət sahələrindəbərpa mərhələsi davam edərkən, 2017-ci ildə gözləniləndən qat-qat üstün nəticə əldə edildikdən sonra 2018-ci ildə qlobal iqtisadi artımının 3.1%-dək olacağını proqnozlaşdırır. İqtisadiyyatı inkişaf etmiş ölkələrdə mərkəzi bankların pul siyasətini tədricən normal məcrəyə yönəltmələri və investisiya xərclərindəki canlanmanın sabitlik mərhələsinə daxil olması nəticəsində qarşıdan gələn ildə iqtisadiyyatın azacıq səngiyərək 2.3% civarında böyüməsi gözlənilir. İnkişaf etməkdə olan və inkişaf edən ölkələrdə aşağı düşməyən qiymətlər əsnasında əmtəə ixracı həcmigenişlənməyə davam edərkən iqtisadi artım gücünün bütövlükdə 4.5%-dək artması proqnozlaşdırılır.Əmtəə bazarlarında bəzi əks hərəkətlərin Azərbaycan daxil olmaqla inkişaf etməkdə olan ölkələrin iqtisadi artımına təkan verməsi gözlənilir.

Fitch Ratings agentliyi Azərbaycan iqtisadiyyatının 2018-ci ildə 1.8% artmasını proqnozlaşdırır, Azərbaycan hökuməti isə həmin il qeyri-neft ÜDM-də gözlənilən 2.9%-lik artım olmaqla ölkə ÜDM-nin 1.5% böyüməsini hesab edir.

Makroiqtisadi stabilliyin və qeyri-neft iqtisadiyyatının özəl sektor və ev



**Şəfiqə Axundova**

*Bəstəkar, Azərbaycan SSR əməkdar incəsənət xadimi, Azərbaycanın xalq artisti; Şərqdə opera yazmış ilk qadın. Geniş fəaliyyətə malik ustadın 70 illik yaradıcılığına mahnılar və romanslar, opera və operettalar, simfonik suitlər və pyeslər daxildir. Dərin drama və incə lirizmlə xarakterizə olunan, Şəfiqə xanımın tərtib etdiyi onlarla musiqi əsərləri Azərbaycan teatr tarixində xüsusi rol oynayır.*

təsərrüfatlarının tələbinə əsaslanan, əhatəli və dayanıqlı artımın nail olunmasındadaha dərin struktur və institusional islahatlar, həmçinin işgüzar və investisiyamühitinin daha da yaxşılaşdırılması həlledici əhəmiyyət kəsb edəcək.Struktur və institusional islahatlar yerli istehsala iqtisadiyyatın şaxələnməsinə qulluq edən ümumi tələbə çevik qaydada cavab vermək, idxaldan asılılığı azaltmaq və orta müddət kəsimində qiymətlərin sabitləşməsinə dəstək vermək imkanını yaradacaq.



# 2017-Cİ İLDƏ FƏALİYYƏT

# ƏSAS BANK İŞİ SAHƏLƏRİ

2017-ci ildə "PAŞA Bank" ASC müştərilərə göstərdiyi xidmət keyfiyyətinin artımına xüsusi diqqtə yetirmişdir. Bank bu məqsədlə xidmət göstərmə prosesinin yerində davamlı optimallaşdırılmasını həyata keçirmiş, yeni alətlər tətbiq etmiş və texnoloji infrastrukturunu təkmilləşdirmişdir. Nəticədə "PAŞA Bank" ASC-nin müştəri xidmətləri il ərzində əhəmiyyətli dərəcədə yaxşılaşmışdır.

### "A" reytinqli banklar səviyyəsinə çıxış

2017-ci ildə "PAŞA Bank" ASC müştərilərin qeyri-daimi tələbat və ehtiyaclarını daha effektiv qaydada tənzimləmək məqsədilə dünyanın bir çox "A" reytinqli banklarında artıq istifadədə olan Oracle FLEXCUBE maliyyə platformasını işə salmağa müvəffəq olmuşdur. Bu platforma bankda daha yaxşı hazırlanmış və müştərilərə daha çox yönəlmiş yeni onlayn bankçılıq sisteminin tərtib edilməsini asanlaşdırıb. Nəticədə İnternet bankçılıqdan istifadə təmayülü artım dinamikasını saxlamışdır; ilin sonunadək bank əməliyyatlarının 86%-i onlayn bankçılıq vasitəsilə işlənmişdir.

### Azərbaycanda ilk dəfə: B2B platforması

İl ərzində "PAŞA Bank" ASC B2B ("biznesdən biznesə") platformasının öz sisteminə inteqrasiyasını tamamlamışdır, bəzi korporativ müştərilər öz sistemləri ilə bankın sistemi arasında tam inteqrasiyaya nail olmuşdurlar. B2B platforması müştərilər üçün müəssisə resurslarının planladşırılması (ERP) sistemlərini xüsusi kanalla, digər (kağız əsaslı vasitələr, internet bankçılıq, səyyar cihazlar üçün tətbiqi proqramlar kimi) vasitələrdən istifadə etmədən bankçılıq sisteminə inteqrasiya etmək imkanını yaradır. Beləliklə, platforma daxili sistemi vasitəsilə əməliyyatların müyəssər və çevik şəkildə icrasını asanlaşdırır. Xüsusilə qeyd edilməlidir ki, "PAŞA Bank" ASC müştəriləri Azərbaycanda bu xidmətlə təmin edən ilk maliyyə təsisatıdır.

### Azərbaycanda ilk dəfə: elektron qaydada seqmentləşdirmə sistemi

Azərbaycan bank sektorunda ilk dəfə olaraq "PAŞA Bank" ASC müştərilərin elektron qaydada seqmentləşdirilməsi sistemini ətbiq etmişdir. Bu yenilik nəticəsində müştəri növbəni idarəetmə sistemi (Queue Management System) vasitəsilə banka daxil olduqda kimliyini bildirir və ona dərhal operator təyin edilir.

"PAŞA Bank" ASC-nin elektron qaydada seqmentləşdirmə sistemindənmüştərinin səciyyəvi xüsusiyyətlərini və üstünlük verdiyi məsələləri avtomatik şəkildə bankın işçi heyətinə ötürməklə müştəri xidmətinin yeni səviyyəyə çıxarılması gözlənilir.Bu avtomatlaşdırılmış proses vasitəsilə "PAŞA Bank" ASC müştərilərinə daha səmərəli və fasiləsiz xidmət göstərmək qabiliyyətindədir. Üstəlik, bank müştərilərin tələbatını qarşılayan müvafiq məhsul, xidmət və təkliflərlə satış səylərini daha effektiv qaydada həyata keçirərək müştəriləri hədəf qrupları üzrə daha yaxşı təsnif edir.

### Bankın xidmət məntəqələrinin universallaşdırılması

2017-ci ilin ikinci yarsında "PAŞA Bank" ASC xidmət məntəqələrini məsləhətçi təminatı vasitəsilə universallaşdırmaq layihəsinə başlamışdır. Tamamlanması 2018-ci ilin ikinci rübündə nəzərdə tutulan bu layihə çərçivəsində bankınbütün xidmət məntəqələrində həm fərdi, həm də korporativ müştərilərə xidmət göstəriləcək. Bu səylə "PAŞA Bank" ASC-nin xidmət təminatında səmərəlilik və keyfiyyət göstəriciləri daha da artacaq. Bankın universallaşdırma layihəsi həmçinin hər müştəriyə fərdi qaydada, təklikdə xidmət göstərmək və müştəri məmnunluğunu ən yüksək səviyyədətəmin etmək məqsədilə tərtib edilib.

## Kassa-terminal ödənişlərinin işlənməsi (POS Acquiring) və kart xidmətləri

Nağd vəsaiti idarəetmə

Kartla ödənişlərin işlənməsi (merchant acquiring)

### "Tacir" kassa terminalı və"Tacir" kartı

2017-ci ildə "PAŞA Bank" ASC korporativ və KOS seqmentinə aid edilən müştərilər üçün "Tacir" kassa terminalı və "Tacir" kartı kimi yeni məhsullar tətbiq etdi. Bu təklifin məqsədi böyük korporativ müştərilərin dövriyyə zəncirində nağdsız hesablaşmalar həcmini artırmaqdan və daha çox sayda KOS-ları cəlb etməkdən ibarət idi. Hər iki sement üçün təmin edilən üstünlüklərə aşağıdakılar daxil idi:

### KOS-lar üçün üstünlüklər

- alınmış mallara tətbiq edilən ƏDV-nin avtomatik qaydada ödənilməsi
- qısa zaman kəsimində nağd ödənişdən qeyri-nağd ödənişə keçid
- cavabdehliyin daha asan təmin edilməsi borclanma (kredit) həddindən yararlanmaq fürsəti
- distribyutor şirkəti üçün fərdi kredit limitlərini müəyyən etmək haqqı

### Böyük korporativ müştərilər üçün üstünlüklər

- dövriyyəni nağd vəsait əsasından qeyri-nağd formata çevirmək
- alıcı qismində sahibkarlar üçün fərdi kredit limitlərinin müəyyən edilməsi
- bütün ödənişlərin kassa terminalı vasitəsilə qəbulu
- şirkətin pul axınlarını effektiv idarəetmə
- vəsaitin eyni gündə hesaba daxil olması
- vəsaitin nağlaşdırılmasına ehtiyacın qalmaması
- cavabdehliyin daha asan təmin edilməsi

### SOCAR-nın kassa-terminal sistemınə inteqrasiyası

2017-ci ildə "PAŞA Bank" ASC-nin kassa-terminal cihazları ilə SOCAR-nın mühasibatlıq sistemi arasında irimiqyaslı inteqrasiya layihəsinə başlanmışdır. Bu təşəbbüs çərçivəsində SOCAR-nın Azərbaycanda yerləşən yanacaqdoldurma məntəqələri "PAŞA Bank" ASC-nin müştərilərinə hesabatlığın optimallaşdırılması və qeyri-nağd dövriyyənin artırılmasına imkan verən kassa-terminal cihazları ilə təchiz edilmişdir.

### Kassa terminallarının mehmanxanalarda işləməsi

Səciyyəvi biznes ehtiyaclarını qarşılamaq üçün Azərbaycanın qonaq qarşılama xidmət müəssisələri yeni proqram təminatı ilə təkmilləşdirilmiş "PAŞA Bank" ASC-nin kassa-terminal cihazlarından getdikcə daha çox istifadə edirlər. Əvvəllər üçüncü tərəfin proqram təminatından istifadə etmiş, nəticədə əlavə xidmət haqqına məruz qalmış müştərilər üçün xərclərə əhəmiyyətli qaydada qənaət edən bankın kassa-terminal cihazları hazırda bütün əsas mehmanxanalarda işləyir.

### Fərdi Sahibkarın İşgüzar Ödəniş Kartı

İl ərzində "PAŞA Bank" ASC biznes müştərilərinə əmək haqqı ilə bağlı xidmət xüsusiyyətlərini bir-birindən fərqləndirmək üçün yeni kart təklif etməyə başladı. Beləliklə, fərdi sahibkarın işgüzar ödəniş kartı fərdi sahibkarlara ödəniş etmək şəraitini yaradır, korporativ müştərilər üçün isə əmək haqqının daha münasib qaydada ödənilməsini təmin edir.

## Ödəniş və hesabları idarəetmə

2017-ci ildə "PAŞA Bank" ASC aşağıdakı təkmilləşmələr və innovasiyalar vasitəsilə ödəniş və hesablar fəaliyyət istiqaməti üzrə xidmət keyfiyyətini və səmərəlilik dərəcəsini artırmışdır:

- terminallar vasitəsilə nağdlaşdırma müqabilində komissiya haqqı banka üşünçü tərəf qismində xidmət təminatçıları ilə bağlı birbaşa xərclərini əvəzləmək imkanını verir;
- Kağız daşıyıcıları vasitəsilə ödənişlər üzrə



**Ağayeva Tamilla**

*1989-cu ildə Tibb Elmlər namizadi, diabet xəstəliyində gözdə patoloji dəyişikliklərin dərəcəsi müəyyən edilməsi üçün bir üsul icad edən qadın. "Katarakt müalicəsi metodu" adlı patent almışdır.*

SWIFT Urgent (sürətli ödəniş) işarəsinin tətbiqi banka kağız daşıyıcıları vasitəsilə ödəniş həcminin və müvafiq əməliyyat bölmələrində iş yükünün azaldılmasına yardım edir;

- MT940-SWIFT Messages (gün sonu çıxarışlar) "PAŞA Bank" ASC-ə müştəri məmnunluğunu artırmaq və məhsul çeşidinə yeni təklifi əlavə etmək imkanını verir;
- Müvafiq proqram təminatını təkmilləşdirdikdən sonra "PAŞA Bank" ASC müştəri məmnunluğunu artıran və əvvəllər bankomat vasitəsilə görülən işi avtomatlaşdırılan yeni üçaylıq (sərbəst nağdlaşdırma) xidmət tətbiq etmişdir;
- "PAŞA Bank" ASC müştərilər üçün depozit və cari hesab çıxarışlarını təkmilləşdirmişdir;

"PAŞA Bank" ASC müddətli depozit məhsulları üzrə daxili idarəetmə sistemini (müştəriyə ediləcək növbəti məhsul təklifini əvvəlcədən müəyyən etmək məqsədilə filiallara və müştəri münasibətləri üzrə menecerlərəmüddətli depozitlərin müddətinin sona çatmasına dair avtomatik bildirişlərin göndərilməsi səpkisində) təkmilləşdirmişdir.to the customer.

2017-ci il "PAŞA Bank" ASC-də yeni rəqəmsal üfüqlər ili olmuşdur. Bank böyük korporativ müştərilər seqmenti üçün B2B platformasını uğurla işə salmışdır. Bu platforma vasitəsilə biznes tərəfdaşlarımızı arasıkəsilməz, avtomatlaşdırılmış ödəniş tapşırığı mübadiləsi və məlumatların üzləşdirilməsi imkanı ilə təmin edir. B2B kanalı vasitəsilə həyata keçirilən əməliyyatların təhlükəsizliyi elektron imza şəhadətnamələri hesabına təmin edilir."PAŞA Bank" ASC bu sahədə Azərbaycan Respublikasının Mərkəzi Bankı nəzdində Bank Sertifikat Xidmətləri Mərkəzi ilə və ASAN imza səpkisində əməkdaşlıq edir. "PAŞA Bank" ASC-ə təqdim edilən bütün ödəniş tapşırıqları müştərinin elektron imzaları ilə təsdiqlənir.

**Müştəri üçün əsas üstünlüklər**

*Müştəri platforması ilə fasiləsiz inteqrasiya*

Bu məhsuldan yararlanan müştəri ona məxsus olan müəssisə resurslarının planladşırılması (ERP) sistemini xüsusi B2B kanalı vasitəsiləbank sisteminə inteqrasiya edir, müvafiq əməliyyatları digər alətlərə (kağız daşıyıcılarına əsaslanan alətlərə, İnternet bankçılığa, tətbiqi mobil proqramlarına) müraciət etmədən, daxili sistemi hesabına asan və çevik qaydada həyata keçirir. B2B platforması müştərilərə beynəlxalq və yerli əqdləşmələri, o cümlədən standart və təcili ödənişləri, vergi və digər dövlət ödənişlərini işləmək və təsdiqləmək, həmçinin ödəniş statusuna nəzarət etmək, aidiyyatı olan hesabatlar almaq və bu layihə çərçivəsində nəzərdə tutulmuş digər üstünlüklərdən yararlanmaq imkanını verir. Ödənişləri daha sürətlə işləmək üçün müxtəlif növ ödəniş tapşırıqlarını vahid bir ödəniş faylında toplamaq olar.

Müştərilər əməliyyatı işləmək üçün hesablarında yetərincə vəsait olmadıqda belə ödəniş tapşırıqlarını göndərə bilərlər. Sistem hesabdakı qalığı avtomatik qaydada üç gün üzrə yoxlayır; əməliyyat, hesabda yetərincə vəsait mövcud olduqda avtomatik qaydada işlənilir.

Müştəriləronlara ödənişə başlamaq, onu təsdiqləmək və onun statusunu izləmək üçün sadə və vahid çıxış nöqtəsini həvalə edən B2B platformasına tam şəkildə inteqrasiya edə bilərlər. Müştərilər ödənişi təsdiqləmək və ödəniş statusunu izləmək üçün inteqrasiyaya hazır aralıq təminat proqramı və monitorinq alətlərindən də istifadə edə bilərlər.

"PAŞA Bank" ASC-nin müştəriləri ASAN imza, yaxud Bank Sertifikat Xidmətləri Mərkəzinin elektron imzası arasında seçim edə bilərlər. Elektron imza sistemi "PAŞA Bank" ASC və onun müştəriləriarasında maliyyə əqdləşmələrinin təhlükəsizliyini, eləcə də səyyarlıq, sürət, əmək qüvəsinə və xərclərə qənaəti təmin edir.

# KORPORATİV VƏ KOMMERSİYA BANKÇILIĞI

"PAŞA Bank" ASC, müştəri münasibətləri üzrə sadiq menecerlər heyətini, hərtərəfli məhsul çeşidini və səmərəli biznes prosesləri səfərbər etməklə eyniliklə böyük müəssisələr və kiçik sahibkarlıq subyektləri üçün sifariş əsaslı bank məsullarını və xidmətlərini göstərir. Azərbaycanın rifahı və yüksəlişinə tərəfdar olan "PAŞA Bank" ASC yüksək artımla inkişaf edən iqtisadiyyat sahələrində dərin səriştəyə yiyələnib. Orta sahibkarlıq subyektlərinin böyüməsinə genişçeşidli maliyyə xidmətləri və bank məhsulları vasitəsilə dəstək verməklə "PAŞA Bank" ASC ölkə iqtisadiyyatının həmçinin şaxələnməsinə töhfə verir.

### Xidmət keyfiyyətini, səmərəliliyi və əməliyyatların effektivliyini artıran səylər

"PAŞA Bank" ASC-nin göstərilən xidmətlərin keyfiyyət artımı və əməliyyatların səmərəlilik səviyyəsinin yüksəldilməsi üzrə əsas strategiyasının özəyində rəqəmsallaşma qərarlaşıb.

2017-ci ildə "PAŞA Bank" ASC müştərilərin qeyri-daimi tələbat və ehtiyaclarını daha yüksək məmnunluq təmin edən qaydada tənzimləmək məqsədilə dünyanın bir çox "A" reytinqli banklarında artıq istifadədə olan Oracle FLEXCUBE maliyyə platformasını işə salmaqla irəliyə doğru böyük addım atmışdır. Bu yeni platforma banka daha yaxşı hazırlanmış və müştərilərə daha çox yönəlmiş tamamilə yeni onlayn bankçılıq sisteminitərtib etmək imkanını vermişdir. Nəticədə İnternet bankçılıqdan istifadə təmayülü artım dinamikasını saxlamışdır; ilin sonunadək bank əməliyyatlarının 86%-i onlayn bankçılıq vasitəsilə işlənmişdir.

2017-ci ildə "PAŞA Bank" ASC həmçinin B2B ("biznesdən biznesə") platformasının öz sisteminə inteqrasiyasını tamamlamışdır. Üstəlik, bəzi əsas korporativ müştərilər öz sistemləri ilə bankın sistemi arasında tam inteqrasiyaya nail olmuşdurlar. Bankın B2B platforması müştərilər üçün müəssisə resurslarının planladşırılması (ERP) sistemlərini xüsusi kanalla, digər (kağız əsaslı vasitələr, internet bankçılıq, səyyar cihazlar üçün tətbiqi proqramlar kimi) vasitələrə müraciət etmədən bankçılıq sisteminə inteqrasiya etmək imkanını yaradır. Beləliklə, platforma əməliyyatları daxili sistemi vasitəsilə əməliyyatların müyəssər və çevik şəkildə icrasını asanlaşdırır. Xüsusilə qeyd edilməlidir ki, "PAŞA Bank" ASC müştəriləri Azərbaycanda bu xidmətlə təmin edən ilk maliyyə təsisatıdır.

Digər heyranedici nailiyyət Dövlət Gömrük Komitəsinin gömrük terminallarında qeyri-nağd əməliyyatların həcmini əhəmiyyətli dərəcədə artırmış "PAŞA Bank" ASC-nin müasir ödəniş kassalarının quraşdırılması olmuşdur.

### Layihələri maliyyələşdirmə

Müfəssəl çeşiddə maliyyə və texniki təhlillərdən istifadə etməklə "PAŞA Bank" ASC istehsalat, dağ-mədən, kənd təsərrüfatı, nəqliyyat və logistika kimi sahələrdə müxtəlif layihələrin maliyyələşdirilməsində aparıcı maliyyə təminatçılarından biri kimi öz mövqeyini qorumuşdur.Layihələri maliyyələşdirmə, istehsal həcmini, iş yerlərini artırdığına və yüksək məbləğdə əlavə dəyər əmələ gətirdiyinə görə böyük əhəmiyyət kəsb edir. "PAŞA Bank" ASC-nin maliyyələşdirdiyi layihələrə gəldikdə, ölkənin pambıqçılıq sektoruda fəaliyyət göstərən əsas şirkətlərdən biri qısa zaman kəsimində istehsalat gücünü ikiqat artırmağa müvəffəq olmuşdur. Bu xüsusi layihə ölkənin daxili tələbini qarşılamaq üçün tələb edilən həcmdə pambıq idxal etmək tələbatının azaldılmasına yardım etmişdir.

Digər mühüm layihə Yeni Ələt Limanı ətrafında yaranmaqda olan Azad İqtisadi Zonanın (AİZ) tikintisi layihəsinin maliyyələşdirilməsi ilə bağlı idi. Liman ətrafında bir sıra işləri həyata keirmək üçün yüksək tələbatda olan kranlar "PAŞA Bank" ASC-nin ayırdığı kredit sayəsində Azərbayana idxal edildi.

"PAŞA Bank" ASC, istər korporativ subyekt, istərsə də irimiqyaslı inkişaf layihəsi qismində çıxış edən vahid borcalan üçün böyük məbləğdə maliyyə vəsaitini təmin etmək məqsədilə digər maliyyə təsisatları ilə əməkdaşlıq edir. Sindikat kreditinin başlıca üstünlüklərinə aşağıdakı imkanlar daxildir: olduqca böyük həcmdə kredit təklifi, möhlət (güzəşt) dövrünün verilməsi, dəyişməz, yaxud dəyişən faiz dərəcələri, fərdi müştərinisəciyyələndirən pul axınları tələblərinə cavab verən borcödəmə cədvəli və s.

2017-ci ildə "PAŞA Bank" ASC Azərbaycan bank sistemində növbəti "birinciliyə" imza atmışdır. Bank,"Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited" şirkətinin kreditlərini 13.5 milyon ABŞ dolları məbləğindətəkrar maliyyələşdirmək üçün səlahiyyət verilmiş baş təşkilatçı kimi çıxış etmişdir. Bu sövdələşməyə sindikatın cari iştirakçıları qismində yerli və regional maliyyə təsisatları cəlb edilmişdir. Belə maliyyələşmə imkanı müştəriyə Gədəbəy rayonunda yerləşən mədənlərində müxtəlif layihələrə investisiya qoymaq üçün nağd pul vəsaitininsaxlanılmasına yardım etmişdir. Mövcud kreditlərin müddəti 24 ay uzadılmış, illik faiz dərəcələri isə əhəmiyyətli dərəcədə aşağı salınmışdır.



# FAKTORİNQ

2015-ci ildə "PAŞA Bank" ASC Azərbaycanda faktorinq xidmətlərini göstərməyə başlayan ilk maliyyə təsisatı oldu. Hazırda bank daxili bazarda liderliyini qoruyaraq ölkədaxili faktorinq, güzəştli hesab-fakturalar, təchizat zəncirinin maliyyələşməsi, ixrac və idxal üzrə faktorinq daxil olmaqla bütün növ faktorinq xidmətlərini/məhsullarını təklif edir.

Hazırda "PAŞA Bank" ASC Beynəlxalq Faktorlar Assosiasiyasının (Factors Chain International, FCI) üzvü olmuş yeganə Azərbaycan maliyyə təsisatıdır. FCI dünyanın aparıcı faktorinq şirkətlərinin qlobal şəbəkəsidir. Bu şəbəkə vasitəsilə "PAŞA Bank" ASC 90 ölkədə 400-dən çox müxbir faktorinq xidməti/məhsulu təminatçısına çıxış əldə edib.

Faktorinqə dair əsas tələbləraşağıdakılardan ibarətdir:

• satıcı (təchizatçı) və alıcı (borclu) arasında müqavilə;

• satıcı (təchizatçı) və alıcı (borclu) arasında müəyyən vaxtı əhatə edən kommersiya münasibətlərinin təsdiqi;

• satıcı (təchizatçı) və alıcı (borclu) arasında mallar və xidmətlərin təchizatını təsdiqləyən təslim-təhvil aktı;

• müqavilə ilə tələb edilən bütün hesab-fakturaların, həmçinin digər köməkçi (müşayiətedici) sənədlərin banka təqdim edilməsi.

Faktorinqin üstünlükləri aşağıdakılardır:

• kreditə (sonradan ödəmək şərtilə) satış məbləğinin 90%-dək nisbətini dərhal almaq imkanı;

• dövriyyə vəsaitinin münasib maliyyələşmə şərtləri hesabına artırılması;

• təchizatçının borcluya qarşı irə sürdüyü təyin edilmiş maliyyə vəsaiti və uzunmüddətli ödəniş şərtləri;

• alınacaqlar və ödənişlər üzərində artırılmış kredit nəzarəti;

• təchizatçıvə alıcı arasında etibara əsaslanan münasibətlərin dəstəklənməsi.

2017-ci ilin sonunda "PAŞA Bank" ASC-nin ölkədaxili faktorinq əməliyyatlarının həcmi 133 milyon manat təşkil etmişdir. Bank il ərzində toplam 1,400 hesab-faktura işləmişdir.

Xidmət keyfiyyətini artıqmaqməqsədilə "PAŞA Bank" ASC faktorinq müştərilərinin sifarişlərini vaxtlı-vaxtında yerinə yetirmək üçün onlara məhsul/xidmət üzrə məsul menecer təhkim edir. Əlavə olaraq, əqdləşmələrin səmərəliliyini artırmaq və vaxtlı-vaxtında aparılmasına rəvac vermək üçünfaktorinq əməliyyatlarının əksəriyyəti kağız daşıyıcıları üzərindən onlayn formata keçirilmişdir. Hazırda müştərilər həz zaman kağızda yazılmış müqaviləni imzalamaq əvəzinə elektronpoçt vasitəsilə müraciət etməklə hesab-faktura üzrə ödənilmiş məbləğlərin siyahısını əldə edə bilirlər.

2017-ci ildə "PAŞA Bank" ASC ölkədə fəaliyyət göstərən yerli və beynəlxalq alıcıların təchizat zəncirinə dəstək olaraq alış sifarişinin maliyyələşməsini təklif etməyə başlamışdır.

Faktorinq xidmətləri/məhsulları girov əsaslı ənənəvi kreditləşmə ilə müqaysədə daha münasib şərtlərlə maliyyə vəsaitinə çıxışı təmin etməklə Azərbaycanda fəaliyyət göstərən kiçik və orta müəssisələr üçün çox münasibdir. "PAŞA Bank" ASC bu istiqamətdə fəaliyyətinin yaxın illərdə daha da böyüyəcəyini gözləyir.

Korporativ bank təsisatı olan "PAŞA Bank" ASC fərdi müştərilərə (əmək haqqı kartı sahiblərinə) müstəsna yanaşma ilə seçilir. Bu yanaşma, müştərilərin filiallara fiziki gəlişini minimum səviyyəyədək endirmək, müştəri mənnunluğunu artırmaq, fərdi şəxslər üçün bank proseslərini avtomatlaşdırmaq, əmək haqqı kartları vasitəsilə nağdsız ödəniş həcmini artırmaq, yeni məhsul yaratmaq və mövcud məhsulları təkmilləşdirmək məqsədilə onlayn bank xidmətlərin yaradılmasını ehtiva edir.

2017-ci ildə "PAŞA Bank" ASC fərdi bankçılıq fəaliyyət istiqaməti üzrə verilmiş kreditlərin həcmində valehedici artımı açıqlamışdır. Kredit portfelinin həcmivə müvafiq sazişlərin sayı il ərzində iki dəfədən çox artmışdır. Belə ki, əmək haqqı kartının sahibi olan müştərilərlə bağlı kredit portfelinin həcmi 2.2 dəfə, ipoteka kreditlərinin həcmi 4.5 dəfə, "PAŞA Həyat Sığorta" ASC-nin yığım (kredit) portfeli isə 5.1 dəfə artmışdır.

### Qeyri-nağd ödənişlərin həcmində artım

İl ərzində fərdi bankçılıq qarşısında olan əsas vəzifələrdən biri qeyri-nağd ödənişlərin həcmində artıma nail olmaq idi. Bu məqsədlə "PAŞA Bank" ASC yeddi uğurlu tanıtma kampaniyasını həyata keçirmişdir.

Qeyri-nağd ödəniş dövriyyəsini artırmaq məqsədilə "PAŞA Bank" ASC-nin kassa terminalları vasitəsilə endirim təklif edən ticarətçilər və tərəfdaşları"PAŞA Bank" ASC tərəfindən başlanmış və PAŞA Bank kartlarına aid edilən MasterCard şirkətinin Loyallıq Platforması və PAŞA Bankın Endirim Platformasına qoşulmuşdurlar.

### "PAŞA Bank" ASC-nin Səyyar Cihazlar üçün Tətbiqi Proqram

Fərdi müştərilər "PAŞA Bank" ASC-nin Səyyar Cihazlar üçün Tətbiqi Proqramından istifadə etməklə asanlıqla vaxtlarına qənaət edə bilərlər və daha çox bank xidmətinə çıxış əldə edə bilərlər. "PAŞA Bank" ASC mövcud məhsul və xidmətlərini filiallardan səyyar (mobil) platformaya keçirməklə bu tətbiqi proqramın funksional bacarıqlarını artırmışdır. Beləliklə, istifadəçilər kartların əvəzlənməsi/yenilənməsi, yeni ödəniş/PHY kartının sifariş edilməsi, hesab və kart üzrə çıxarışlar, viza müraciəti ilə bağlı səfirliyə təqdim ediləcək məktubun sifariş edilməsi, növbənin onlayn qaydada tutulması və bankın Ümumi Standart Razılaşmasına (GSA) dair əlumatın əldə edilməsikimi vaxtilə yalnız filiallarda mümkün olan əməliyyatları həyata keçirə bilərlər.

### Layihələr

Fərdi bankçılıq fəaliyyət istiqaməti üzrə aşağıdakılar daxil olmaqla il ərzində müxtəlif layihələr icra edilmişdir:

ASAN imza– "PAŞA Bank" ASC filiallarında fərdi müştərilər ASAN imza verən ilk Azərbaycan bankıdır. ASAN imza elektron xidmətlərə çıxarkən və rəqəmsal imza edərkən şəxsin kimliyini təsdiqləmək üçün səyyar (mobil) eyniləşdirmə vasitəsidir. ASAN imza müştərilərə mövcud olan bütün elektron xidmətlərdən istifadə etmək imkanını verir. "PAŞA Bank" ASC-nin müştəriləri bankın Səyyar Cihazlar üçün Tətbiqi Proqramı vasitəsilə ASAN imzadan istifadə etməklə daha çox xidmətə çıxış əldə etmək iqtidarında olacaqlar.

Səyyar dayanacaq ödənişi– Azərbaycanda ilk dəfə tətbiq edilən müstəsna xidmət kimi səyyar dayanacaq ödənişi "PAŞA Bank" ASC-nin Səyyar Cihazlar üçün Tətbiqi Proqramının funksional bacarıqlarına daxil edilmişdir. Nəticədə "PAŞA Bank" ASC nağdsız ödənişlər həcmi ilə yanaşı müştəri məmnunluğunun da artmasına nail olacaq.

Kartların kütləvi şəkildə açılması– bu innovasiya kartların verilməsi prosesinin optimallaşdırılmasına, əməliyytların səmərəlilik

səviyyəsinin isə yüksəlməsinə səbəb olmuşdur.

Kredit qalığının optimallaşdırılması – bu təşəbbüs aylıq kredit ödənişinin müştərinin əmək haqqı hesabından tez və asanlıqla birbaşa tutulmasına imkan yaradır.

Onlayn GSA – bu layihə vaxta qənaət etmək, kağız istehlakını azaltmaq və arxivləşdirmə prosesini (elektron surətyazma vaxtını) optimallaşdırmaq məqsədilə müştərilərə "PAŞA Bank" ASC-nin Ümumi Standart Razılaşmasını əldə etmək imkanını verir.

Çap nüsxələrinin avtomatlaşdırılması və optimallaşdırılması– "PAŞA Bank" ASC müştərilərlə bağlı təsdiqlənmiş bütün çap nüsxələrini və yazışmaları işgüzar analitika (BI) sistemində avtomatlaşdırmışdır.

Əmək haqqı kartlarının verilməsinin optimallaşdırılması və avtomatlaşdırılması– bu təşəbbüs əməliyyatların səmərəlilik və müştərilərin məmnunluq səviyyəsini artırmaqla bankda əmək haqqı kartlarının verilməsini sürətləndirəcək.

Yeni nəsil bankomatları– il ərzində "PAŞA Bank" ASC müştərilərə nağd pulu çıxarmaq və yatızdırmaq, həmçinin valyutanı mübadilə etmək imkanını verən yeni nəsil ("3-ü 1-də") bankomatlarını işə salmışdır.

Yerli Mərkəzləşdirilmiş Kredit Reyestri Sistemi – "PAŞA Bank" ASC bu sistemi müştərilərə istifadə etdikləri kredit məhsulları və kredit tarixçələrinə dair tam məlumat almaq məqsədilə istifadəyə vermişdir.

### 2018-ci ilin layihələri

2018-ci ildə fərdi bankçılıq fəaliyyət istiqamətiüzrə əsas diqqətin müştəri sayının, dövriyyə həcminin və xidmət keyfiyyətinin davamlı artımına təminat üzərində olacağı planlaşdırırlır.

Korporativ seqment üzrə əmək haqqı ödənişləri sahəsində nail olduğu uğura əsaslanaraq "PAŞA Bank" ASC işlək korporativ əmək haqqı kartı layihələrinin sayını qarşıdan gələn ildə 65% artırmağı planlaşdırır. Gəlir axınlarını gücləndirmək və şaxələndirmək məqsədilə bank kassa-terminal ödənişlərinin işlənməsişəbəkəsinin və nağdsız dövriyyə həcminin genişləndirilməsi vəzifəsinə sadiqdir. Əlavə olaraq, "PAŞA Bank" ASC 2018-ci ildə "PAŞA Holdinq" MMC-ə daxil olan şirkətlər arasında uğurlu əməkdaşlıqdan daha çox yararlanaraq "PAŞA Həyat Sığorta" ASC və "PAŞA Sığorta" ASC ilə çarpaz məhsulların yaradılması üzərində işləyəcək.

Bank həmçinin gələcək inkişafa böyük ümidlər verən Private Banking sahəsində müştəri sayını artırmaq məqsədilə yeni məhsulların yaradılmasına çalışır.

Kart sahibi qismində yeni müştəriləri qazanmaq, mövud müştəriləri isə qorumaq məqsədilə "PAŞA Bank" ASC yeni çarpaz məhsulları, məhsul/xidmət zərflərini, qeyri-maliyyə məhsullarını düşünür, mövcud kart məhsullarının isə təkmilləşdirilməsini hədəfləyir. "PAŞA Bank" ASC və MasterCard şirkətinin "PAŞA Bank" kartlarının sahibləri üçün bu qəbildən olan endirim platforması müştəri məmnunluğunu artırmaq məqsədilə planlaşdırılıb. Təhlükəsiz əqdləşmələrin artan əhəmiyyətinən hər zaman xəbərdar olan "PAŞA Bank" ASC fərdi bankçılıq fəaliyyət istiqaməti üzrə müştərilərinin təhlükəsizliyini artırmaq üçün elektron formatda fərdi eyniləşdirmə nömrəsini/aktivləşdirmə kodunuyaratmaq niyyətindədir.



**Səkinə Axundzadə**

*Azərbaycanda ilk qadın dramaturq, ictimai xadim, müəllim, Azərbaycan dilində dərsliklərin müəllifi, Bakıda Müsəlman Qadın Xeyriyyə Cəmiyyətinin fəal xadimi. Səkinə Axundzadə ərəb və fars dillərini və Şərqi ədəbiyyatı ilə yaxından tanış idi. Yaradılan əsərlərdə o, Azərbaycanlı qızların azadlıq fikirini yaymaq istəyib, onların bilik və elmlərə olan məhəbbəti oyadırdı. Səkinə Axundzadə həmçinin Azərbaycanın ilk roman qadın müəllifi olub. 1918-ci ildə folklor nümunəsi əsasında yazılmış "Şahzadə Əbülfəz və Rəna" romanında yazıçı Azərbaycanlı qadınların zehniyyətin dəyişməsini arzulayırdı.*

Rəqəmsal transformasiya strategiyasının icrasına və müştərilərin bankçılıq sahəsində qeyri-daimi tərcihlərinin qarşılanmasına sadiq qalmaqla "PAŞA Bank" ASC səyyar (mobil) bankçılıq vasitəsilə icra edilən əməliyyatların sayını artırmaq məqsədilə bu sahədə fəaliyyətindaha da optimallaşdırılmasını, yeni xidmətlərin, xüsusiyyətlərin və funksional bacarıqların əlavə edilməsini planlaşdırır. Üstəlik, istifadəçi rahatlığını artırmaq və fəal istifadəçilər bazasını genişləndirmək məqsədilə "PAŞA Bank" ASC-nin Səyyar Cihazlar üçün Tətbiqi Proqramınınquruluşunun yeni görkəmə salınması 2018-ci ilin gündəmində olan məsələdir.

# İNVESTİSİYA BANKÇILIĞI

"PAŞA Bank" ASC-nin İnvestisiya Bankçılığı departamenti yerli maliyyə bazarında bir sıra məhsul və xidmətlərin təminatçısı kimi çıxış edir, komersiya müəssisələrinə xidmətlər göstərir.Üç il bundan əvvəl təsis edilmiş İnvestisiya Bankçılığı departamentirəqabətli bazar mühitində öz yerini tutmağa davam etməklə əsas "birinciliklərinə" 2017-ci ildə imza atmışdır.

İl ərzində departament yerli bazar tarixində ilk sindikat kreditini təşkil etmişdir. Departament "Anglo Asian Mining plc" şirkətinin 2018-ci ildə fəaliyyətinin genişləndirilməsi və optimallaşdırılması planlarının icrasını sürətləndirmək məqsədilə 8.4 milyon ABŞ dolları məbləğində kapitalı səfərbər etməklə mövcud borcunun böyük hissəsini təkrar maliyyələşdirmək üçün 13.5 milyon ABŞ dolları məbləğində, müddəti iki il, illik 7% dərəcəsi şərti ilə kredit üçün sindikatı (bir qrup kreditorları) təşkil etmişdir və əmələ gətirmişdir. Bu kredit qrupun əməliyyatlarında çeviklik yaratmaqla maliyyə göstəricilərini yaxşılaşdırmışdır "PAŞA Bank" ASC-nin investisiya bankçılığı bölməsi bu sövdələşmə çərçivəsində səlahiyyət verilmiş baş təşkilatçı qismində çıxış etmiş və müvafiq krediti bir yerli, bir xarici bankdan ibarət olan sindikat tərəfindən əmələ gətirmişdir.

2017-ci ildə İnvestisiya Bankçılığı departamenti Azərbaycan qiymətli kağızlar bazarının tarixində ilk dəfə 25 milyon ABŞ dolları dəyərində avrobond yerləşdirmişdir. Bondların dövriyyə müddəti beş il, kupon (təsbit edilmiş illik faiz) dərəcəsi ilə 4.85%-dir. Bu, əsasən yerli institusional investorların iştirakı ilə qapalı yerləşdirmə əməliyyatı idi. Bununla belə, hazırda müvafiq avrobondları yerli bazarda açıq dövriyyəyə buraxmaq məqsədilə "PAŞA Kapital İnvestisiya şirkəti" ilə birlikdə iş aparılır.

Üstəlik, 2017-ci ildə "PAŞA Bank" ASC-nin İnvestisiya Bankçılığı departamentibank olmayan maliyyə təşkilatları arasında ilk repo əqdləşməsi üzrə vasitəçi kimi çıxış etmişdir. Yenilik yaratmış bu sövdələşmənin müddəti 30 gün, dəyəri isə 1 milyon ABŞ dollarına yaxın idi.

"PAŞA Bank" ASC müştərilərinə investisiya bankçılığı və məsləhət xidmətlərinimənsub olduğu holdinqə daxil olan "PAŞA Kapital İnvestisiya Şirkəti" QSC-i vasitəsilə göstərir. 2017-ci ildə "PAŞA Kapital İnvestisiya Şirkəti" QSC-nin ümumi dövriyyəsinin 4.7 milyard manatdan çox olduğunu bəyan etmişdir.

İl ərzində "PAŞA Kapital İnvestisiya Şirkəti" QSC Maliyyə Nazirliyi adından anderrayter kimi çıxış etmişdir, Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fonduna brokerlik və anderraytinq xidmətlərini göstərmişdir.

Hazırda "PAŞA Bank" ASC-nin İnvestisiya Bankçılığı departamenti Azərbaycanda və ölkə hüdudlarından kənarda bazar imkanlarından daha çox fayda götürmək məqsədilə yenidənqurma mərhələsindədir.

Hökumət islahatlar və özlləşdirmə tədbilərinə dair qəti addımları baş verdikcə qarşıdan gələn illərdəAzərbaycanda investisiya bankçılığı sahəsinə qeyri-adi fürsətlərin yaranması gözlənilir. Bu baxımdan "PAŞA Bank" ASC-nin diqqət mərkəzində əsasən məsləhət, korporativ maliyyə və restrukturizasiya layihələri və yeni "birincilikləri" əmələ gətirməklə bazarda öndər mövqenin qorunması olacaq.

# XƏZİNƏDARLIQ

*2017-ci ildə“PAŞA Bank” ASC-nin faiz gəlirinin 53%-i, qeyri-faiz gəlirinin isə 78%-i Xəzinədarlıq departamentitəmin etmişdir.*

Maliyyə bazarlarındakı məzənnə dəyişmələrini yaxından izləyən “PAŞA Bank” ASC-nin Xəzinədarlıq departamenti alternativ investisiya alətlərindən istifadə etməklə riskləri minimuma endirmək və yüksək gəlirə nail olmağa çalışmışdır. Aktivlərin keyfiyyətini yaxşılaşdırmaqla department “PAŞA Bank” ASC-nin mənfəət göstəricisinin 2017-ci ilin hədəflərinə uyğun gəlməsində böyük xidmət göstərmişdir.

Ölkədaxili və ümumdünya mühitində baş verən son hadisələr nöqteyi-nəzərindən departamentmüvafiq vaxt seçimi və alternativ investisiya alətləri sayəsində “PAŞA Bank” ASC-nin möhkəm balans strukturunun dahada güclənməsinə rəvac vermişdir.Xərc amillərini yaxından izləməklə department ona həvalə edilmiş portfelin şaxələnməsinə davam etmişdir.

Genişçeşidli aktivlərə investisiya yatırmaqla departament olduqca gərgin və sürətlə dəyişən bazarda effektiv və önləyici qaydada fəaliyyət göstərmişdir.

2017-ci ilin sonuna olan vəziyyətə əsasən Xəzinədarlıq departamenti 2,410 milyon manat məbləğində vəsaiti idarə edirdi.Bu aktivlərə 396.94 milyon manatlıq qiymətli kağızlar portfeli, həmçinin 1,411 milyon manat məbləğində nağd pul vəsaiti və onun ekvivalentləri və kredit təsisatlarından ödənilməli 603.1 milyon manatlıq debitor borc daxildir. Hesabat ilində “PAŞA Bank” ASC-nin faiz gəlirinin 53%-i (100.1 milyon manat), qeyri-faiz gəlirinin isə 78%-i Xəzinədarlıq departamenti təmin etmişdir.

Xəzinədarlıq departamenti müştəriləri aşağıdakı məhsul və xidmətlərlə təmin edir:

- korporativ valyuta masası – real zaman kəsimində alqı-satşı əməliyyatlarını icra etmək məqsədilə ticarət meydançasında fəaliyyət göstərən treyderlərə çıxış;
- törəmə alətlər;
- valyuta üzrə forvard, nağd şəkildə (sadə) forvard, svop (pul və ödəniş axınları) və opsion müqavilələri;
- əmtəə alqı-satqısı üzrə itkilərin heçləşəməsi (hecləşmə əməliyyatları) – şəkər, buğda, alüminium, qızıl, xam neft və digər əmtəələr daxil olmaqla genişçeşidli fyuçers müqavilələri.

Qarşıdan gələn il daha çox sayda korporativ müştərinin kapital bazarlarına çıxması səbəbindən “PAŞA Bank” ASC bu sahənin böyüməsini gözləyir.

# İNSTİTUSİONAL BANKÇILIQ

## Ticarətin maliyyələşdirilməsi

"PAŞA Bank" ASC müştərilərinə ticarətin maliyyələşdirilməsi üzrə genişçeşidli məhsul və xidmətlər göstərir. Bu cür ixtisaslaşmış məhsul və xidmətlərə yerli və beynəlxalq bank zəmanəti, zəmanətli akkreditiv, sənəd (malın yüklənməsi) üzrə akkreditiv, ödəniş üçün sənədlərin toplanılması, fakt əsaslı qısa, orta və uzunmüddətli maliyyələşmə və ixrac özü maliyyələşmə daxildir. "PAŞA Bank" ASC müştərilərinə ticarətin maliyyələşdirilməsi ilə əlaqədar konsultasiya və məsləhət xidmətlərini də göstərir, ticarətin maliyyələşdirilməsi məhsullarını və xidmətlərini milli, həmçinin xarici valyutada təklif edir.

2017-ci ildə "PAŞA Bank" ASC müştəri sifarişlərini daha tez yerinə yetirmək məqsədilə yeni prosedurlar və qərarvermə proseslərini yaratmışdır.Daxili müştərilərin, xüsusilə müştəri münasibətləri üzrə menecerlərin, kredit inzibatçılarının, xəzinədarlıq və maliyyə təsisatlarının keyfiyyət və sürət baxımından artan ehtiyaclarını təmin etmək üçün bank həmin müştərilərlə münasibətləri gücləndirmişdir.

Xariclə əqdləşmələrin qısamüddətli (24 ayadək) maliyyələşdirilməsi məqsədilə "PAŞA Bank" ASC ticarətə dair vasitəsiz xalis maliyyələşmə xətləri (hədləri) vasitəsilə qlobal miqyaslı beynəlxalq tərəfdaş bank çəbəkəsi şərçivəsində müvafiq xidmətlərdən istifadə edir.

Əsasən istehsalatla bağlı mal və xidmətlərin idxalına dair xariclə əqdləşmələrin orta və uzunmüddətli (24 aydan çox) maliyyələşdirilməsinə gəldikdə "PAŞA Bank" ASC-nin ixracın kreditləşdirilməsi üzrə Euler Hermes, SACE və OeKB kimi dünyanın aparıcı agentlikləri ilə uzunmüddətli əməkdaşlıq təcrübəsi vardır.

Bank, ümumi qaydada qəbul edilmiş beynəlxalq standartların gözlənilməsinə hər zaman təminat yaratmaq məqsədilə ticarətin maliyyələşdirilməsi sahəsində qlobal təmayülləri yaxından izləyir və müvafiq məhsul və xidmətlərinin çeşidini daima yeniləşdirir.

"PAŞA Bank" ASC ticarətin maliyyələşdirilməsi sahəsində müştərilərinə aşağıdakı məhsulları təklif edir:

- bütün növ (yerli və beynəlxalq, vasitəsiz və vasitəli) bank zəmanətləri;
- malın yüklənməsi üzrə bütün növ (yerli və beynəlxalq, çağrılmayan və təsdiqlənmiş) akkreditivlər;
- malın yüklənməsi üzrə akkreditiv çərçivəsində fakt əsaslı qısamüddətli maliyyələşmə;
- malın yüklənməsi üzrə akkreditiv çərçivəsində fakt əsaslı uzunmüddətli maliyyələşmə(İKA tərəfindən maliyyə təminatı);
- ödəniş üçün idxal və ixrac sənədlərinin toplanılması;
- alınmış bank zəmanətləri, zəmanətli akkreditivlər, sənəd (malın yüklənməsi) üzrə akkreditivlərə dair məsləhət xidmətləri;
- tələbli zəmanətlərlə təmin edilmiş bank zəmanətlərinin verilməsi;
- alınmış zəmanətli və sənəd (malın yüklənməsi) üzrə akkreditivlərə təsdiqnamənin əlavə edilməsi;
- ticarətin maliyyələşdirilməsi ilə bağlı müxtəlif məsələlərə dair konsultasiya.

"PAŞA Bank" ASC ticarətin maliyyələşdirilməsi sahəsində Azərbaycanın aparıcı banklarından biridir. 2017-ci ilin 31 dekabr tarixinə olan vəziyyətə əsasən, bankın ticarətin maliyyələşdirilməsi portfeli illik əsasda 71%, 179.6 milyon manatdan 306.2  milyon manatadək artmışdır. Əlavə olaraq, il ərzində

müvafiq əqdləşmələrin sayında 70%, 439-dan 748-dək artım baş vermişdir."PAŞA Bank" ASC 2017-ci ildə ticarətin maliyyələşdirilməsi üzrə 4.3 milyon manat mənfəət əldə etdiyini açıqlamışdır.

### Beynəlxalq maliyyə təsisatları ilə əməkdaşlıq

2017-ci ildə "PAŞA Bank" ASC müxbir bank şəbəkəsinin genişləndirilməsinə davam etmişdir. Bank ardıcıl olaraq altı il SIBOS tədbirində iştirak etmişdir və sonuncu tədbirdə 60-dan çox bankla əlaqə yaratmışdır. "PAŞA Bank" ASC maliyyə təsisatları üzrə strategiyasının biznes əməliyyatlarının ehtiyaclarına cavab verən şəklə salınmasına davam edir. İl ərzində bank səkkiz maliyyə təsisatını şəbəkəsinə əlavə etmiş, hesablaşmalar, ticarətimaliyyələşdirmə, investisiya bankçılığı, saxlanc əməliyyatları, pul bazarları və valyuta məhsulları (törəmə alətlər) baxımından bacarıq və qabiliyyətlərini artırmışdır.

Şaxəli müştəri bazası sayəsində "PAŞA Bank" ASC 2017-ci ildə yeni coğrafi bölgələr və fəaliyyət istiqamətlərini əhatə etməklə tərəfdaşlar şəbəkəsini genişləndirmişdir. Bank Birləşmiş Krallıqda xəzinədarlıq/investisiya əməliyyatlarına başlamış, Avropadan olan mövcud və yeni tərəfdaşlarla əməkdaşlığı inkişaf və dərinləşdirmişdir, Afrika, Yaxın Şərq, MDB və Şərqi Asiya məkanında yeni maliyyə təsisatlarına çıxış əldə etmişdir. "PAŞA Bank" ASC həmçinin Avropa və Şimali Amerikada ixrac kredit agentlikləri ilə məhsuldar münasibətlər yaratmaq və RMA şəbəkəsini qlobal miqyasda genişləndirmək istiqamətində daima fəaliyyət göstərir.

"PAŞA Bank" ASC əsas tərəfdaşları ilə etibarlı işlək münasibətlərə nail olmuşdur, Avropadan olan əhəmiyyətli tərəfdaşları ilə əqdləşmələrin tarixən aşağı xərcə əmələ gəlməsini təmin etmişdir və əvvəllər tərəfdaş olduğu Commerzbank AG ilə münasibətlərin yenidən yaradılmasına müvəffəq olmuşdur. Bank 2017-ci ildə Gazprombank (Rusiya və İsveçrə), Al-Masraf Bank, Mashreq Bank (BƏƏ) və Banco Sabadell (İspaniya) ilə biznes münasibətlərə başlamışdır.

Raiffeisen Bank International, CaixaBank, LBBW, UBI Banca, Akbank, İş Bankası, Ziraat Bank və Aktif Bank daxil olmaqla müxtəlif aparıcı beynəlxalq banklar "PAŞA Bank" ASC üçün kredit xətləri açıblar.



# PRIVATE BANKING

"PAŞA Bank" ASC-nin Private Banking bölməsi bankın maliyyə və qeyri-maliyyə müştərilərinin ehtiyaclarını qarşılmaq üçün yaradılmış vasitələri təklif etməklə Azərbaycan bazarında bu xidmətin ilk təminatçısıdır.

Bütün müştəri seqmentlərini müfəssəl maliyyə xidmətləri ilə təmin etmək missiyasına cavab verməklə "PAŞA Bank" ASC-nin Private Banking bölməsi:

• Azərbaycanda və ölkə hüdudlarından kənarda müştəri yönümlü maliyyə və qeyri-maliyyə xidmətlərini göstərmək;
• mövcud xidmətlərin ən yüksək keyfiyyət standartları ilə təklifini təmin etmək;
• uzunmüddətli, qarşılıqlı fayda verən müştərimünasibətlərini qurmaq;
• müştərilər üçün zunmüddətli maliyyə sabitliyini təmin etmək;
• Private Banking müştərinin həyatının tərkib hissəsinə çevirmək;
• müştərilərə şəxsi sərvətlərinin artırılmasında və qorunmasında, həmçinin bu sərvətin gələcək nəsillərə ötürülməsinin idarə edilməsində yardımçı olmaq;
• effektiv, müştəri yönümlü seçim yollarını tapmaq;
• özəl kapitalı idarəetmə sahəsində Azərbaycanın aparıcı bankı olmaq məqsədinə qulluq edir.

Müxtəlif müştəri seqmentlərinin ehtiyaclarını və tələblərini dərindən anlamaqla "PAŞA Bank" ASC bazarda dönüş yaradan aliyyə məhsullarını və həyat tərzinə qulluq edən xidmətlər ortfelini yaratmışdır. Bank güclü müştəri xidməti yanaşmasını tətbiq etməklə tamçeşidli klassik bank məhsullarını və xidmətlərini təklif edir. Bunlara aşağıdakılar daxildir:

• hər müştərinin şəxsi bankı;
• portfeli idarəetmə;
• kredit və ödəniş kartları;
• bank əmanət qutuları;
• yerli və xarici şirkətlərin qiymətli kağızları;
• əlvan metallar üzrə beynəlxalq bank hesabı;
• əmanət xidmətləri;
• mobil bankçılıq;
• internet bankçılıq;
• kredit xətləri (borclanma hədləri);
• pul təminatlı krditlər;
• ipoteka;
• xüsusi kreditlər;
• maliyyə məsləhət xidmətləri;
• qeyri-maliyyə xidmətləri, o cümlədən, daşınmaz əmlak, səhiyyə və təhsillə əlaqədar xidmətlər;
• qlobal kosyerj (müşayiət) xidmətləri.

Qloballaşma Azərbaycanın ölkədaxilində mövcud olan nisbətən mühafizəkar investisiya alətlərindən asılı olmayaraq beynəlxalq kapital bazarlarına sürətlə qovuşmasını tələb edir. Nəticə etibarilə, "PAŞA Bank" ASC "açıq quruluş" strategiyasını tətbiq etmişdir. Bu yanaşma çərçivəsində bank,müştərilərinə qlobal çıxış imkanlarını təklif etmək və müştərilərinin sərvəti idarəetmə üzrə qlobal ehtiyaclarını təmin etmək üçün daxili qabiliyyətləri və beynəlxalq tərəfdaş şəbəkəsini yaratmışdır. "PAŞA Bank" ASC ölkədaxili investisiya imkanları ilə yanaşı xarici aktivləri idarəetmə xidmətlərini də göstərir.

### Qeyri-maliyyə xidmətləri

Yüksək keyfiyyəti ilə seçilən müxtəlif xidmət təminatçıları ilə əməkdaşlıq sayəsində"PAŞA Bank" ASC-nin Private Banking bölməsi müştərilərin təhsil, sağlamlıq və daşinmaz əmlakla bağlı ehtiyaclarını qarşılamaq üçün bir dəst qeri-maliyyə xidmətlərini təklif edir.

Sərvəti idarəetmə sahəsində gördüyümüz işin mühüm bir hissəsi incəsənətə investisiya qoyuluşundan ibarətdir. Hazırda incəsənətlə

bağlı xidmətlər banklar üçün müstəsna bazar seqmenti kimi qalmaqdadır və adətən üçüncü tərəf vasitəsilə göstərilir. “PAŞA Bank” ASC-nin Private Banking bölməsi müştərilərininiincəsənətlə bağlı yüksək nüfuzu olan konsultasiya bürolarına çıxışla təmin edir.

“PAŞA Bank” ASC, marketinq strategiyasının bir hissəsi olaraq, eyni dəyərləri və prioritetləri bölüşən tərəfdaşlarla daha yaxından əməkdaşlıq etmək üçün çox sayda sponsorluq tədbirlərində iştirak edir. Bu məqsədlə “PAŞA Bank” ASC-nin Private Banking bölməsi 2017-ci ilin sentyabr ayında Azərbaycanda keçirilmiş polo üzrə dünya kuboku yarışları kimi böyük incəsənət, mədəniyyət və idman tədbirlərinə dəstək verir.

# BEYNƏLXALQ NÜFUZ

## Kredit reytinqləri

2017-ci ildə baş vermiş makroiqtisadi çətinliklərə baxmayaraq "PAŞA Bank" ASC beynəlxalq agentliklərin etiraf etdiyi kimi krediti dəmə qabiliyyətini qoruya bilmişdir.

2017-ci ilin avqust ayında Fitch Ratings agentliyi perspektivi stabil olmaqla "PAŞA Bank" ASC-nin xarici valyuta ilə bağlı Emitentin Defolt Reytinqini uzun müddət kəsimində "B+", qısa müddət kəsimində isə "B" səviyyəsində rəsmən təsdiqlədi.

2018-ci ilin yanvar ayında Standard & Poor's beynəlxalq reytinq agentliyi "PAŞA Bank" ASC-nin qarşı tərəfin uzunmüddətli kredit reytinqini "BB-" səviyyəsində təkrar təsdiqlədi. "PAŞA Bank" ASC həmçinin qarşı tərəfin qısamüddətli kredit reytinqini "B" səviyyəsində qorumağa nail oldu.

Bu, 100% yerli kapitalla təmin olunmuş özəl sektor bankları arasında ən yüksək göstəricilərdir.

## Mükafatlar, tədbirlər və sponsorluq

2017-ci ildə "PAŞA Bank" ASC Euromoney maliyyə jurnalından "Azərbaycanın ən yaxşı bankı" təltifinə layiq görülmüşdür. Əlavə olaraq, EMEA Finance jurnalı Europe Banking Awards 2015 tədbiri çərçivəsində "PAŞA Bank" ASC-i "Azərbaycanın ən yaxşı bankı", "Azərbaycanın ən yaxşı investisiya bankı" və "MŞA və MDB məkanında korporativ sosial məsuliyyət" nominasiyaları üzrə təltifə layiq görmüşdür. Üstəlik, Global Finance jurnalı "PAŞA Bank" ASC-i "Azərbaycanın ən yaxşı bankı" adlandırmışdır.

Ölkənin aparıcı maliyyə təsisatlarından biri olan "PAŞA Bank" ASC beynəlxalq maliyyə dairələrinin bəzi ən mötəbər üvzlərinin diqqətini çərməyə davam edir. Bank, nüfuz və tanınma səviyyəsini beynəlxalq aləmdə artıran böyükmiqyaslı yerli və beynəlxalq tədbirlərin sponsoru kimi çıxış edir. 2017-ci ildə bunlara aşağıdakılar daxil idi:

- Euromoney maliyyə jurnalının 2017-ci il tarixli MŞA forumda plenar sessiyada iştirak (17-18 yanvar 2017-ci il)
- Amerika-Azərbaycan Ticarət Palatasının (USACC) Vaşinqtonda (Kolumbiya Dairəsi) keçirilmiş illik konfransına sponsorluq (28 fevral – 2 mart 2017-ci il)
- SHE ("zirək, xoşbəxt, zərif") konfransı çərçivəsində sponsorluq və plenar sessiyada iştirak (28 mart 2017-ci il)
- Bakı Beynəlxalq Dəniz Ticarət Limanının 2017-ci il tarixli Ümumdünya Limanlar Konfransında iştirakına sponsorluq dəstəyi (7-10 may 2017-ci il)
- Moody'sbeynəlxalq reytinq agentliyinin kredit riskləri mövzusunda illik konfransında iştirak (25 may 2017-ci il)
- "İqtisadi islahatlar: əldə edilmiş nəticələr və tövsiyələr" konfransına sponsorluq dəstəyi (30 may 2017-ci il)
- Avropa İttifaqı – Azərbaycan biznes forumunda iştirak (8 iyun 2017-ci il)
- Polo üzrə Azərbaycanda keçirilmiş dünya kuboku yarışlarına sponsorluq dəstəyi (8-10 sentyabr 2017-ci il)
- İrina Xakamadanın Bakıda keçirdiyi "ustadlıq sinfi" (master class) tədbirinə sponsorluq dəstəyi (16 sentyabr 2017-ci il)
- Azərbaycan Mikromaliyyə Asosiasiyasının (AMFA) investorlar yarmarkası çərçivəsində sponsorluq və plenar sessiyada iştirak;
- 2017-ci ildə Torontoda (Kanada) keçirilmiş SIBOS sərgisində iştirak (16-19 oktyabr 2017-ci il)
- Qeyri-qanuni yolla əldə edilmiş pul vəsaitinin leqallaşdırılması ilə mübarizə mövzusunda konfrans (30 noyabr 2017-ci il).

Riskləri effektiv idarəetmə "PAŞA Bank" ASC-nin uğurlarının özülünü təşkil edir və bankın strateji prioritetlərindən biri kimi geniş qəbul edilir. "PAŞA Bank" ASC, riskləri idarəetmə işinin bütün heyət üzvləri arasında ortaq məsuliyyət olmasını özündə ehtiva edən riskləri idarəetmə səpkisində güclü, nizamlı mədəniyyətə malikdir. Fəaliyyət istiqamətləri, sahələri və coğrafiyası, həmçinin məhsullar üzrə şaxələnmə bu mədəniyyətin əsas xüsusiyytlərindən biridir.

"PAŞA Bank" ASC-də riskləri idarəetmə riskli fəaliyyətdən irəli gələn nəticələrlə bankın strategiyası və risklərə açıqlıq səviyyəsi arasında uyğunluğu, həmçinin səhmdarların mənfəətini artırmaq məqsədilə qəbul edilən risk və bunun müqabilində gəlir arasında müvafiq tarazlığı təmin etmək məqsədinə qulluq edir. Bankın müəssisə miqyasında riskləri idarəetmə çərçivəsi bu məqsədlərin nail olunmasına zəmin yaradır. Bu çərçivə, tənzimləmə standartları və sahə üzrə üstün praktika daxil olmaqla bankın fəaliyyət göstərdiyi yerli bazarda yaranan çağırışları və tələbləri təmin etmək məqsədilə daima qiymətləndirilir.

2017-ci maliyyə ili ərzində "PAŞA Bank" ASC-nin risk heyətinin fəaliyyəti bankın risk əsaslı yanaşmasını əhəmiyyətli dərəcədə möhkəmləşdirmiş və uğurla həyata keçirilmiş əsaslayihələr üzərində cəmləşmişdir.

Bu layihələrə aşağıdakılar daxil idi: portfeli idarəetmə üçün daha yaxşı qərarlar vermək məqsədilə təfərrüatlı sahəvi araşdırmanın aparılması; fəaliyyət sahələri üzrə və qarşı tərəflərlə bağlı daha düzgün limitlərin tətbiqi; "PAŞA Bank" ASC-nin  özü üçün ekonometrik modellərinin qurulması; kredit reytinqi modelinin yaradılması; kredit vəsaitlərinə mərhələli çıxış tələblərinin əvvəlki dövrlərdə nail olunmuş məqsədləri əks etdirmək məqsədilə yenidən nəzərdən keçirilməsi; risklərlə bağlı inzibatçılıq işinin (RAS) biznes səviyyələri üzrə nizamlanması; investisiyalarla bağlı riskləri idarəetmə modelinin tətbiqi.

### Sahəvi araşdırma layihəsi

Sahəvi araşdırma layihəsi çərçivəsində "PAŞA Bank" ASC kredit portfelini Fəaliyyət Sahələrinin Təsnifləşdirilməsinə dair yeni Qaydalar əsasında yenidən təsnifləşdirdi. Yeni bölgüyə uyğun olaraq, kredit portfeli tarixi məlumatlar əsasında sınağa məruz qaldı; beləliklə, hər fəaliyyət sahəsi üzrə tarixi məlumatlar əsasında müəyyən edilmiş, Moody's reytinq agentliyinin qlobal defolt ehtimalı cədvəlinə qarşı yoxlanmış defolt ehtimalı göstəricisi qərarlaşdı.

Eyni zamanda, risk heyətinin mütəxəssisləri fəaliyyət sahəsində yaranan risklərdən sığortalanmaq üçün müvafiq model qurdular. Sonda, yalnız fəaliyyət göstəricilərinin güclü/zəif olduğu sahələr üzrə çəki normalarının müəyyən edilməsi nəticəsində itkilərin heçləşməsi mexanizmi yaradıldı. Fəaliyyət sahəsi üzrə məhdudiyyətlərin (limitlərin) tətbiqi metodologiyası işlənmişdir; nəticə etibarilə, "PAŞA Bank"ASC fəaliyyət sahələri üzrə müvafiq limitləri müəyyən edə bilmişdir.

2017-ci ildə risk heyəti "PAŞA Bank" ASC-nin genişmiqyaslı stres testini müvəffəqiyyətlə həyata keçirmişdir. Nəticədə bankın uzun müddət ərzində dayanıqlı likvidlik/borc ödəmə və kapital mövqeyi təsdiqləmiş müfəssəl Stres Test hesabatıhazırlamışdır.

### Makro-tədqiqat layihəsi

Makro-tədqiqat layihəsi çərçivəsində "PAŞA Bank" ASC gəlir əyrisinin proqnozlaşdırılması üzrə ilkin modeli yaradıb tətbiq etmişdir. Bu yanaşma kredit məhsulları üzrə qiymətin əmələ gəlməsi, həmçinin gəlir əyrisinin proqnozlaşdırılması üzrə daha mürəkkəb model üçün istinad nöqtəsi kimi çıxış edirdi. Nəticədə

model qurulmuşdur və risk mütəxəssisləri müvazi hərəkət edən gəlir əyrisini uğurla proqnozlaşdıra bilmişdirlər.

Əlavə olaraq, "PAŞA Bank" ASC mürəkkəb və dinamik makromodelin inteqrasiyasına müvəffəq olmuşdur. Modelin hasil etdiyi nəticələr idiosinkratik (səciyyəvi fərqlənmə) modellərinin yaradılmasında, büdcənin tərtibatında və icrasında və strategiyanın formalaşmasında tətbiq edilib. Hazırkı stres-test yanaşması makromodellərə əsaslanır.

Risk heyəti 2017-ci ilin əsas nailiyyəti olaraq, portfeli daha yaxşı təhlil etmək üçün makrotədqiqat hesabatlarını hazırlayıb. Bu hesabatlar riskli qərarları daha yaxşı təhlil edərək minimallaşdırmaq üçün bank rəhbərliyinə makro təmayüllərin/vəziyyətin proqnozlaşdırılmasında və qiymətləndirilməsində təsir edir.

### İdiosinkratik modellər

"PAŞA Bank" ASC-nin risklərin hesablanması vasitələri modellərdən istifadə və stres testlərdən ibarətdir. Bank modellərdən əqdləşmələrin dəyərinin, risklərə açıqlıq səviyyəsinin, kredit risklərinin reytinqinin və parametrlərinin, iqtisadi və tənzimləmə kapitalının həcminin müəyyən edilməsi kimi bir sıra məqsədlər baxımından istifadə edir. Kəmiyyəti hesablayan risk metodologiyaları və modellərindən istifadə güclü idarəçilik strukturu ilə tarazlanır, sağlam və təcrübəyə söykənən mülahizələri özündə ehtiva edir. Modellərin yaradılması, müstəqil yoxlamadan keçməsi və bəyənilməsi kredit komitələrinin nəzarəti daxil olmaqla təlimat/göstəriş yönümlü siyasətin zərurət yarandıqda tətbiqindən asılıdır. Risk heyətinin hazırladığı qiymətin əmələgəlmə üsulu dəyişən makroiqtisadi kəmiyyətlərdə (məsələn, ÜDM-nin artımı, neft qiymətləri, inflyasiya dərəcəsi vəs.) və şirkəti səciyyələndirən amillərdə (defolt ehtimalı, defolt nəticəsində itki, maliyyə mövqeyi və s.) baş verən dəyişmələri izah edir.

### Kredit vəsaitlərinə mərhələli çıxış

2017-ci ildə "PAŞA Bank" ASC-nin başlıca vəzifələrindən birikredit vəsaitlərinə mərhələli çıxış tələblərinin əvvəlki dövrlərdə nail olunmuş məqsədləri əks etdirmək üçün yenidən baxılmasından ibarət idi. Makro/mikro modelləşmənin və çərçivənin təfərrüatlı işlənməsindən sonra bank risk heyəti tərəfindən tərtib və tövsiyə edilmiş yeni modelləşmə yanaşması əsasında zəif cəhətlərin diaqnostikasını aparmaq məqsədilə kredit vəsaitlərinə mərhələli çıxış tələblərinə yenidən baxmışdır. Riskləri idarəetmə bölməsi banka müvafiq riskləri nəzərə almaqla uyğun qərar(lar) vermək imkanını yaradan qərarvermə (kredit risklərinin hesablanması) vasitələrini işləyib. Nəticədə kredit vəsaitlərinə mərhələli çıxış müddəti daralmışdır və bu, bankın mövcud müştərilərinin və kənar müştərilərin məmnunluğunu artırmışdır.

### İnvestisiya risklərini idarəetmə

Risk heyəti il ərzində həmçinin investisiya risklərinin hesablanması sistemini qurmuşdur. Bu sistem, onun çərçivəsi və səciyyəvi xüsusiyyətlər toplusu mümkün risklərə qarşı qiymətləndirməni aparmaq məqsədilə hər biri əsas tərkib hissələrinədək bölünmüş mürəkkəb maliyyə alətləri üzrə riskləri işləmək, müəyyən etmək və qiymətləndirmək iqtidarında olacaq. Bazar risklərini idarəetmə heyəti valyuta və

faiz dərəcəsi risklərini daha yaxşı tənzimləmək üçün bazar risklərinin hesablanması sistemini yaratmışdır.

### Əməliyyat risklərini idarəetmə

“PAŞA Bank” ASC fəaliyyəti nəticəsində yaranan əməliyyat risklərini ayırd etmək, qiymətləndirmək, nəzarət etmək, yumşaltmaq və hesabat şəklində bildirmək məqsədilə əməliyyat risklərini idarəetmə çərçivəsi üzrə vahid yanaşma tətbiq edilir. 2017-ci ildə bankın əməliyyat riklərini idarəetmə heyəti əməliyyat risklərini ayırd etmək və qiymətləndirmək məqsədilə əhəmiyyətli (irihəcmli) əqdləşmələri və prosesləri təftiş etmişdir. Bu heyətin il ərzində əldə etdiyi əsas nailiyyətlərdən biri risk kataloqunun hazırlanması və müxtəlif vasitələr hesabına risk mədəniyyətinin artırılmasından ibarət idi. Əlavə olaraq, əməliyyat risklərini idarəetmə heyəti riskləri və xoşagəlməz halları idarəetmə sistemini təkmilləşdirmişdir. Nəticə etibarilə, “PAŞA Bank” ASC əməliyyat risklərini vaxtında və yetərli dərəcədə aşılamaq iqtidarında idi. Müəssisədə riskləri idarəetmə çərçivəsi həmçinin il ərzində yaradılmış və biznes proseslərə daxil edilmişdir.



# İNFORMASİYA TEXNOLOGİYALARI

"PAŞA Bank" ASC fəaliyyətinin istənilən trəfi baxımından göstərdiyi xidmətlərin sürətini və keyfiyyətini yüksəldəcək üstün texnologiyalarla işləyir ki, müştəri və işçi məmnunluğu maksimum səviyyədə təmin edilsin.

"PAŞA Bank" ASC-nin İnformasiya Texnologiyaları departamenti bankdakı sistemlər, rabitə xətləri, təhlükəsizlik və proqram təminatı infrastrukturuna görə cavabdehdir. Departmentə həmçinin "PAŞA Bank" ASC sisteminin infrastrukturuna əlavə edilmiş vahid tətbiqi bank proqramının həftənin yeddi günü, günün 24 saaatı ərzində qüsursuz, sürətli, yoxlanılan, genişlənən və daima nəzarət edilən fəaliyyətini təmin etmək tapşırığı verilib.

Departamentin bank əməliyyatları baxımından texnologiyalardan optimal istifadə sahəsində əsas fəaliyyətiaşağıdakılardanibarətdir:

• xidmətin işləməməsi hallarını minimuma endirmək məqsədilə İT infrastrukturunun və proqram təminat(lar)ının müntəzəm yoxlanması;

• son zamanlar işə salınmış proqram təminatı, yaxud texnologiyalarla bağlı təlimin keçirilməsi və göstərişlərin verilməsi;

• əlçatan və qeydkeş İT dəstək heyəti;

• səmərəliliyi artırmaq məqsədilə bankın əməliyyatlarının dövri təhlili və vəzifələrin avtomatlaşdırılması.

2017-ci il ərzində "PAŞA Bank" ASC biznes proseslərinin beynəlxalq standartlara cavab verməsinə şərait yaratmaq məqsədilə müxtəlif səylər göstərməklə texnologiyalarını təkmilləşdirməyə və yeniləməyə davam etmişdir. Həmin il departament aşağıdakıları etmişdir:

• hesab və plastik kartlara aid olan xidmətləri avtomatlaşdırmaqla Əlaqə Mərkəzinin iş qabiliyyətinin artırılması;

• bütün cari xidmətlər üzrə üstün, real zaman kəsimində işləyən, beləliklə, hadisə baş verməzdən əvvəl onunla bağlı xəbərdarlıq edən monitorinq sistemlərinin quraşdırılması;

• bütün xidmətlərin həm daxili, həm də xarici müştərilər üçün daha effektiv işləməsi məqsədilə üasir texnologiyaları istismar etməklə İT infrastrukturu üzrə üstün praktikaların icrası;

• gözlənilməz hal baş verdikdə bank xidmətlərinin heç birinin dayanmamasını təmin etmək məqsədilə Fəaliyyətin Arasıkəsilməzliyi Planının bütövlükdə tətbiqi;

• müştərilər üçün daha çox funksional və əyani imkan təklif edən rəqabətdə üstün və mütərəqqi internet bankçılığı vasitəsi;

• müştərilərə mobil telefonlarından ayrılmayaraq bank məhsulları və xidmətlərinə olan tələbatlarının qarşılanmasında daha çox yardım etmək məqsədilə iOS və Android əməliyyat sistemlərini işlədən cihazlar üçün tətbiqi proqramın təkmilləşdirilməsi;

• daxildən və kənardan müdaxilələrin sınaqdan keçirilməsi və zəifliklərin qiymətləndirilməsi.

"PAŞA Bank" ASC-nin kibertəhlükəsizlik məsələlərinə yanaşması bankın məlumat səpkili aktivlərini xaker hücumları, məlumat sızması və maliyyə itkisi daxil olmaqlamüxtəlif növ təhdidlərdən qorumağı nəzərdə tutur. Tətbiq edilmiş məlumat təhlükəsizliyi vasitəsləri banka qaydaların pozulması, zəifliklərin üzə çıxması və aidiyyatı olan digər xoşagəlməz halları aşkar etməklə müvafiq təshihedicivə operativ nəzarət və cavab tədbirlərinin yerinə yetirilməsinə imkan yaradır.

Təsis edildiyi tarixdən "PAŞA Bank" ASC Azərbaycan bank sahəsində texnoloji dönüşlərdən innovativ məhsul və xidmətlərədək müxtəlif "birinciliklərə" imza atıb.2017-ci ildə "PAŞA Bank" ASC xidmətlərin tam arasıkəsilməzliyinə şərait yaratmaq üçün Real Zamanda Məlumatlar Mərkəzini müvəffəqiyyətlə sınaqdan keçirmiş və işə salmış ilk Azərbaycan banklarından biridir. Əlavə olaraq, "PAŞA Bank" ASC rəqəmsal kanalları

mühafizə və monitorinq vasitəsini tətbiq etmiş ilk Azərbaycanbanklarından biridir. “PAŞA Bank” ASC həmçinin müfəssəl Rəqəmsal Bankçılıq strategiyasının icrasına başlamışdır.

2018-ci ildə rəqəmsal, xüsusilə də mobil bankçılıq maliyyə xidmətləri bazarının tərkib hissəsinə çevrildikcə “PAŞA Bank” ASC texnologiyalar və innovasiyalar sahəsində müvafiq səylərini artırmağı planlaşdırır.

# ÖLKƏDƏNKƏNAR FƏALİYYƏT

Şəffaf biznes praktikası və etik yanaşma ilə müşayiət korporativ, kommersiya və investisiya bank xidmətlərini göstərməklə "PAŞA Bank" ASC regionun artan ticarət və investisiya axınlarının astanasında qərarlaşıb. Azərbaycan, Türkiyə və Gürcüstan arasında genişlənən iqtisadi fəaliyyəti nəzərə almaqla "PAŞA Bank" ASC müştərilərinin cari və mümkün bank ehtiyaclarını qarşılamaq üçün bu bazarlara çıxışın onların mənafeyinə ən yaxşı qaydada cavab verəcək qərarına gəlmişdir.

## PASHA Bank Georgia

"PAŞA Bank" ASC 2013-cü ilin fevral ayında ilk törəmə bankını Tiflisdə (Gürcüstan) açmışdır. Beləliklə, iki ölkə arasında artan ticarət həcmi, həmçinin bu ölkələrin strateji regional layihələrdə birgə iştirakı daxil olmaqla bir sıra səbəbdən bankın xaricdə fəaliyyətə başlaması baxımından ilk ölkə kimi Gürcüstan seçilmişdir. Hazırda "PAŞA Bank" ASC-nin müştəriləri ilə yanaşı bir çox Azərbaycan şirkəti Gürcüstanda fəaliyyət göstərir. Bankın Gürcüstandakı törəmə qurumu mövcud müştərilərə daha yaxşı xidmət göstərmək, həmçinin müştəri bazasını genişləndirmək üçün daha rahat şərait təmin edir. Bu təşəbbüsdən irəli gələn digər başlıca məqsəd Azərbaycan və Gürcüstan iqtisadiyyatının inkişafına töhfə verməkdir.

2017-ci ilin sonunda PASHA Bank Georgia aktivlərinin cəmini 272 milyon Gürcüstan larisi (GEL) dəyərində bəyan etmişdir. Regional bank olaraq PASHA Bank Georgia müştərilərə onların tələblərinə uyğunlaşdırılmış, üstün qlobal təcrübəni özündə ehtiva edən məhsul və xidmətləri təklif etməklə müxtəlif bazarlarda əldə etdiyi təcrübədən yararlanır. Tərəfdaşlarının müvafiq maraqları və mənafeyi PASHA Bank Georgia-nın qarşılıqlı dayanıqlı artıma töhfə verməklə "Zirvələrə doğru. Birlikdə"amalına nail olmaq məqsədini daşıyan korporativ strategiyasının təməlində yer tapıb.

PASHA Bank Georgia, "PAŞA Bank" ASC-nin Azərbaycanın kapital bazarı mühitində illər ərzində əldə etdiyi təcrübəni tətbiq etməkləborc kapitalı üzrə bazar əməliyyatları kimi müəyyən məhsul sahələrinsə rəqabətdə aydın üstünlükləri əmələ gətirib. PASHA Bank Georgia ticarəti maliyyləşdirmə fəaliyyət istiqamətinin inkişafına xüsusi diqqət yetirir.

Regionun üç əsas iqtisadi sistemində təmsil olunmaqla "PAŞA Bank" ASC müştəri bazasına bənzəri olmayan dəyərli təkliflərin verilməsi baxımından güclü mövqedə qərarlaşır.

| Maliyyə nailiyyətləri (min GEL) | |
|---|---|
| Xalis mənfəət | 3,523 |
| Ümumi kreditlər | 114,777 |
| Cəmi aktivlər | 272,804 |
| **Əsas əmsallar** | |
| Xərc-gəlir nisbəti | 69% |
| Aktivlərin gəlirliliyi | 3% |
| Qeyri-işlək kreditlər | 1.6% |

## PASHA Yatırım Bankası A.Ş.

Dünyanın ən nəhəng 20 iqtisadiyyatından biri olan Türkiyə bazarına çıxış imkanlarının hamısını diqqətlə nəzərdən keçirdikdən sonra "PAŞA Bank" ASC-nin Müşahidə Şurası TAIB bankında nəzarətedici sahib pay almaq və Aksoy Holdinq şirkəti ilə tərəfdaş olmaq qərarına gəlmişdir. Aksoy Holdinq şirkəti və bank arasında uzunmüddətli, etibara əsaslanan işlək münasibətlərin olmasından bu əqdləşmə mövcud tərəfdaşlığın təbii qaydada genişlənməsinə dəlalət edirdi. Beləliklə, "PAŞA Bank" ASC və Aksoy Holdinq etibarlı tərəfdaşlıqdan yararlanaq, həmçinin hazırda mövcud olan fəaliyyət göstərmək səriştəsi və bazar kapitalının əsasında daha da böyümək baxımından birdəfəlik və bənzərsiz imkanı qaçırmadılar.

2014-cü ilin dekabr ayında Türkiyə Bankların Tənzimlənməsi və Banklara Nəzarət Agentliyi (BRSA) TAIB bankında nəzarətedici sahib payı Aksoy Holdinq şirkətindən almış "PAŞA Bank" ASC-ə Türkiyə bazarına çıxmaq icazəsini verdi. Bu satınalma ilə "PAŞA Bank" ASC Türkiyədə fəaliyyətini cəmləşdirmiş korporativ müştəriləri hədəfə almağı düşünür.

Türkiyə bazarında Azərbaycan, Gürcüstan və bölgənin digər ölkələrinə sərmayə qoyuluşu imkanlarının axtarışında olan kiçik və orta müəssisələr üçün böyük potensial varr. Bundan başqa, bank Azərbaycandan olan sərmayə axınını Türkiyəyə yönəldərək yerli layihələrin yaratdığı hədsiz potensialı daha dolğun qaydada gerçəkləşdirməyə çalışır.

"PAŞA Bank" ASC Türkiyə iqtisadiyyatına yeni birbaşa xarici investisiyanın xüsusilə Azərbaycandan cəlb edilməsinin hər iki ölkənin iqtisadiyyatına bəhrə verəcəyinə inanır. Bu həmçinin bankın böyüməsi, fəaliyyətinin cari və mümkün müştərilərinin ehtiyaclarını qarşılamaq üçün genişləndirilməsi baxımından əla imkan yaradacaq.

| Maliyyə nailiyyətləri (2017-ci ilin 31 dekabr tarixinə əsasən, min USD) | |
|---|---|
| Xalis mənfəət | 4,845 |
| Xalis müfəssəl gəlir | 4,829 |
| Ümumi kreditlər | 189,042 |
| Cəmi aktivlər | 237,278 |
| **Əsas əmsallar** | |
| Xərc-gəlir nisbəti | 48.0% |
| Aktivlərin gəlirliliyi | 7.1% |
| Qeyri-işlək kreditlər | 0% |

* 2017-ci il 31 dekar tarixində ABŞ dollarının Türkiə lirəsinə (USD/TL) qarşı məzənnəsinin 3.7719nisbətinə əsasən
Mənbə: BMHS üzrə audit aparılmış maliyyə hesabatları





# KORPORATİV SOSİAL MƏSULİYYƏT

# KORPORATİV SOSİAL MƏSULİYYƏT

Məsuliyyətli korporativ şəxs modelinə sadiq qalan "PAŞA Bank" ASC sosial məsuliyyəti dəyərləndirir və fəaliyyət göstərdiyi cəmiyyətlərin bir hissəsi olmağa diqqət yetirir. Təsis edildiyi tarixdən "PAŞA Bank" ASC cəmiyyətdə vəziyyəti önləyən, əməkdaşlıq və birgə iş naminə vəzifələr icra edib, Azərbaycan xalqının rifahını təmin etmək və ölkəni fəaliyyətlə məşğul olmaq və inkişaf etdirmək baxımından daha yaxşı məkana çevirmək məqsədinə qulluq edib.

Bugünkü dəyişkən və sürətlə qloballaşan dünyada hər-hansı müəssisə və ona aid olan maraq dairələri dayanıqlı əsasda uzunmüddətli artımı təmin etmək məqsədilə eyni yolla addımlamalıdırlar. Bunun üçün "PAŞA Bank" ASC 2015-ci ildən ənənəvi korporativ sosial məsuliyyət modelindən maraq dairələrinin iştirakına dair daha müasir yanaşmanın tətbiqinə keçib.

Bununla bankın Azərbaycan xalqının güzəranının yaxşılaşdırılması dəstixəttinindən kənara çıxmaması təmin ediləcək.

"PAŞA Bank" ASC-nin yeni korporativ sosial məsuliyyət yanaşmasının hər bir cəhəti aşağıdakı üç istiqamətdən qaynaqlanır:

- Sahibkarlığı gücləndiririk
- İnsan kapitalını gücləndiririk
- Potensialı və səmərəli idarəçiliyi gücləndiririk.

### Sahibkarlığı gücləndiririk

Bu istiqamət, hazırki müştərilərə effektiv xidmət göstərməklə və müştəri bazasını genişləndirməklə KOS sektorunu dəstəkləmək məqsədini daşıyır. "PAŞA Bank" ASC iştirak haqqını ödəyə bilməyən və ya işçi heyət üzvlərini potensialın gücləndirilməsi və bacarıqların artırılması mövzusunda müxtəlif təlimlərə göndərə bilməyən KOS sektorundan olan müştəriləri üçün seminarlar təşkil edir. Bankın "Məsuliyyətli biznes: inkişaf üçün yerli potensialın yaradılması" seminarları yerli peşəkar təlimçilər tərəfindən Biznesə Dəstək Mərkəzlərində və ya "Barama" İnnovasiya və Sahibkarlıq Mərkəzində aparılır. Bu tədbirlər "PAŞA Bank" brendi çərçivəsində müştərilərlə "Zirvələrə doğru. Birlikdə" vədinə həmçinin uyğun gəlir.

### BARAMA

*Azərbaycan iqtisadiyyatında "startap" şirkətlərinə dəstək*

BARAMA İnnovasiya və Sahibkarlıq Mərkəzi 2009-cu ildə Azercell Telekom MMC tərəfindən yaradılmışdır. PAŞA Bank 2015-ci ildən bu mərkəzi Azercellə birlikdə dəstəkləyir. BARAMA İnnovasiya və Sahibkarlıq Mərkəzinin əsas innovasiya sahələrinə innovasiyalar laboratoriyası, biznes inkubatoru və sahibkarlığa dəstək və bizness həlləri və tərəfdaşlıq daxildir.

BARAMA İnnovasiya və Sahibkarlıq Mərkəzistartap" layihələrinə geniş dəstək verir və biznes inkubatoru kimi fəaliyyət göstərir. İndiyədək mərkəzdə 300-dən çox tədbir keçirib, 3,500-dən çox müraciət qəbul edilib və 45 "startap" layihəsinə başlanmasına yardım edib.

BARAMA İnnovasiya və Sahibkarlıq Mərkəzidörd texnologiya şirkətinin təsis edilməsində aparıcı rol oynamışdır ki, bunlardan biri hüquqi şəxs kimi ABŞ-nin Virciniya ştatında qeydiyyatdan keçib. Əlavə olaraq, mərkəzin dəstəklədiyi 6 "startap" şirkəti nümayəndələri növbəti inkişaf mərhələsunə nail olmaq məqsədilə Silikon Vadisində səfərdə olmuşdurlar.

BARAMA İnnovasiya və Sahibkarlıq Mərkəzi "startap" layihələri üçün geniş

texnoloji imkanlar, həmçinin hüquq, biznesin inkişafı və maliyyə vəsaitlərinə çıxış məsələləri üzrə məsləhət verir.

Mərkəzin olduqca çox sayda tədbirlərinə Seedstars Baku – Global Start-up Competition (ilkin kapitaldan bəhrələnmiş "start ap" şirkətləri arasında qlobal müsabiqə), Hackathon ("proqramlaşdırma marafonu") silsilə tədbirləri, Junior Coding Kids – IT Summer School ("uşaqlar arasında qeyri-mürəkkəb proqram kodlarının yazılması üzrə İT yay məktəbi), həmçinin praktiki məşğələlər,seminarlar, forumlar və təlimlər daxildir.

2017-ci ilin iyun ayında saya ikinci BARAMA mərkəzi Gəncədə açılmışdır.

BARAMA İnnovasiya və Sahibkarlıq Mərkəzi, "PAŞA Bank" ASC-nin fəal dəstəklədiyi məqsədlərdən olan Azərbaycan gənclərinin texnologiyaların inkişafına meyl etmələrini stimullaşdırmaqla və ölkə iqtisadiyyatınışaxələndirməklə "startap" şirkətlərinin rəvac tapmasında mühüm mövqeyə malikdir.

### Biznes Klass

Bu layihənin əsas məqsədi yüksək səriştəli sahə peşəkarlarının apardığı maarifləndirici seminarlar vasitəsilə qeyri-neft sektorunda fəaliyyət göstərən kiçik və orta müəssisələrin işgüzarlıq qabiliyyətinin və bacarıqlarının artırılmasıdır.

## İnsan kapitalını gücləndiririk

Bu istiqamətdə məqsəd ölkənin ən yaxşı tələbələrini banka iş praktikasına və ya işçi qismində cəlb etmək üçün seçmək və təlimləndirməkdən ibarətdir.

### Layihələr portfeli

*"PAŞA Bank" ASC-nin Tələbə Təqaüdü proqramı*

2012-ci ildən "PAŞA Bank" ASC Tələbə Gənclər Təşkilatları İttifaqı ilə tərəfdaşlıq çərçivəsində tələbə təqaüdü proqramını həyata keçirir. Proqram yerli universitetlərdə istedadlı və cəmiyyət qarşısında məsuliyyətli tələbələri, həmçinin özəl və dövlət sektorları üçün gələcəyin liderlərini yetişdirmək məqsədilə tərtib edilib. Bu təşəbbüslə təhsildə fərqlənən, liderlik potensialı və sosial məsuliyyətnümayiş etdirən tələblər dəstəklənirlər.

Riyaziyyat, iqtisadiyyat, maliyyə, audit və əlaqədar ixtisas üzrə təhsil alantələbələr təhsillərinin maliyyələşdirilməsinə yardım olaraq "PAŞA Bank" ASC-dən təqaüdalırlar. Proqram üzrə seçim zamanı üstünlük tələbə müsabiqələrində fəal iştirak edən, sosial fəaliyyətə və tədbirlərə qatılan və həm fərd, həm də peşəkar kimi daima inkişaf etməyə çalışan tələbələrə verilir. Tələbə Təqaüdü proqramı gələcək nəsillərdə sosial məsuliyyət hissini formalaşdırarkən eyni zamanda ən yaxşı tələbələri daha əzmlə işləməyə həvəsləndirməklə dəstəkləyir. Bu təşəbbüsün məqsədi, əqli potensialları ilə ölkənin gələcəkinkişafına və nailiyyətlərinə qulluq edəcək istedadlı fərdləri tanıtmaq və mükafatlandırmaqla gənclər arasında sosial məsələlərlə bağlı məlumatlanma səviyyəsini artırmaqdır.

*Azərbaycanda maliyyə savadlığının artırılması*

Azərbaycan Respublikasının Mərkəzi Bankı ilə əməkdaşlıq edərək "PAŞA Bank" ASC gənc nəslin nümayəndələri arasında maliyyə savadlığının artımına dəstək verən təlimlərin təşkilinə davam edir.

**Potensialı və səmərəli idarəçiliyi gücləndiririk**

Bu istiqamət üzrə məqsəd müxtəlif məlumatlandırma təşəbbüsləri və tədbirləri vasitəsilə “PAŞA Bank” ASC-nin nüfuzunu dəstəkləməkdir.

### Biznes-jurnalistika

Biznes-jurnalistika layihəsinin məqsədi seçilmiş 11 jurnalistin ehtiyaclarını qarşılamaq üçün hazırlanmış xüsusi təlim proqramı vasitəsilə milli KİV-lərin peşəkar səriştə və bacarıqlarını gücləndirməklə Azərbaycanda biznes xəbərlərinin yazılması standartlarını artırmaqdan ibarətdir. Layihə, Avropanın nəhəng KİV təşkilatlarından biri, Thomson Foundation ilə əməkdaşlıq çərçivəsində həyata keçirilir. Bu təşəbbüs jurnalistlər üçün BBC, Al Jazeeravə Associated Pressolmaqla digər aparıcı KİV qurumlarından təcrübə toplamaq imkanının gerçəkləşməsinə qulluq edir.

Proqramın sonuncu mərhələsiaparıcı jurnalistlərlə görüşlərin keçirilməsinə əlavə olaraq, tanınmış qəzetlər, jurnallar və digər KİV qurumlarına baş çəkmək və burada iş təcrübəsi keçmək məsələlərini özündə ehtiva edən Birləşmiş Krallığa birhəftəlik tədris səfərindən ibarətdir.

### İşgüzar fəaliyyətdən əminlik indeksi

2017-ci ildə “PAŞA Bank” ASC müştəriləri arasında rüblük qaydada keçirilməsi nəzərdə tutulan işgüzar fəaliyyətdən əminlik mövzusunda sorğulara başlamışdır. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) metodologiyası üzrə hesablanan işgüzar fəaliyyətdən əminlik indeksi (BCI) müəssisənin/biznes subyektinin istehsalat həcminin, sifarişlərinin və anbarda mal qalığının, həmçinin cari vəziyyətinin və yaxın gələcəkdə gözlədiyi məsələlərin qiymətləndirilməsinə əsaslanır.

**Nabat-xanım Aşurbəyova**

*Təzə Pir məscidinin banisi olan Aşurbəyovların nəcib ailəsindən məşhur qadın xeyriyyəçi. O, Şollar su kəmərinin tikintisini, Sabunçu rayonunda yoxsul və ata-anasız uşaqların müalicə aldıqları xəstəxananı, Bakı şəhərinin yoxsul sakinləri üçün hamamı və s. müəssisələri maliyyələşdirmişdir.*





# DAYANIQLI İQTİSADİ İNKİŞAFA DƏSTƏK

# DAYANIQLI İQTİSADİ İNKİŞAFA DƏSTƏK

"PAŞA Bank" ASC Azərbaycanın rifahına və mədəni inkişafına töhfə verməyə, həmçinin tərəfdaşları çün əlavə dəyər yaratmağa sadiqdir. Bu məqsədlə bank 2016-cı ildə Korporativ Tərəfdaşların İştirakçılığı (KTİ) təşəbbüsünü ərsəyə gətirmişdir.Bu təşəbbüs çərçivəsində "PAŞA Bank" ASC kiçik- və ortahəcmli müəssisələri idarə edən sahibkarlar arasında biznesi idarəetmə və idarəçilik bacarıqlarını, həmçinin maliyyə savadlığını artırmaq məqsədilə müxtəlif təlimlər keçirir.

Korporativ sosial məsuliyyət yanaşmasının yaranması

• **1.0**: Korporativ sosial məsuliyyət (KSM) sırf marketinq və ictimaiyyətlə əlaqələr vasitəsi kimi tətbiq edilir. Bu, şirkətin nüfuzunu artırmaq məqsədilə həyata keçirilən xeyriyyəçilik təşəbbüsləridir. KSM "xərcləri doğruldan" vasitə kimi tanınır. Cəmiyyət qarşısında məsuliyyət fikrini özündə səthi ifadə etdiyindən KSM anlayışı uzun müddət ərzində dayanıqlı yanaşma hesab edilmirdi.

• **2.0**:Bununla belə, KSM yanlız xeyriyyəçilik tədbirlərinə çəkilən xərcləri ödəməklə məhdudlaşmır. Şirkətlər xeyriyyə cəmiyyətləri ilə strarteji tərəfdaşlığı formalaşdırmağa başlayıblar. Lakin risklərin idarə edilməsi baxımından KSM mühafizəkar tədbir kimi qəbul edilməkdədir.

• **3.0**:Digər tərəfdən, inteqrasiya və ortaq dəyərlər anlayışı daha çox inkişaf etməkdədir. KSM yalnız riskləri aşağı salmaq vasitəsi kimi artıq tətbiq edilmir. Əksinə, KSM şirkət və cəmiyyət üçün dəyər yaradan və bu dəyəri qoruyan strategiyaya çevrilib.

*"PAŞA Bank" ASC-də KSM 3.1: korporativ tərəfdaşların iştirakçılığı*

• Bankın sosial mandatı onun fəaliyyətinin döyünən "damarıdır".

• Bugünkü reallıq baxımından, dayanıqlı inkişafa yalnız bütün tərəfdaşların birgə səyləri hesabına nail olmaq mümkündür.

• Tərəfdaşların fəaliyyət fəlsəfəsi və işə yanaşmaları bir-birinə həmahəng olmalıdır.

• PAŞA Bankın korporativ tərəfdaşların iştirakçılığı təşəbbüsü bütün tərəfdaşları inkişafa doğru aparacaq.

KSM fəaliyyəti üzrə investisiyaların gəlirliyi

***İcma inkişafı ümün investisiyaların müqabilində əhamiyyətli nəticələr "PAŞA Bank" ASC-i KSM sahəsində daha geniş sosial məsuliyyət layihələrini həyata keçirməyə həvəsləndirmişdir.***

• daha bilikli müştərilər

• daha dayanıqlı biznes subyektləri

• daha məlumatlı jurnalistlər

• daha savadlı gənclər

• daha uğurlu sahibkarlar

• daha da inkişaf etmiş iqtisadiyyat

• daha zəngin ölkə

• daha aşağı risklər

• daha uğurlu bank

KTİ çətçivəsində həyata keçirilmiş tədbirlərə və fəaliyyətə aşağıdakılar aiddir:

• KOS-lara dəstək mexanizmlərinə dair tədbir (13 oktyabr 2017-ci il)

• Maliyyə əməliyyatlarında şəffaflıq üzrə seminar (30 noyabr 2017-ci il)

• "Yerli istehsalçıların beynəlxalq bazarlara çıxışı – imkanlar və çətinliklər" mövzusunda

dəyirmi masa (19 oktyabr 2017-ci il)

- Ölkənin müxtəlif regionlarında (19 aprel 2017-ci ildə Şəkidə və 24 may 2017-ci ildə Qubada) aqrobiznesin inkişafına yönəlmiş dəyirmi masalar

### KOS-lara dəstək mexanizmlərinin müzakirəsi

"PAŞA Bank" ASC 2017-ci ilin 21 iyun tarixində "Ekvita" MMC hüquq şirkəri ilə birlikdə kiçik- və ortahəcmli müəssisələrə dəstək mexanizmlərini müzakirə etmək məqsədilə tərbir keçirmişdir. Tədbirdə iştirak etmiş 150 sahibkar müzakirələrin sahibkarlar, maliyyə təsisatları və tənzimləyici qurumlar arasında mövcud məsələlərin həlli baxımından effektiv vasitə olduğunu qeyd etmişdir.

### Şəffaflığın artırılması təlim proqramı

Azərbaycan Respublikası Maliyyə Bazarlarına Nəzarət Palatası, Azərbaycan Respublikası Auditorlar Palatası, PAŞA Bank və Headstart International təlim mərkəzinin 2017-ci il 30 noyabr tarixində Park Inn mehmanxanasında birgə təşkil etdikləri "Maliyyə əməliyyatlarında şəffaflığın təmin edilməsi" təlim proqramının təqdimatı keçirilmişdir.

Korrupsiya ilə mübarizəni və ölkə iqtisadiyyatında şəffaflığın artırılmasın gücləndirmək məqsədilə aidiyyatı olan dövlət qurumları, kommersiya təşkilatları, ictimai birliklər, korporativ qruplar və digər təsisatların ekspertləri üçün müvafiq sessiyalar keçirilmişdir.

### "Yerli istehsalçıların beynəlxalq bazarlara çıxışı – imkanlar və çətinliklər"

2017-ci ilin oktyabr ayında PAŞA Bank Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AzPromo) ilə birlikdə "Yerli istehsalçıların beynəlxalq bazarlara çıxışı – imkanlar və çətinliklər" mövzusunda dəyirmi masanın keçirilməsinə təşəbbüs göstərmişdirlər.

Tədbir, xarici bazarlara çıxış strategiyası, məhsulların satış bazarlarına uyğunlaşdırılması, beynəlxalq marketinq, beynəlxalq sertifikatlaşdırma, beynəlxalq ticarət qanunları və qaydaları daxil olmaqla əsas mövzular ətrafında aparılmışdır.

### Azərbaycanın bölgələrində aqrobiznesin inkişafına yönəlmiş seminarlar

#### "PAŞA Bank" ASC-nin ekspertləri Şəkidə sahibkarlarla görüş keçirdilər

Şəki-Zaqatala iqtisadi rayonunda kənd təsərrüfatının inkişafına töhfə vermək üçün Şəki şəhərində dəyirmi masa keçirilmişdir. "PAŞA Bank" ASC ətraf regionlarda fəaliyyət göstərən mövcud və potensial korporativ müştərilərini bir araya gətirərək onları müvafiq bank məhsulları və xidmətləri ilə bağlı məlumatlandırmışdır. Biznes subyektləri və fərdi sahibkarlarla bank məhsullarına olan tələbat, fəaliyyət göstərdikləri sahələr və üzləşdikləri səciyyəvi çətinliklərə dair müzakirələr aparılmışdır. Kommersiya bankçılığı bölməsi bu dəyirmi masada əldə edilmiş məlumat əsasında müvafiq cavab tədbirlərini görmüş, məhsul və xidmətlərini yaxşılaşdırmışdır.

#### Qubada dəyirmi masa

"PAŞA Bank" ASC-nin kommersiya bankçılığı bölməsi 2017-ci ildə digər dəyirmi masanın Qubada keçirilməsinə təşəbbüs göstərmişdir. Bu tədbir bankın Quba-Xaçmaz iqtisadi rayonunda kənd təsərüfatının inkişafına verdiyi töfhə ilə bağlı məlumatlandırma xarakteri daşımışdır. Tədbirdə mövcud və potensial müştərilərlə onları maraqlandıran əsas mövzulara dair fikir mübadiləsi baş tutmuşdur. "PAŞA Bank" ASC bu müzakirələr zamanı əldə

edilmiş məlumat əsasında yeni bank məhsullarını ərsəyə gətirmişdir.

### İşgüzar fəaliyyətdən əminlik indeksi

Azərbaycan iqtisadiyyatının dayanıqlı inkişafına məsuliyyətlə yanaşması ilə əlaqədar olaraq,"PAŞA Bank" ASC 2017-ci ildəmüştəriləri arasında rüblük qaydada keçirilməsi nəzərdə tutulan işgüzar fəaliyyətdən əminlik mövzusunda sorğulara başlamışdır. İşgüzar fəaliyyətdən əminlik indeksi (BCI) müəssisənin/biznes subyektinin istehsalat həcminin, sifarişlərinin və anbarda mal qalığının, həmçinin cari vəziyyətinin və yaxın gələcəkdə gözlədiyi məsələlərin qiymətləndirilməsinə əsaslanır.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT)metodologiyasına əaslanan bu indeksə dair əlavə məlumat əldə etmək üçün aşağıdakı mənbəyə müraciət edin: https://data.oecd.org/leadind/business-confidence-index-bci.htm.

### Dəstək verilmiş və birgə təşkil edilmiş tədbirlər

"PAŞA Bank" ASC sənaye ekspertlərinin iştirakı ilə plenar müzakirələr vasitəsilə iqtisadi riskləri və vəziyyətin inkişaf ehtimallarını təhlil etmək məqsədilə keçirilən tədbirləri dəstəkləyir. Bu tədbirlərdə əsas diqqət Azərbaycan və Xəzər bölgəsində fəaliyyət göstərən biznes rəhbərlərinin üzləşdikləri strateji qərarlar qarşısındakı qlobal risklər və hadisələr əsnasında inkişaf perspektivləri üzərində cəmləşir.2017-ci ildə "PAŞA Bank" ASC müxtəlif tərəfdaşlarla birlikdə bir sıra ölkələrdən qərarverənləri, investorları və qeyri-hökumət təşkilatlarını bir araya gətirərək Azərbaycanın iqtisadi inkişafının sürətləndirilməsi imkanlarını müzakirə etmək məqsədilə tədbirlər təşkil etmişdir.

- Amerika-Azərbaycan Ticarət Palatasının (USACC) illik konfransı (28 fevral – 2 mart 2017-ci il)
- SHE ("zirək, xoşbəxt, zərif") konfransı (28 mart 2017-ci il)
- İqtisadi islahatlar konfransı (30 may 2017-ci il)
- Azərbaycan Mikromaliyyə Asosiasiyasının (AMFA) investorlar yarmarkası (6 oktyabr 2017-ci il)
- Qeyri-qanuni yolla əldə edilmiş pul vəsaitinin leqallaşdırılması ilə mübarizə mövzusunda konfransAnti-Money Laundering Conference (30 noyabr 2017-ci il)

### PAŞA Bank Amerika-Azərbaycan Ticarət Palatasının (USACC) tərəfdaşlığı ilə illik konfrans keçirmişdir

Amerika-Azərbaycan Ticarət Palatasının (USACC) illik konfransı 2017-ci ilin mart ayında Vaşinqtonda, Kolumbiya Dairəsində baş tutmuşdur. Diplomatik missiyalar, biznes asosiasiyalar, böyük banklar, investisiya asosiasiyaları və digər təsisatlar daxil olmaqla 30 müxəlif təşkilatdan 250-dən çox nümayəndə toplantıya qatılmışdır.

Konfrans zamanı hər iki ölkədən olan ekspertlər aşağı düşən neft qiymətləri əsnasında dünya iqtisadiyyatında baş vermis dəyişiklikləri, bu hadisəsnin Azərbaycan və ABŞ iqtisadiyyatına təsirini, həmçinin iki ölkə arasında ticarət əlaqələrinin inkişafına açılan gələcək mənzərəni müzakirə etmişdirlər. Tədbirin gündəliyində iqtisadi islahatlar və işgüzar fəaliyyət üçün yeni imkanlar, qeyri-neft sektorunun inkişafı və xarici investisiyaların cəlb edilməsi, Azərbaycanda dövlət-özəl sektoru tərəfdaşlığının gələcək inkişafına aid edilən məsələlər həmçinin yer tapmışdır.

### PAŞA Bank "Azərbaycanın 100 işgüzar qadını" təşəbbüsü çərçivəsində "SHE" konfransının keçirilməsinə tərəfdaş olmuşdur

2017-ci il 28 mart tarixidnə Bakıda baş tutmuş SHE ("zirək, xoşbəxt, zərif") konfransı qadınları səlahiyyətləndirmək, həmçinin qadınlar üçün sağlam həyatın yaşanmasından karyera inkişafınadək məsləhət və təcrübə ilə bölüşmək imkanını yaradan mühiti təmin etmək məqsədilə keçirilən beynəlxalq tədbirdir.

Konfransda qadınların işgüzar fəaliyyət zamanı üzləşdikləri stereotiplər ("damğalar"), şirkətlərdə gender bərabərliyi, Azərbaycanın siyasi həyatında qadın iştirakçılığı, həmçinin ailə həyatı ilə karyera məqsədləri arasında tarazlığın təmin edilməsi baxımından qadınların yaşadıqları çətinliklər daxil olmaqla geniş əhatəli məsələlər müzakiə edilmişdir.

PAŞA Bank "İqtisadi islahatlar: əldə edilmiş nəticələr və tövsiyələr" konfransı çərçivəsində İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) və Azərbaycanda Amerika Ticarət Palatasının (AmCham) tərəfdaşı kimi çıxış etmişdir

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) və Azərbaycanda Amerika Ticarət Palatası (AmCham) özəl sektorun islahatların aparılmasında yaxından iştirakını təmin edən və islahatların əhatəliliyinin genişlənməsinə, effektivliyinin isə artımına töhfə verən iqtisadi islahalatlara dair məlumatlandırma səviyyəsini yüksəltmək məqsədilə 2017-ci il 30 may tarixində "İqtisadi islahatlar: Əldə edilmiş nəticələr və tövsiyələr" mövzusunda birgə konfrans keçirmişdirlər.

PAŞA Bank Azərbaycan Mikromaliyyə Asosiasiyasının (AMFA) 2017-ci il tarixli investorlar yarmarkasının tərəfdaşı kimi çıxış etmişdir

Sayca 5-ci investorlar yarmarkası 2017-ci il 6 oktyabr tarixində baş tutmuşdur. Tədbirin əsas məqsədi xarici investorsları ölkə regionlarında fəaliyyət göstərən kiçik- və ortahəcmli biznes subyektlərinin inkişafının dəstəklənməsinə cəlb etməkdən ibarət idi.

"Azərbaycanda mikromaliyyənin gələcəyi: çətinliklər və imkanlar" mövzusunda keçirilmiş yarmarkada özəl və dövlət sektorlarını təmsil edən 100-dən çox nümayəndə iştirak etmişdir. İştirakçılar arasında bank, bank olmayan kredit təşkilatları, investisiya şirkətləri, tənzimləyici qurumlar (Azərbaycan Respublikasının Mərkəzi Bankı, Azərbaycan Respublikası Maliyyə Bazarlarına Nəzarət Palatası), Beynəlxalq Maliyyə Korporasiyası, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası, həmçinin digər yerli və beynəlxalq təsisatların və qurumların nümayəndələri təmsil olunmuşdurlar.

"Mikromaliyyələşdirmə sektorunun gələcəyi" və "Maliyyə texnologiyaları erası" mövzusunda işçi sessiyalar keçirilmişdir. İştirakçılar və ekspertlər bazar subyektlərinin üzləşdikləri ən son problemlər və çağırışları, həmçinin sektorun inkişafında tənzimləyici qurumların rolunu müzakirə etmişdirlər. Ekspertlər Azərbaycanın qeyri-neft sektorunun inkişafında bazar iştirakçıları tərəfindən innovasiyaların tətbiqinə xüsusi diqqət yetirmişdirlər.



# *DAYANIQLI FƏALİYYƏTƏ DAİR XÜLASƏ*

"PAŞA Bank" ASC fəaliyyətinin hər istiqamətindəüstün dayanıqlıq praktikalarının təcəssüm etməsinə sadiq qalır. İndiyədək bank dayanıqlı göstəricilərininehtiva edildiyi və növbəti strateji dövr üzrə dayanıqlıq vəzifələrinin ifadə edildiyi dayanıqlı inkişafa dair üç hesabat dərc edib.

Makroiqtisadi mühitin qəliz olmasına baxmayaraq "PAŞA Bank" ASC strateji qərarlarını və işgüzar fəaliyyətini başlıca beş dəyəri (Dürüstlük, Keyfiyyət, Sahibkarlıq, Əməkdaşlıq və Gəlirlilik) üzərində qurmağa davam edir.

Dayanıqlı inkişafa və rəhbər dəyərlərimizə məsuliyyətli yanaşmamız aidiyyəti olan məsələlər və il ərzində əldə etdiyimiz nailiyyətlərimizin aşağıdakı xülasəsində nümayiş etdirilir.

## Müştərilərimiz

*"PAŞA Bank" ASC müştərilərinə geniş çeşiddə yüksəkkeyfiyyətli xidmətlər təklif edir və Azərbaycanın maliyyə bazarlarının dayanıqlı inkişafına dəstək verir.*

Dayanıqlı inkişaf strategiyası səpkisində "PAŞA Bank" ASC müştəri münasibətlərinə dair maliyyə məhsulların və xidmətlərinin şaxələnməsinə və müştəri bazasının genişlənməsinə əsaslanan yeni bir yanaşmanı nəzərdən keçirir. Bank, müştəri münasibətlərini idarəetmə sahəsində müştərilərini korporativ, ticarət və KOS istiqamətləri üzrə təsnifləşdirərək və münasibətləri daha effektiv idarəetmə strukturunu işə salaraq bu yeni yanaşmanın tətbiqinə başlayıb.

### Rəqabətdə üstün məhsullar: "Tacir" kartı və "Tacir" kassa terminalı

Təchizat zənciri üzrə ödənişləri asanlaşdırmaqməqsədilə "PAŞA Bank" ASC rəqabətdə üstün iki məhsul tətbiq etmişdir: "Tacir" kartı və "Tacir" kassa terminalı. Təklif edilən bu məhsullar həmçinin fərdi hallar üzrə müəyyən edilmiş kredit məbləğlərindən (limitlərindən) bəhrələnmək və bütöv məbləği ƏDV ilə birlikdə ödəmək imkanını yaradır. Gömrük ödənişlərini sadələşdirmək və tərəfdaşlar üçün əlavə imkanlar yaratmaq üçün "PAŞA Bank" ASC gömrük terminallarında müasir ödəniş kassalarını quraşdırıb və gömrük (ödəniş) kartlarını dövriyyəyə buraxıb. PAŞA Bank kart sahiblərinin say artımı nəticəsində bank buraxdığı əmək haqqı kartlarının sahibi olan iri korporativ müştərilərin işçi heyət üzvləri üçün əlavə üstünlüklərin təqdim edildiyi tədbir keçirmişdir.

### İnnovativ məhsullar və xidmətlər

"PAŞA Bank" ASC beynəlxalq bankçılıqda və müştəri tələbatında yaranan yeni təmayülləri yaxından izləməklə bir-birindən fərqli müştəri qruplarına aid edilən müştərilərinə innovativ məhsullar və xidmətlər təklif edir. Bu yeniliklərdən biri, bankın kredit portfelini əhəmiyyətli dərəcədə artıra biləcək alış sifarişlərinin maliyyələşdirilməsidir. Maliyyələşmə alətlərindən başqa, "PAŞA Bank" ASC konkret tarixdə nağd şəkildə hesablaşma (sadə forvard) öhdəliyi (NDF) və itkilərin heçləşməsi müqavilələri kimi xəzinədarlıq məhsullarını tətbiq edib. Forvard müqaviləsi valyutanı, yaxud digər aktivi gələcəkdə razılaşdırılmış qiymətə almaq, yaxud satmaq öhdəliyidir. Məsələn, valyuta üzrə forvard müqavilələrindən istifadə etməklə müştəri işgüzar fəaliyyəti çərçivəsində hesablaşmanı verilmiş tarixdə əlverişli məzənnə ilə apararaq müqavilə üzrə hesablaşmanı gələcək tarixdə həyata keçirə bilər.

### Mükəmməl əməliyyatların davam etməsi məqsədilə texnologiyalara edilən investisiya

"PAŞA Bank" ASC-nin göstərilən xidmətlərin keyfiyyət artımı və əməliyyatların səmərəlilik səviyyəsinin yüksəldilməsi üzrə

*“PAŞA Bank” ASC, Oracle FLEXCUBE maliyyə platforması kimi üstün texnoloji vasitələri “Birinci Sinif” bankı kimi təsnif edilən biznes proseslərinə uğurla inteqrasiya etmişdir.*

əsas strategiyasının özəyində rəqəmsallaşma qərarlaşıb. Oracle FLEXCUBE maliyyə platformasının tətbiq edildiyi 2017-ci maliyyə ili bank üçün xüsusi diqqətə layiqdir.

Dünyanın aparıcı maliyyə təsisatları müştərilərin qeyri-daimi tələbat və ehtiyaclarını daha effektiv qaydada tənzimləmək məqsədilə bu platformadan istifadə edirlər. Yeni sistem PAŞA Banka daha üstün, müştəri yönümlü onlayn bank vasitələri və xidmətləri ilə təchiz edilmiş təmamilə yeni bir olayn bank sisteminin tərtib edilməsinə imkan vermişdir. Internet bankçılıqdan istifadə təmayülü artım dinamikasını saxlamışdır; ilin sonunadək bank əməliyyatlarının 86%-i onlayn bankçılıq vasitəsilə işlənmişdir.

### Müştərilər üçün texnoloji seçimlər

Rəqəmsallaşma strategiyasının davamı olaraq “PAŞA Bank” ASC il ərzində B2B (“biznesdən biznesə”) platformasının öz sisteminə inteqrasiyasını tamamlamışdır. Əlavə olaraq, bankın bəzi korporativ müştəriləri öz sistemləri ilə “PAŞA Bank” ASC-nin sistemi arasında tam inteqrasiyanı təmin etmişdirlər. B2B platforması müştərilər üçün müəssisə resurslarının planladşırılması (ERP) sistemlərini xüsusi kanalla, digər (kağız əsaslı vasitələr, internet bankçılıq, səyyar cihazlar üçün tətbiqi proqramlar kimi) vasitələrə müraciət etmədən bankçılıq sisteminə inteqrasiya etmək imkanını yaradır. Beləliklə, platforma əməliyyatları daxili sistemi vasitəsilə asan və çevik şəkildə həyata keçirir. Xüsusilə qeyd edilməlidir ki, PAŞA Bank müştəriləri bu xidmətlə təmin edən ilk Azərbaycan maliyyə təsisatıdır.

## İşçi heyətimiz

“PASHA Bank” ASC-nin İnsan Resursları departamenti yüksək işgüzarlıqla səciyyələnən, fərqli işçi qüvvəsinin işə cəlb edilməsi və götürülməsi, saxlanması və işinə davam etməsinə təminatların yaradılmasına məsuliyyətlə yanaşır. Bank,insan resurslarını idarəetmə sahəsində tərəqqi yönümlü siyasət və strategiyaların yaradılmasına vəicrasına davam edir. “PAŞA Bank” ASC, fərdi işçilərin töhfələrinin əhəmiyyətini etiraf etməklə peşəkar və əməkdaşlığa söykənən iş münasibətlərini yüksək dəyərləndirən müsbət iş mühitinin formalaşmasına təkan verməklə maliyyə xidmətləri sahəsinin öndərikimi çıxış edir. Departament, iş yerinə dair siyasət və prosedurlarla bağlı sual, yaxud məsələləri olan menecerlər və işçilər üçün etibarlı mənbə olanbankdaxiliaçıq rabitə vasitələrini təşviq edir və işlək vəziyyətdə saxlayır.

Bankın İnsan Resursları departamenti işəgötürmə, hədəflərin effektiv və səmərəli nail olunmasına nəzarət, tədris və inkişaf məsələlərini təkmilləşdirməklə müsbət iş mühitinin dayanıqlı inkişafına davam edir.

2017-ci ildə işəgötürmə prosesini planlaşdırarkən “PAŞA Bank” ASC işçi heyətin formalaşdırılması baxımından istedadlı şəxsləri cəlb edən, işlə təmin edən və iş yerində saxlayan işəgötürən qismində qazandığı nüfuzun “brendə”çevrilməsi istiqamətində irəliləyişə nail olmuşdur. Tarazlı, dəqiq işlənmiş işəgötürmə proqramı yeni işçü qüvvə nəslinə mövcud işçi heyətlə birlikdə çalışmaq imkanını vermişdir.

2017-ci ilin sonunadək “PAŞA Bank” ASC-nin işçi heyəti ilərzində işə qəbul edilmiş 175 yeni işçi olmaqla 608 üzvdən ibarət idi.

### İşçi heyətimizin inkişafı

“PAŞA Bank” ASC işçi heyətinin bankın gündəmində olan biznes məqsədlərə nail olması istiqamətində müvafiq səriştələrə yiyələnməsini təmin etmək məqsədilə işçiləri üçün davamlı inkişaf proqramlarını həyata keçirir. Bank, işçi heyət üzvlərinin cari və gələcək vəzifə öhdəliklərinin yerinə yetirilməsində fərqlənmələri üçün zəruri bilik, bacarıq və səriştəyə yiyələnmələri məqsədilə inkişaf və təlimproqramlarını tərtib və icra edir. “PAŞA Bank” ASC-nin hədəflərin effektiv və səmərəli nail olunmasına nəzarət sisteminin başlıca amillərindən biri inkişafdır.

İşçilər “PAŞA Bank” ASC-də müxtəlif təlim proqramlarının dinləyicisi, yaxud iştirakçısı kimi çıxış edirlər. Bankın tədris proqramları, işçi heyəti səciyyələndirən müxtəlif tədris üslublarına cavab verən qarışıq üsullarla öyrənmək imkanlarını təmin etmək məqsədlið qurulur və yaradılır. İnkişaf proqramları peşəkar işçi heyət üzvləri üçün davamlı tədrisi təmin etmək məqsədilə tərtib edilir. “PAŞA Bank” ASC-də təlim proqramlarını müxtəlif beynəlxalq və yerli şirkətlərdən, universitetlərdən, təlim mərkəzlərindən və bu qəbildən olan qurumlardan yüksək ixtisaslıtəlimçilər tədris edirlər.

2017-ci ildə “PAŞA Bank” ASC-də əsas diqqət rəhbər işçi heyət üzvləri üçün liderliyin aşılanması proqramı üzərində cəmləşmişdir. Altmış beş rəhbər işçi Develor təlim şirkəti ilə əməkdaşlıq çərçivəsidnə tərtib edilmiş liderliyin əsasları mövzusunda təlim kursuna qatılmışdır. Bu kursu tədris etmək üçün Develor şirkətinin qlobal şəbəkəsindən beynəlxalq ustad təlimçi dəvət edilmişdir. Əlavə olaraq, orta səviyyəli menecerlər üçün il ərzində rəhbər işçilərə öyüdvermə (“kouçinq”) məşğələləri davam etmişdir.

2017-ci ildə “PAŞA Bank” ASCişçi heyətinə texniki biliklərini artırmaq və maliyyə dünyasında, bank və marketinq sahələrində baş vermis son dəyişikliklərdən xəbərdar qalmaq məqsədilə toplam 30 məşğələdən ibarət olan beş kurs keçmişdir. Nəticədə, 250-dən çox işçi heyət üzvü təşkilatdaxilində, ölkə miqyasında və xaricdə təşkil edilmiş təlim proqramına qatılmıdır.

2017-ci ilin avqust ayında əsas biznes və satış heyətləri üçün tərtib edilmiş işçilərin inkişafı proqramlarınabaşlanmışdır. Bu təşəbbüs sözügedən heyətlərin texniki bilik və bacarıqlarını möhkəmləndirmək məqsədini daşıyır. Satış heyətinin fəaliyyət göstəricilərini növbəti mərhələyə çatdırmaq məqsədilə ilin sonunda üstün satış bacarıqları mövzusunda təlimə başlanmışdır. Xüsusilə tərtib edilmiş təlimlər əsas biznes və pərakəndə bankçılıq sahələrini bütövlükdə əhatə edir. İndiyədək bu təlimlərə 120-ə yaxın işçi heyət üzvü qatılmışdır.

Bu müxtəlif təlim proqramlarının və vasitələrinin hamısı “PAŞA Bank” ASC-nin ümumi fəaliyyət göstəricilərini yaxşılaşdırmaq üçün işçilərin məhsuldarıq və iştirakçılıq səviyyələrini artırmaq məqsədilə yaradılır.

### İşçi heyətimizin iştirakçılığı

1.“PAŞA Bank” ASC, fikir və düşüncələri bölüşmək üçün kiçik işçi heyət üzvlərinin Baş İcraçı Direktorla ənənəvi səhər yeməklərinə davam etmişdir. 2016-17-ci illərdə bu qəbildən olan görüşlər Bakıda və bankın regional ofislərində baş vermişdir. Bu tədbir sayəsində aşağı vəzifəli işçi heyət üzvlərinin bankın biznes proseslərinin optimallaşdırılması və yaxşılaşdırılmasına dair irəli sürdükləri toplam 75 təklif bankın müxtəlif bölmələri tərəfindən nəzərdən keçirilmiş və uğurla həyata keçirilmişdir.

2. Kommunikasiya tədbirləri:

- şaquli və üfiqi kommunikasiya praktikasını yaxşılaşdırmaq üçün təşkilat miqyasında, ali rəhbərlikdən supervayzerlərə və menecerlərdən ön xətt işçilərinə doğru məlumat axınına təkan verməklə menecerlər və onlara birbaşa tabeli işçilər arasında münasibətləri gücləndirmək məqsədilə məlumatın yuxarıdan aşağıya doğru ötürülməsi prosesi qurulmuşdur.

- yuxarıdan aşağıya doğru kommunikasiya mühüm məlumatın ötürülməsini təmin edən işlək, qarşılıqlı məlumat axınını yaradaraq məlumatın təşkilat strukturunun üst bölməsinə qərarlaşmış vahidlərinə göndərilməsinə və sıravi işçilərin ümumi işçi qüvvəsində fikir bildirmələrinə həmçinin yardım edir.

- "PAŞA Bank" ASC işçilər arasındai çarpaz funksional əməkdaşlığı fəal şəkildə dəstəkləyir.

3."PAŞA Bank" ASC Idarə Heyəti üzvləri daxili kommunikasiya üzrə illik planlarının icrasına davam edirlər. Bura aşağıdakılar daxildir: işçinin nailiyyətinin (məktub vasitəsilə, zəngi vasitəsilə, iş otağına gözlənilməz qaydada baş çəkməklə, yubanmadan telefonla zəng etməklə) tanınması, digər işlərlə yanaşı birbaşa tabeli vəzifələri tutan şəxslərlə qeyri-formal "komandaların" yaradılması.

4. İşçilərlə daha dərin ünsiyyət yaratmaq üçün "PAŞA Bank" ASC işçilərin ailə üzvlərinin iştirakı ilə müxtəlif tədbirlər (məsələn, Yeni İl şənliyi, kinoteatra, qocalar evlərinə gəlişlər), həmçinin bankın işçi heyət üzvlərinin iştirakı ilə idman və digər fəaliyyət növlərini (marafon qaçışları, futbol çempionatları, əqli oyunlar və s.) təşkil edir.

5. 2017-ci ildə "PAŞA Bank" ASC ilk dəfə Təşkilatın Sağlamlıq İndeksi (OHI) sorğusunu aparmışdır.

Bu sorğu, "PAŞA Bank" ASC-nin işçi heyət üzvlərinin necə çalışmalarına diqqət yetirməklə, həmçinin korporativ qurum kimi bankda mədəni dəyərlərin oturuşmasına aydınlıq gətirməklə tərtibat və əhatə nöqteyi-nəzərindən standart tədqiqat yönümlü sorğulardan fərqlənir. Bank, mədəniyyət baxımından əsas güclü tərəflərinin, həmçinin düşüncə, icraat, liderlik və korporativ dəyərlər baxımından inkişaf etdirilməli tələbatlarının bu sorğu vasitəsilə aşkarlanmasına əminliklə inanır.

Sorğu haqqında əlavə məlumat üçün aşağıdakı ünvana müraciət edin: https://www.mckinsey.com/solutions/orgsolutions/overview/organizational-health-index

### "PAŞA Bank" ASC-nin Rotary Klubu

Rotary Klubu "PAŞA Bank" ASC-nin işçilərinin bankın korporativ sosial məsuliyyətlə bağlı ümumi mandatına sığmayan xeyriyyəçilik tədbirlərini səmərələşdirmək məqsədilə Təşkilat Komitəsi tərəfindən idarə edilir. Təşkilat Komitəsi işçi heyət üzvlərinin körpələr və uşaq evlərinə onların əyləncə məsələləri ilə bağlı ehtiyaclarını qarşılamaq və sosial ünsiyyət vərdişlərini möhkəmləndirmək məqsədilə müntəzəm səfərlər təşkil edir. Komitə həmçinin "PAŞA Bank" ASC-nin işçi heyət üzvləri və "PAŞA Holdinq" MMC-nin digər işçiləri arasında Rotary Klubunun həll etməyə çalışdığı sosial məsələlərdən xəbərdarlıq səviyyəsini artırmaq məqsədilə müxtəlif oyun və müsabiqələr təşkil edir.

Komitənin uğurlu fəaliyyətinin ən vacib göstəricisi "PAŞA Bank" ASC-nin işçi heyətinin yeni tədbirlərdə iştirakçılıq səviyyəsidir. Layihə başlandıqdan Klubun fəaliyyətində iştirak edən işçilərin sayı dördqat artmışdır.

### Sosial-iqtisadi inkişafa töhfə

İcmaların inkişafına sərmayə qoymaq "PAŞA Bank" ASC-nin işgüzar fəaliyyətinin

mühüm hissəsidir. Yerli miqyasda edilmiş bu yatırımlar bütövlükdə cəmiyyət üçün olduqda böyük fayda, uzunmüddətli inkişaf imkanlarının isə gerçəkləşməsinə rəvac verəcək. 2017-ci ildə EMEA Finance beynəlxalq maliyyə jurnalı "PAŞA Bank" ASC-i yerli icmaları fəal dəstəklədiyinə görə "MŞA və MDB məkanında korporativ sosial məsuliyyət" təltiflərinə layiq görmüşdür.

"PAŞA Bank" ASC-nin ümumi korporativ sosial məsuliyyət məqsədləri sahibkarlığı gücləndirməklə Azərbaycan iqtisadiyyatını inkişaf etdirməkdən ibarətdir. Bank, ölkənin sonrakı inkişafında təhsilin xüsusi mövqeyə malik olmasına həmçinin inanır. Məhz bu səbəbdən "PAŞA Bank" ASC gənclər arasında təhsilin dəstəklənməsinə, ölkə gəncləri arasında maliyyə savadlığının artırılmasına və işgüzar dairələrin maarifləndirilməsinə əhəmiyyətli həcmdə resurs sərf edir.

"PAŞA Bank" ASC ölkə gənclərinin hədəf kimi əhatə edildiyi bir sıra layihələrdə iştirak edir və Azərbaycanda kiçik- və ortahəcmli biznes subyektlərinin potensialının gücləndirilməsi və maliyyə məsələləri ilə bağlı maariflənməsinə töhfə verir. Bura Thomson Foundation ilə əməkdaşlıq çərçivəsində t'rtib edilmiş biznes-jurnalistika layihəsi daxildir. Bu layihənin məqsədi xüsusi təlim proqramı vasitəsilə milli KİV-lərin peşəkar səriştə və bacarıqlarını gücləndirməklə Azərbaycanda biznes xəbərlərinin yazılması standartlarını artırmaqdan ibarətdir. Eyni zamanda, "PAŞA Bank" ASC-nin tələbələr arasında təqaüd proqramı Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı ilə birlikdə həyata keçirilir və gənc istedadlarda bankda işləmək həvəsini yaratmaq məqsədilə tərtib edilib. "PAŞA Bank" ASC-nin təşəbbüskarlığı ilə başlayaraq olduqca uğurlu hesab edilən bu layihə də Azərbaycan gəcnlərini dəstəkləyir.

Ölkənin biznes rəhbərləri arasında maliyyə savadlığının və korporativ idarəçilik biliklərinin artımına yardım etmək məqsədilə "PAŞA Bank" ASC qarşı tərəflərlə aşağıdakılar daxil olmaqla bir neçə tədbirin həmtəşkilatçısı və iştirakçısı olmuşdur:

- KOS-lara dəstək mexanizmlərinə dair tədbir (13 oktyabr 2017-ci il)
- "Maliyyə əməliyyatlarında şəffaflığın təmin edilməsi" təlim proqramının təqdimatı (30 noyabr 2017-ci il)
- "Yerli istehsalçıların beynəlxalq bazarlara çıxışı – imkanlar və çətinliklər" mövzusunda dəyirmi masa (19 oktyabr 2017-ci il)
- Ölkənin müxtəlif regionlarında (19 aprel 2017-ci ildə Şəkidə və 24 may 2017-ci ildə Qubada) aqrobiznesin inkişafına yönəlmiş dəyirmi masalar

Dövlət və özəl sektor şirkətlərinin, həmçinin beynəlxalq maliyyə təsisatlarının nümayəndələr bu tədbirlərdə iştirak etmişdir. "PAŞA Bank" ASC  bu tədbirlərin (seminarları, konfransları və forumları) və gələcəkdə bu qəbildən təşkil edəcəyi oxşar tədbirlərin biznes dairərlərin bilik və bacarıqlarının, həmçinin "nouhau" üsullarının yaradılmasına və Azərbaycanda korporativ idarəçilik standartlarının artırılmasına uzunmüddətli təsir göstərəcəyini hesab edir.

Müştərilərimizlə keyfiyyətli, uzunmüddətli münasibətlərin qurulması vasitəsilə, məhsul və xidmətlərimizi daima təkmilləşdirməklə, biznes proseslərimizin səmərəliliyinin artımına təkan verməklə və geniş mənada icmaların inkişafına investisiya qoymaqla dayanıqlı artımın mümkün olmasına inanırıq.

## "PAŞA Bank" ASC-nin Dayanıqlı İnkişaf strategiyası

| PAŞA Bankın fəaliyyətinə təsiri | Aşağı | Orta | Yuxarı |
|---|---|---|---|
| Yuxarı | | • Enerji<br>• Emissiyalar<br>• Məşğulluq<br>• Müxtəliflik və Bərabər imkanlar | • İqtisadi fəaliyyət<br>• Dolayısı iqtisadi fəaliyyət<br>• Məhsul və xidmətlər<br>• Təlim və təhsil<br>• Anti-korrupsiya<br>• Komplayans<br>• Məhsul portfeli<br>• Audit<br>• Fəal mülkiyyətçilik<br>• İnvestisiya |
| Orta | | • Nəqliyyat<br>• Qeyri-ayrı-seçkilik | • Məhsul cavabdehliyi<br>• Qadın və kişi üçün bərabər mükafatlandırma<br>• Yerli icmalar |
| Aşağı | | | |

Maraqlı tərəflərin prioritetləri

| KTİ istiqamətləri | Dayanıqlılıq yanaşması |
|---|---|
| Sahibkarlığı gücləndiririk | Bizim üçün müştəri |
| İnsan kapitalını gücləndiririk | Bizim üçün insan resursları |
| Potensial və səmərəli idarəçiliyi gücləndiririk | Bizim üçün resurs |



# *MALİYYƏ HESABATLARININ İCMALI*

# MALİYYƏ HESABATLARININ İCMALI

"PAŞA Bank" ASC bundan sonra da Azərbaycanın maliyyə bazarında fəaliyyətini genişləndirməyə sadiqdir. Bank, şəffaf biznes praktikalarını özündə ehtiva erməklə və ölkənin bank sektorunda şəffaflığı artırmaqla korporativ və Private Banking sektorlarında aparıcı maliyyə təsisatına çevrilmək məqsədinə qulluq edir. Yüksəkkeyfiyyətli aktivlərə malik olmaq "PAŞA Bank" ASC-nin 2015-2017-ci illər üzrə strateji planının əsas hədəflərindən biri olmuşdur. Bank, mənfəət və risk amilləri arasında tarazlığı təmin etmək məqsədilə aktivlərini yüksək- və ortalikvidli vəsaitlərdə yerləşdirmişdir.

2017-ci ildə "PAŞA Bank" ASC toplam 499,149 min manat (2016-cı ildə isə 487,266 min manat) təşkil etmiş səhmdar kapital baxımından Azərbaycanın ən böyük kommersiya bankı mövqeyini qorumuşdur.

İlin sonuna olan vəziyyətə əsasən "PAŞA Bank" ASC aktivlərinin cəmini 3,958,415 min manat, əvvəlki illə (2016-cı ildə 3,289,845 min manatla) müqayisədə 20% yüksək səviyyədə bəyan etmişdir.

2017-ci ilin 31 dekabr tarixinə olan vəziyyətə əsasən "PAŞA Bank" ASC-nin aktivləri aşağıdakı kimi təsnif edilmişdir:

- Nağd pul vəsaiti və onun ekvivalentləri – 37%
- Müştərilərə verilmiş kreditlər – 34%
- Kredit təsisatlarından alınacaqlar – 15%
- Qiymətli kağızlar portfeli – 11%
- Digər (cari və cari olmayan) aktivlər – 3%

2017-ci ildə "PAŞA Bank" ASC ümumi kredit portfelini əvvəlki illə (2016-cı ildə 1,169,607 min manatla) müqayisədə 21% artıraraq 1,413,992 min manata çatdırmaqla güclü kredit artımına nail olmuşdur.

Kredit portfelinin itkilərə qarşı effektiv ehtiyat dərəcəsi 4.5% (2016-cı ildə isə 5.3%) olmuşdur. 2017-ci ildə "PAŞA Bank" ASC-nin qeyri-işlək kredit portfelinin nisbi çəkisi 2016-cı ilin 8.25% səviyyəsindən 7.23%-dək aşağı düşmüşdür.

Solğun bazaar şəraitində sarsılmaz fəaliyyətə davam etməklə və müştərilərə xidmət göstərməklə "PAŞA Bank" ASC ötən illər ərzində müştərilərlə qurduğu münasibətlərdən bəhrələnməkdədir. Nəticədə, bank əvvəlki illə (2016-cı ildə 2,350,687 min manatla) müqayisədə 23%-lik artım baş tutmaqla bank 2,889,961 min manat həcmində müştəri əmanətlərini təmin etmişdir. Müştərilərdən cəlb edilmiş müddətli və müddətsiz əmanətlərin nisbi çəkisi müvafiq olaraq 64% və 36% (2016-cı ildə isə 42% və 58%) təşkil etmişdir.

2017-ci maliyyə ili üzrə "PAŞA Bank" ASC 89,092 min manat (2016-cı ildə isə 69,288 min manat) xalis mənfəət əldə etdiyini bildirmişdir. Həmin hesabat dövrü üzrə cəmi əməliyyat gəliri əvvəlki illə (2016-cı ildə 186,499 min manatla) müqayisədə 4% artaraq 194,340 min manat təşkil etmişdir.

Eyni zamanda, "PAŞA Bank" ASC-nin faiz gəliri 231,111 min manat, qeyri-faiz gəlirini isə 52,601 min manat olmuşdur. Nəticədə, qeyri-faiz gəlirinin əməliyyat gəlirinin cəminə nisbəti 27% olmuşdur.

Beynəlxalq maliyyə təsisatları ilə geniş danışıqlar sayəsində "PAŞA Bank" ASC çox sayda müxtəlif maliyyə alətlərinə çıxış əldə etməklə korporativ müştərilərinə ticarətin maliyyələşdirilməsi xidmətlərinin genişləndirilməsinə müvəffəq olmuşdur. İki

qlobal reytin ahentliyindən reytinq aldıqdan sonra bank müştərilərinin maliyyələşdirilməsi şərtlərini də yaxşılaşdıra bilmişdir. İnstitusional səviyyədə bank peşəkar xidmətlərini vaxtlı-vaxtında göstərmək məqsədilə müştərilərinin işgüzarlığını artıqmaq üçün onlarla müxtəlif seminar və toplantılar keçirmişdir. 2017-ci ildə "PAŞA Bank" ASC-nin zəmanət və təminat əsasında (o cümlədən malilləlaşmə sonu) verilən sənədlər üzrə cəmi məbləğ qalığı nın hesab qain 435,635 min manat (2016-cı ildə isə 303,727 min manta) təşkil etmişdir.

2017-ci ildə "PAŞA Bank" ASC 1-ci dərəcəli kapital üzrə çatarlılıq əmsalını Azərbaycan Respublikasının Mərkəzi Bankının 15% dərəcəsində müəyyən etdiyi müvafiq kapital tələbinə uyğun (2016-cı ildə isə 20%) səviyyədə bildirmişdir. Bank, Bazel II və Bazel III sazişləri ölkədə tətbiq olunduqda tələb edilən kapital çatarlılığı səviyyələrinə əməletmə, həmçinin səhmdarları üçün kapitalları müqabilində dividend ğdəmək məsələlərini diqqət mərkəzində saxlayır.

*Bütün göstəricilər digər tarix bildirilmədikdə 2017-ci ilin 31 dekabırına təsadüf edir və audit edilmiş məcmu maliyyə hesabatlarına əsaslannır.

PAŞA Bank

Yusif Məmmədəliyev küçəsi, 15
Bakı, AZ1005, Azərbaycan
Tel: (+994 12) 496 50 00
İnternet sayt: www.pashabank.az
E-poçt: customer.care@pashabank.az